

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 30 sentyabr 2025-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

BDU Elmi Şurasının yeni tədris ilində ilk iclası ➔Səh.6

BDU-nun rektoru “THE Avrasiya Universitetlərinin Sammiti”ndə regional inkişafda elmin roluna dair paneldə çıxış edib ➔Səh.8

BDU rektoru “Rektorlar klubu: Mərkəzi Asiya+” təşəbbüsü üzrə beynəlxalq tədbirdə iştirak edib ➔Səh.8

BDU və Corc Vaşinqton Universitetinin Ali Təhsil və İnsan İnkişafı Məktəbi arasında niyyət protokolu imzalanıb ➔Səh.9

BDU və Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universiteti əməkdaşlığı genişləndirir ➔Səh.9

Macarıstanın mədəniyyət və innovasiya naziri Balazs Hankonun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da ➔Səh.10



BDU kollektivi Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib ➔Səh.2



BDU və Türkiyənin Özyegin Universiteti arasında anlaşma memorandumu imzalanıb ➔Səh.3



Çinin nüfuzlu universitetlərinin dörd tələbəsi BDU-da təhsil alacaq ➔Səh.5



BDU və Türkiyənin İğdır Universiteti arasında anlaşma memorandumu imzalanıb ➔Səh.6



BDU “THE Avrasiya Universitetlərinin Sammiti”ndə stendlə təmsil olunur ➔Səh.8



## Bakı Dövlət Universiteti – 106

***1919-cu il sentyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentində Bakı Dövlət Universitetinin təsisi haqqında qanunun qəbul edilməsi xalqımızın elm və təhsil tarixində, milli mədəniyyətimizin və ictimai fikir tariximizin inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur. Bu gün həmin əlamətdar tarixdən 106 il ötür. BDU bütün tarixi inkişafı boyu xalqımızın milli şüurunun formalaşmasında, ölkəmizdə elm və təhsilin inkişafında müstəsna rol oynamışdır. Dövlət müstəqilliyimizin bərpasından sonra bu şərəfli missiya daha böyük uğurlarla və daha böyük miqyasda davam etdirilir.***

Əminliklə söyləyirik ki, doğma Universitetimizin əsas uğurlarının və tərəqqi mərhələlərinin hər biri birmənalı olaraq Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev ölkəmizə ilk dəfə rəhbərlik etdiyi ötən əsrin 70-ci illərindən başlayaraq BDU-ya xüsusi diqqət və qayğı ilə yanaşmış, onun kadr potensialının, maddi-texniki bazasının güclənməsinə şərait yaratmış, eyni zamanda Universiteti elm və təhsilimizin flaqmanı, milli oyanışın mərkəzi kimi qiymətləndirmişdir. BDU-nun qədirbilən kollektivi bütün bunları hər zaman minnətdarlıqla yad edir, Universitetimizin dünya şöhrətli məzunu ilə qürur duyur. 106 illik şərəfli tarixin parlaq səhifələrinə nəzər saldıqda görürük ki, Universitetimizin yubileylərinin təntənəli şəkildə qeyd olunması ənənəsini Ümummilli Liderimiz Heydər Əliyev qoymuşdur.

Ulu Öndərimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2019-cu ildə BDU-nun 100 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Yubileyin keçirilməsi ilə bağlı imzalanmış tarixi sənəddə möhtərəm Prezidentimiz BDU-nun tarixinə xüsusi diqqətlə yanaşmış, Universitetin ölkədə ali təhsil sisteminin qurulmasında, elmi tədqiqatların aparılmasında, ümumən milli özünüdərk prosesinin sürətləndirilməsindəki tarixi xidmətlərini qeyd etmişdir. 100 illik yubiley mərasimində ölkə başçısının iştirakı və proqram xarakterli çıxışı Universitet kollektivinin qarşısında yeni hədəflər qoymuşdur.

BDU hər bir zaman ölkə başçımızın diqqət və qayğısı ilə əhatə olunmuşdur. Bu gün Universitetimiz möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və Azərbaycanın Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək qayğısı və hərtərəfli dəstəyi ilə öz uğurlarını davam etdirir.

106 il əvvəl 2 fakültə, 44 nəfər professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan Universitet hazırda 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, müasir avadanlıqlarla təchiz edilmiş 5 elmi-tədqiqat mərkəzi və 22 elmi-tədqiqat laboratoriyası, 2 milyondan çox kitab fondu olan Elmi Kitabxana, 5 muzey, 5 beynəlxalq institut və mərkəz, 1 tədris-təcrübə və istirahət mərkəzi, 1 tədris-təcrübə bazası, 1 filial, 1 kollec və 1 liseylə müqəddəs yolda davam edir. BDU-da bu gün 25 mindən artıq tələbə təhsil alır. BDU-nun 2021-2030-cu illər üçün Strateji İnkişaf Planında qarşıya qoyulmuş vəzifələr, prioritet istiqamətlər əsasında Universitetdə təhsilin inkişafı, elmi tədqiqatların keyfiyyətinin artırılması, idarəetmə sisteminin dinamikliyinin təmin edilməsi məqsədilə müntəzəm olaraq islahatlar aparılır.

*(ardı 4-cü səhifədə)*

## BDU-da Bilik Günü qeyd olunub

➔Səh.24

# BDU-da BMT-nin İqlim Dəyişmələri üzrə Gənclərin Lokal Konfransı – “LCOY Azerbaijan 2025”in açılış mərasimi keçirilib

Rektor Elçin Babayev Azərbaycan Respubikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dövlət siyasətinin iqlim dəyişmələri ilə mübarizə və “yaşıl inkişaf” prinsiplərinin tətbiqi üzərində qurulduğunu, bərpa olunan enerji mənbələrinin inkişafının prioritet elan edildiyini vurğulayıb




***Sentyabrın 1-də BDU-da “EkoSfera” Ekoloji-Sosial Mərkəzin təşkilatçılığı, BDU və “SEA BREEZE Resort”un birgə tərəfdaşlığı, "CBC – Caspian International Broadcasting Company"nin informasiya dəstəyi ilə BMT-nin İqlim Dəyişmələri üzrə Gənclərin Lokal Konfransı – “LCOY Azerbaijan - 2025”in açılış mərasimi keçirilib.***

İlk gününə BDU-nun ev sahibliyi etdiyi konfrans 150-dən çox gənc iqlim liderini, dövlət qurumlarının nümayəndələrini, beynəlxalq təşkilatları və ölkənin aparıcı ekspertlərini bir araya gətirir.

“LCOY Azerbaijan 2025”in açılış mərasimində çıxış edən “EkoSfera” Ekoloji-Sosial Mərkəz İctimai Birliyinin rəhbəri, COP29 Təşkilat Komitəsinin üzvü Firuzə Sultan-zadə iqlim dəyişikliyi ilə mübarizədə gənclərin əsas söz sahibi olduğunu deyib, tədbirin işinə uğurlar arzulayıb.

BDU-nun rektoru Elçin Babayev belə bir tədbirin ölkəmizdə ilk dəfə keçirilməsindən böyük qürur hissi duyduğunu bildirib. O qeyd edib ki, bu konfrans BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) rəsmi gənclər təşkilatı olan YOUNGO platformasının bir hissəsi kimi həyata keçirilir və qlobal iqlim proseslərində gənclərin səsini gücləndirməyi hədəfləyir. “LCOY” hər il keçirilən COP konfranslarından əvvəl təşkil olunur və bu, qlobal görüşlərə bilavasitə töhfə verir. Növbəti böyük zirvə görüşü – COP30 bu ilin noyabrında Braziliyanın Belem şəhərində baş tutacaq və burada qəbul olunacaq qərarların gələcək onilliklər üçün qlobal iqlim gündəliyini müəyyənləşdirəcəyi gözlənilir.

Rektor Elçin Babayev Azərbaycan Respubikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dövlət siyasətinin iqlim dəyişmələri ilə mübarizə və “yaşıl inkişaf” prinsiplərinin tətbiqi üzərində qurulduğunu, bərpa olunan enerji mənbələrinin inkişafının prioritet elan edildiyini vurğulayıb: “Qarabağ və Şərqi Zəngəzur bölgələri “yaşıl enerji zonası” kimi müəyyənləşdirilib. Bu siyasət Azərbaycanın COP29-a ev sahibliyi etməsi ilə beynəlxalq miqyasda daha da güclənib. Birinci vitse-prezident Mehriban xanım Əliyeva təhsil, elm və mədəniyyət sahələrində dayanıqlı inkişaf təşəbbüslərinə xüsusi dəstək verir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva isə rəhbərlik etdiyi IDEA İctimai Birliyi vasitəsilə uzun illərdir gənclərin ekoloji layihələrə qoşulmasına, təbiətin mühafizəsi və iqlim dəyişmələrinə qarşı mübarizəyə yönəlmiş çoxsaylı proqramların həyata keçirilməsinə öncüllük edir. Bu siyasi iradə və liderlik BDU-nun gənclərlə birgə gördüyü işlər üçün möhkəm əsas yaradır. Bakı Dövlət Universiteti olaraq biz bu missiyanın nə qədər vacib olduğunu çox yaxşı anlayırıq. Universitetimizin elm və təhsil strategiyası yalnız peşəkar kadrların hazırlanmasına deyil, həm də milli və beynəlxalq miqyasda sosial məsuliyyətli, ekoloji düşüncəli və qlobal dəyişikliklərə həssas liderlərin yetişdirilməsinə yönəlib”.

Rektor Bakı Dövlət Universitetinin son illərdə iqlim mövzusunda tələbələrin bilavasitə iştirakını təmin edən bir sıra təşəbbüsləri uğurla həyata keçirdiyini deyib. BDU-da yaradılan Tələbə Məkanı, Ekoməkan və Ekoenerji Məntəqəsi haqqında məlumat verib: “Əminəm ki, “LCOY Azerbaijan-2025” ölkəmizdə gənclərin yeni bir iqlim hərəkatının başlanğıcı olacaq. Burada formalaşan fikirlər, tövsiyə və qərarlar Braziliyada keçiriləcək COP30-a dəyərli töhfə verəcək. Bu müzakirələr yalnız milli səviyyədə inkişafı təşviq etməyəcək, həm də Azərbaycan gənclərinin səsinin qlobal miqyasda daha güclü şəkildə çatdırılmasına xidmət edəcək”.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva isə iqlim dəyişmələrinin dünya üçün böyük risk olmaqla yanaşı, gənclərin innovativ səylərini ortaya qoymaları üçün mühüm fürsət olduğunu vurğulayıb: “Ötən il Azərbaycan üçün iqlim dəyişikliyinə mübarizə sahəsində vacib il oldu. Azərbaycan COP29 kimi beynəlxalq tədbirə uğurla ev sahibliyi etdi. “LCOY Azerbaijan-2025”in də əsas məqsədi COP30-a qədər iqlim dəyişikliyinə qarşı mübarizədə gənclərin səsinin eşidilməsi və təşəbbüslərinin nəzərə alınmasıdır”.

BMT-nin İqlim Dəyişmələri üzrə Yüksək Səviyyəli Çempionu, Milli Məclisin deputatı Nigar Arpadarai iqlim dəyişikliyinin dünyanın bütün ölkələrinə, o cümlədən Azərbaycana təsir etdiyini bildirib. O qeyd edib ki, Azərbaycan iqlim dəyişikliyinə qarşı mübarizədə nümunə olan ölkələrdəndir. Gənclər isə bu prosesin əsas aparıcı qüvvəsidir: "Gənclərin hər mövzuda bacarıqlarını üzə çıxara bilmələri üçün onlara yeni fürsətlər yaratmalı, ideyalarını dəstəkləməliyik”.

“COP29 Azərbaycan”ın İqlim üzrə gənclər çempionu Leyla Həsənova gənclərin daha ədalətli, davamlı və yaşıl gələcək qurmaları üçün birləşməli olduqlarını vurğulayıb: "Gənclərimizin bu konfransda irəli sürəcəyi ideyalar COP30-un təşkilində mühüm əhəmiyyət kəsb edəcək”.

Konfransın açılış mərasimindən sonra iqlim dəyişikliyi ilə mübarizəyə həsr olunmuş seminar və panel müzakirələr keçirilib. Müzakirələr zamanı “İqlim Fəaliyyəti 101 – Qlobal Gənclər Hərəkatı”, “Təşəbbüsdən təsirə – gənclər üçün iqlim liderliyi”, “İqlim liderliyi və cəmiyyətin iştirakı: Yerli təşəbbüslərin gücü”, “Rəqəmsal platformalar və sosial media vasitəsilə iqlim məlumatlandırması”, “Universitetlərdə iqlim aktivizmi və tələbə hərəkatları”, “İqlimə uyğun siyasətlərin yerli səviyyədə tətbiqi”, “Təhsil vasitəsilə davranış dəyişmələri: iqlim maarifləndirilməsi”, “Qlobal iqlim hərəkatlarına Azərbaycan gənclərinin töhfəsi”, “Süni intellektlə ətraf mühitin monitorinqi: gənclər üçün imkanlar”, “Dayanıqlı Kənd Təsərrüfatı və İqlimə Dayanıqlı Qida Sistemləri”, “İrimiqyaslı iqtisadi inkişaf layihələri və iqlim dəyişmələri” kimi mövzular müzakirə olunub, gənclərin təklifləri səsləndirilib.

Qeyd edək ki, konfransın ikinci günü sentyabrın 2-də “SEA BREEZE Resort”da keçiriləcək. Tədbirin ikinci günü Azərbaycan Gənclərinin İqlim üzrə Bəyanaməsi qəbul ediləcək və rəsmi bağlanış mərasimi olacaq.

# BDU kollektivi Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



***Sentyabrın 1-də BDU-nun kollektivi Universitetin yaradılmasının 106 illiyi ilə əlaqədar Fəxri xiyabanda müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri, BDU-nun dünya*** şöhrətli məzunu Heydər Əliyevin məzarını ziyarət edib.

Ulu Öndərin məzarı önünə əklil qoyulub, gül dəstələri düzülüb, xatirəsi hörmət və ehtiramla yad edilib.

# BDU-da İƏT Model Məzunlar Assosiasiyasının görüşü

***Sentyabrın 4-də BDU-da İslam Əməkdaşlığı Təşkilatı Gənclər Forumu Avrasiya Regional Mərkəzi (İƏTGF-ARM) tərəfindən İƏT Gənclər Günü münasibətilə İƏT Model Məzunlar Assosiasiyasının təsis edilməsi ilə bağlı görüş keçirilib.***

Görüşdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, İƏTGF-ARM-in baş direktoru Rəfiq İsmayılov, İƏT model məzunu və Yaponiyanın Vaseda Universitetinin tədqiqatçısı Pərvin Rəhimli çıxış edərək, Assosiasiyanın məqsəd və vəzifələrindən söz açıblar.

Daha sonra İƏTGF-ARM-in baş direktorunun müavini Ramin Həbibzadə iştirakçılarla interaktiv müzakirələr aparıb.

Qeyd edək ki, İƏT Model Məzunlar Assosiasiyasının yaradılmasında əsas məqsəd tələbələrin sosial əlaqələrinin genişləndirilməsi, onlar üçün mentorluq şəbəkəsinin yaradılması və proqramın təkmilləşdirilməsi üçün məzun rəylərinin toplanmasıdır.

# BDU ilə Özbəkistanın Beynəlxalq Maliyyə Texnologiyası və Elmi Məktəbi arasında anlaşma memorandumu imzalanıb

***Sentyabrın 5-də BDU ilə Özbəkistanın Beynəlxalq Maliyyə Texnologiyası və Elmi Məktəbi arasında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU rektoru Elçin Babayev və Beynəlxalq Maliyyə Texnologiyası və Elmi Məktəbinin rektoru Mansur Niyazmetov imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur.

Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramlar, tədris planları və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

# BMT-nin İqlim Dəyişmələri üzrə Gənclərin Lokal Konfransında Azərbaycan Gənclərinin İqlim üzrə Bəyanatı qəbul olunub

***Sentyabrın 2-də "EkoSfera" Ekoloji-Sosial Mərkəzin təşkilatçılığı, BDU və "SEA BREEZE Resort"un birgə tərəfdaşlığı, "Caspian International Broadcasting Company - CBC"nin informasiya dəstəyi ilə BMT-nin İqlim Dəyişmələri üzrə Gənclərin Lokal Konfransı – "LCOY Azerbaijan - 2025"in ikinci günü keçirilib.***

"LCOY Azerbaijan -2025"in ikinci günündə Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, COP29-un Prezidenti Muxtar Babayev ölkəmizdə COP29-un keçirilməsinin qlobal iqlim diplomatiyasında mühüm tarixi hadisə olduğunu qeyd edərək, gənclərin bu prosesdə fəal iştirakının zəruriliyini vurğulayıb. O, Azərbaycan gənclərinin iqlim gündəminə dair təşəbbüslərinin yalnız milli səviyyədə deyil, beynəlxalq arenada da böyük əks-səda doğuracağını, qlobal siyasətin formalaşmasına töhfə verəcəyini bildirib. Muxtar Babayev çıxışında BDU-nun iqlim dəyişmələri və dayanıqlı inkişaf üzrə fəaliyyətin qurulmasında, gənclərin bu istiqamətdə fəal iştiraklarının təmin olunmasında roluna toxunub.



Gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Milli Məclisin deputatı, ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin nümayəndəsi Tural Abbasov, "EkoSfera" Ekoloji-Sosial Mərkəzin rəhbəri, COP29 Təşkilat Komitəsinin üzvü Firuzə Sultan-zadə çıxışlarında gənclərin iqlim məsələlərinin həllində, davamlı gələcəyin qurulmasında mühüm rol oynadıqlarını vurğulayıblar.

Sonra "İqlim və dayanıqlı gələcək: gənclərin baxışı" və "İqlim dəyişmələri və dayanıqlı infrastruktur" mövzularında panel müzakirələri təşkil olunub. Sessiyalarda dövri iqtisadiyyat və eko-innovasiyalar, biomüxtəliflik və ekosistemlərin bərpası, ətraf mühit, sosial və idarəetmə (ESG) prinsipləri, tullantılardan dəyər yaratmaq, sosial ədalət, yaşıl iş yerləri, su təhlükəsizliyi və QHT-lərin roluna dair təqdimatlar dinlənilib.

Tədbirin yekununda Azərbaycan Gənclərinin İqlim üzrə Bəyanatının (National Youth Statement - NYS) ilkin variantı müzakirə edilərək qəbul olunub.

Sözügedən sənəd COP30 (Braziliya) çərçivəsində təqdim ediləcək Qlobal Gənclər Bəyanatına töhfə olacaq.

Qeyd edək ki, "LCOY Azerbaijan - 2025"in rəsmi açılış mərasimi və ilk sessiyaları sentyabrın 1-də Bakı Dövlət Universitetində keçirilib. Bu konfrans gənclərin milli və beynəlxalq iqlim proseslərində daha fəal rol almasına zəmin yaradan mühüm bir platforma kimi yadda qalacaq.

# ICPC dünya finalı çərçivəsində "R.M. 90" proqramlaşdırma müsabiqəsinin qalibləri mükafatlandırılıb

***Sentyabrın 3-də Beynəlxalq Universitetlərarası Proqramlaşdırma Müsabiqəsinin (ICPC) 49-cu dünya finalı çərçivəsində Azərbaycanın ilk proqramçısı, görkəmli pedaqoq, "Şöhrət" ordenli alim, BDU-nun dosenti olmuş Ramin Mahmudzadənin 90 illik yubileyinə həsr olunmuş "R.M. 90" proqramlaşdırma müsabiqəsinin bağlanış mərasimi keçirilib.***

Tədbirdə açılış nitqi ilə çıxış edən Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev bildirib ki, son illərdə ölkəmizdə informasiya və kommunikasiya texnologiyaları sahəsinin müasirləşdirilməsi və inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilir. Kompüter və proqramlaşdırma elmləri BDU-da da prioritet sahələrdən biridir, Universitetdə müasir səviyyədə Rəqəmsal tədqiqatlar laboratoriyası fəaliyyət göstərir. Rektor Ramin Mahmudzadənin Azərbaycanda kompüter elmlərinin inkişafına verdiyi töhfələri xatırladıb, belə müsabiqələrin ölkənin intellektual potensialının artırılmasında mühüm rol oynadığını qeyd edib.



Mərasim İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) İdarə Heyətinin sədri Fərid Osmanovun çıxışı ilə davam edib. Çıxış nitqində o, ICPC yarışlarının ölkəmizə gətirilməsində Ramin Mahmudzadənin əvəzsiz rolunu vurğulayaraq qaliblərin də məhz ICPC dünya finalında təltif olunmasını ruhlandırıcı və gələcək uğurlara təşviqedici bir addım olduğunu qeyd edib.

Daha sonra İRİA-nın İdarə Heyətinin sədr müavini Şahin Əliyev və Azərbaycan Respublikası Mərkəzi Bankının departament direktoru Əfqan Abbasovun iştirakı ilə "ICPC-dən Rəqəmsal cəmiyyətə" mövzusunda panel müzakirələri keçirilib. Panel sessiyası zamanı texnologiya və rəqəmsal inkişaf barədə müzakirələr aparılıb, Ramin Mahmudzadənin tədris metodları xatırlanıb.

Panel sessiyasından sonra qaliblərin mükafatlandırma mərasimi baş tutub. BDU, ADA Universiteti, Bakı Ali Neft Məktəbinin tələbələri müsabiqədə I, ADA Universiteti, Bakı Ali Neft Məktəbi, Milli Aviasiya Akademiyasının tələbələri II, Bakı Dövlət Universiteti, Türkiyənin Marmara Universiteti, Fransa-Azərbaycan Universitetinin tələbələri III yerin qalibi olublar.

Qeyd edək ki, "R.M 90" proqramlaşdırma müsabiqəsi İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, BDU, ICPC Azərbaycan icması və "Caspian Event Organisers" şirkətinin birgə təşkilatçılığı ilə 8 avqust tarixində Bakı Dövlət Universitetində keçirilib. Yarışda ali təhsil müəssisələrində təhsil alan və proqramlaşdırmaya marağı olan 50-yə qədər tələbə iştirak edərək 4 saat ərzində xüsusi proqramlaşdırma tapşırıqlarını həll etmişdilər.

# BDU və Türkiyənin Özyegin Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Sentyabrın 4-də BDU və Türkiyənin Özyegin Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU rektoru Elçin Babayev və Özyegin Universitetinin rektoru Barış Tan imzalayıblar.

İmzalanma mərasimində çıxış edən rektor Elçin Babayev qonağa BDU-nun tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri barədə məlumat verib. BDU-nun türkdilli ölkələrlə, o cümlədən qardaş Türkiyənin ən tanınmış universitetləri ilə sıx əməkdaşlıq etdiyini bildirib. O, Özyegin Universiteti ilə magistratura və doktorantura səviyyələrində uyğun istiqamətlər üzrə geniş əməkdaşlıq imkanlarının olduğunu diqqətə çatdırıb. Rektor qeyd edib ki, hər iki universitet birgə elmi tədqiqatlar apara, ortaq layihələr, tədbirlər icra edə bilər.

Özyegin Universitetinin rektoru Barış Tan BDU ilə uğurlu əməkdaşlığın Azərbaycan və Türkiyənin elmi inkişafında, beynəlxalq səviyyədə rəqabətədavamlı mütəxəssislər yetişdirilməsində mühüm önəm daşıdığını deyib. O bildirib ki, Özyegin Universiteti innovasiyalar, süni intellekt, mühəndislik, beynəlxalq münasibətlər, psixologiya sahələri üzrə BDU ilə əməkdaşlıq etməyə hazırdır.



Qeyd edək ki, memorandum çərçivəsində birgə layihələrin, ortaq beynəlxalq elmi seminar və konfransların keçirilməsi, tələbə və müəllim mübadiləsi proqramlarının təşkili nəzərdə tutulur. Bundan əlavə, memorandum universitetlərin tədris, tədqiqat və beynəlmiləlləşmə istiqamətlərində təcrübələrinin bölüşdürülməsi üçün yeni imkanlar yaradacaq.

# Bakı Dövlət Universiteti – 106

*(əvvəli 1-ci səhifədə)*

Hazırda Universitetdə tədris tarixi ənənələrin və innovativ dünya təcrübəsinin vəhdəti şəklində həyata keçirilir, elmi-tədqiqat işlərinin məzmunu yenilənir, beynəlxalq akademik əlaqələr, eyni zamanda ölkədaxili əməkdaşlıq, xüsusilə sənaye müəssisələri ilə əlaqələr inkişaf etdirilir.

Tələbələrin yüksək səviyyədə təhsil almaları, elmi-tədqiqata təşviq olunmaları və dəstəklənmələri üçün ən müxtəlif innovativ üsul və metodlar tətbiq olunur. Tələbələr müxtəlif platformalarda Universitetin idarəçilliyinə cəlb olunur, tələbə təşkilatlarının rolu günbəgün artırılır.

Aparılan islahatlar tədris prosesinin, elmi-tədqiqatların keyfiyyətini artırır, eyni zamanda tələbələrin ictimai fəallığının artırılmasına, onların Azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərə bağlı, əsl vətəndaş kimi formalaşmasına xidmət edir. Bunun nəticəsisdir ki, professor-müəllim heyətimizin, tələbələrimizin uğurları ildən-ilə artır, Universitetimiz beynəlxalq reytinqlərdə daima öz mövqeyini yüksəldir.

Ötən tədris ilində BDU tələbələri bir sıra beynəlxalq tədbirlərdə, olimpiada və digər yarışlarda iştirak etmiş, mühüm nəticələrə nail olmuşdurlar. İtaliyanın Milan şəhərində keçirilən 75-ci Beynəlxalq Astronavtika Konqresində tələbələrimiz öz təqdimatlarını uğurla nümayiş etdirib, Mexanika-riyaziyyat fakültəsinin tələbələri Vüqar Quliyev və Amil Cəbiyev Bolqarıstanda keçirilən Beynəlxalq Riyaziyyat Olimpiadasında müvafiq olaraq I və III yerlərin, Biologiya fakültəsinin tələbələri Şahnaz Vəliyeva, Firuzə Məhərrəmova və Günay Fətəliyeva isə Tacikistan Milli Universitetinin təşkilatçılığı ilə keçirilən Biologiya üzrə Beynəlxalq Olimpiadada I və II yerlərin qalibləri olublar. Universitetimizin "ESST-6" komandası Türkiyədə keçirilən "TEKNOFEST-2024" Aerokosmik və Texnologiya Festivalında "E-tarım sulama" layihəsi ilə III yerə, "DAIGNOSIS" komandası Çində keçirilən "Belt and Road" Beynəlxalq universitetlərarası startap yarışmasında ölkəmizi təmsil edən yeganə komanda kimi bu nüfuzlu yarışın beş qalibindən biri olmuşdur. Xüsusi vurğulamaq lazımdır ki, fəaliyyətə son illərdə başlamış və qısa müddət ərzində bir sıra mühüm nəticələr əldə etmiş BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi bütün bu proseslərdə aparıcı rol oynayır. Mərkəz tərəfindən həyata keçirilən "SuperCapBack hibrid batareya" və "Clean-Charge sürətli şarj stansiyası" layihələri 2024-cü il 13-15 noyabr tarixlərində Türkiyənin İstanbul şəhərində keçirilən "EV Charge Show" – Dünya Elektromobil Şarj Stansiyası İstehsalçılarının Qlobal Görüş Platformasında təqdim edilib, "BSU Creativity Workz" komandası 220 komanda arasından vəsiqə qazanan 8 komandadan biri olmuşdur. Layihə əsasında BDU-nun ərazisində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə birgə elektromobillərin bərpa olunan enerji hesabına elektrik enerjisi ilə doldurulmasını təmin edən EkoEnerji Məntəqəsi qurulmuşdur. Universitetimizin daha iki komandası bu ilin mart ayında nüfuzlu "International World Innovative Student Expo 2025" (IWISE) yarışmasında iştirak etmiş, "STAJ" komandası "Itech" kateqoriyası üzrə I, "TechTitans" komandası isə "Robotics" kateqoriyası üzrə II yerə layiq görülmüşdür.



2024-cü ildə Universitetin 4 tələbəsi ölkə başçısının imzaladığı müvafiq Sərəncamla Prezident təqaüdünə layiq görülmüşdür. Ötən tədris ilində tələbələrimiz həmçinin bir sıra təqaüd proqramlarının qalibləri olmuşdurlar. Belə ki, tələbələrimiz "PAŞA Holding"in "Əlaçı" təqaüdünün, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramının, "AzerGold"un "Təqaüd proqramı" müsabiqəsinin qalibləri olublar. Eyni zamanda ötən il BDU-nun 14 tələbəsinə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin adlı təqaüdü verilmişdir. 2025-ci ildə tələbə və məzunlarımız Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə icra olunan ikinci "Maarifçi" tələbə-məzun təcrübə proqramında da uğurlu nəticələr göstərmişdirlər. Bu proqramı müvəffəqiyyətlə bitirən 35 nəfərdən 12-si məhz BDU-nun tələbə və məzunu olmuşdur.

Bütün bunlar, əlbəttə ki, tələbələrimizi elmi-tədqiqat işlərinə və eləcə də innovativ tədrsis prosesinə daha da sövq edir. Tələbələrimizi elm və təhsilə həvəsləndirmək məqsədilə 2025-ci ildə BDU Elmi Şurasının qərarı ilə "Birincilik" adlı məqsədli təqaüd təsis olunmuşdur. 2025/2026-cı tədris ilindən etibarən "Birincilik" adlı məqsədli təqaüd Universitetə bakalavriat səviyyəsi üzrə qəbul olunan və müxtəlif ixtisaslar üzrə 550-dən çox bal toplayan abituriyentlər arasından ən yüksək nəticə göstərmiş tələbələrə tədris ilinin sonunadək hər ay 200 manat olmaqla veriləcəkdir.

Hazırda Universitetdə 3 mindən çox əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. Onlardan 250-dən çoxu elmlər doktoru, professor, 800 nəfərə yaxın əməkdaş isə fəlsəfə doktoru, dosentdir. Bu gün BDU-da bakalavriat səviyyəsində 77 ixtisas, magistratura səviyyəsində 243 ixtisaslaşma və doktoranturada 123 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. Əmək bazarının tələblərinə uyğun yeni ixtisas və ixtisaslaşmaların yaradılması BDU-nun strateji hədəflərindəndir. Son illər BDU-da təhsilin bakalavr və magistratura səviyyələrində bir sıra yeni ixtisas və ixtisaslaşmalar açılmışdır. 2025/2026-cı tədris ilindən etibarən Sosial elmlər və psixologiya fakültəsində bakalavriat səviyyəsində "Xüsusi pedaqogika" ixtisası üzrə kadr hazırlığına başlanılması da bu baxımdan mühüm əhəmiyyət kəs edir.

BDU peşəkar kadrlar yetişdirməklə yanaşı, milli ruhlu vətəndaş yetişdirməyi də özünün ali məqsədi hesab edir. Bu məqsədlə davamlı olaraq tələbələr arasında müvafiq iş aparılır, maraqlı sosial layihələr həyata keçirilir. Universitetdə fəaliyyət göstərən tələbə təşkilatları bu prosesin avanqardı kimi çıxış edir. BDU tələbələri ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasəti və könüllülük hərəkatına öz mühüm töhfələrini verirlər. Ötən il BDU-da dövlət gənclər siyasəti, Ulu Öndər Heydər Əliyev irsi və azərbaycançılıq ideyalarının öyrənilməsi, milli-mənəvi dəyərlərin təbliği və s. istiqamətlərdə ümumilikdə 900-dən artıq tədbir keçirilmişdir.

Son illər BDU məzunları dövlət qulluğuna və digər qurumlara işə qəbul ilə bağlı keçirilən mərkəzləşdirilmiş imtahanlarda ənənəvi olaraq yüksək nəticələr göstərir, eyni zamanda tələbələrimiz beynəlxalq, regional və yerli olimpiadalarda, bilik yarışmalarında ön yerlərə layiq görülür, təhsillərini xaricdə davam etdirmək imkanları qazanırlar. BDU məzunlarının xaricdə təhsil almaq imkanları ötən il də genişlənmiş, onlarla məzunumuz magistratura və doktorantura səviyyələri üzrə dünyanın bir sıra nüfuzlu universitetlərinə qəbul olunmuşdurlar. Xüsusi vurğulamaq lazımdır ki, Dövlət Proqramı çərçivəsində 2025/2026-cı tədris ili üzrə ümumilikdə 19 gənc dünyanın nüfuzlu universitetlərində doktorantura təhsili alacaq ki, onlardan 5 nəfər məhz BDU məzunlarıdır. Bu Proqram çərçivəsində məzunlarımız müasir dünyada innovativ elmi istiqamətlər hesab edilən "Tibb mühəndisliyi", "Yer elmləri", "Kimya", "Molekulyar biologiya" ixtisasları üzrə təhsil alacaq, tədqiqat işləri aparacaqlar.

Universitetdə elmi fəaliyyətin səmərəli təşkili prioritet hesab olunur. Elmi-tədqiqat işlərinin məzmununun yenilənməsi, alınan nəticələrin bilavasitə tətbiq sahələrinə yönəldilməsi sahəsində yeni müsbət tendensiya formalaşır. Son illərdə BDU-da yaradılmış Sənaye kimyası, Rəqəmsal araşdırmalar, Hüceyrə kulturası və genom redaktəsi, Mikrobiologiya və virusologiya, Biomühəndislik, Kompleks geoloji və geofiziki tədqiqatlar, Materialşünaslıq, Riyazi tədqiqatlar, Astrokosmik və atmosfer tədqiqatları, Bioloji antropologiya kimi yeni sənaye yönümlü elmi-tədqiqat laboratoriyaları, eləcə də Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ECOLEAD Klinikası, ICESCO-nun Biotibbi materiallar kafedrası, Beynəlxalq Türk Akademiyası ilə birgə Süni intellekt etikası kafedrası, Erməni Araşdırmaları və Təlim Mərkəzi, Qərbi Azərbaycan Araşdırmaları Mərkəzi, Vergi hüququ və iqtisadi ekspertiza Mərkəzi artıq öz elmi nəticələrini verməkdədir.

Dünyanın nüfuzlu beynəlxalq elm və təhsil reytinqlərində mövqeyini möhkəmləndirmək BDU-nun prioritet hədəflərindəndir. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü fəaliyyətin nəticəsidir ki, hazırda Azərbaycanın dünya universitetlərinin "Quacquarelli Symonds" (QS) reytinq siyahısında ilk ən yaxşı 700 universitet siyahısında yer alan yeganə ali təhsil müəssisəsi BDU-dur. Ötən tədris ilini isə BDU tarixində bu istiqamətdə ən mühüm nailiyyətlərin əldə edildiyi il kimi səciyyələndirmək olar.

Məhz bəhs olunan dövrdə BDU dünya universitetlərinin QS reytinq siyahısında və eləcə də bir sıra reytinqlərdə göstəricilərini yüksəkltməyə nail olmuşdur. BDU böyük uğura imza atmaqla "QS World University Rankings 2026"-da 688-ci mövqedə qərarlaşmışdır. Bu göstərici BDU-nun təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda lider mövqeyini ifadə edir.

2025-ci ildə bu istiqamətdə əldə edilmiş ən mühüm nailiyyətlərimizdən biri də – "QS Stars" audit qiymətləndirilməsində BDU-nun 5 ulduza layiq görülməsidir. Bu mühüm nəticələr BDU-nun təhsil, elmi tədqiqatlar, akademik inkişaf, məzunların məşğulluq imkanları, infrastruktur və idarəetmə sahələrində beynəlxalq standartlara uyğun fəaliyyət göstərdiyini bir daha təsdiqləyir.

Universitetimiz digər bir nüfuzlu təşkilatın – "Times Higher Education" (THE) agentliyinin tərtib etdiyi beynəlxalq reytinqdə də mövqeyini möhkəmlətmişdir. Agentliyin açıqladığı "Impact Rankings 2025" nəticələrinə əsasən Universitetimiz qlobal miqyasda ilk 600 universitet arasında qərarlaşaraq 401–600 diapazonunda yer almışdır. Bu, Universitetin ötənilki 1001–1500 diapazonundakı mövqeyi ilə müqayisədə əhəmiyyətli yüksəlişini nümayiş etdirir. BDU təbiət elmləri (fizika, kimya, geologiya, astronomiya, riyaziyyat və s.) və mühəndislik elmləri (kimya mühəndisliyi, geologiya mühəndisliyi, hidrogeologiya mühəndisliyi, geofizika mühəndisliyi və s.) üzrə THE-nin "İxtisasların Reytinqi" ("Subject Rankings 2024") siyahısında Azərbaycandan yer alan yeganə ali təhsil müəssisəsidir. 2025-ci ildə BDU həmçinin THE-nin tərtib etdiyi "İnterdisiplinar elm reytinqi 2025"-də ("Interdisciplinary Science Rankings 2025") ilk dəfə yer almışdır. Eləcə də nüfuzlu "GreenMetric" reytinqində 1477 nüfuzlu ali təhsil müəssisəsi arasında 607-ci pilləyə yüksəlmişdir. BDU həmçinin ilk dəfə olaraq "Şanxay reytinqi"ndə də yer almışdır.

Universitet alimləri tərəfindən nüfuzlu elmi nəşrlərdə çap edilən məqalələrin dinamikası ildən-ilə yüksələn xətt üzrə inkişaf edir. "Clarivate Analytics" beynəlxalq agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun H-indeksi artaraq 73-ə yüksəlmişdir. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2018-ci ildə 35-ə, 2023-cü ildə 52-yə, ötən il isə 67-yə bərabər olmuşdur. Hər bir əsərə edilən istinadların orta sayı 9.94-ə yüksəlmişdir. Bu göstərici isə ötən il 8.53-ə bərabər idi. Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorant və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 4743 elmi əsər nəşr edilib. Müqayisə üçün ötən il bu göstərici 4436 elmi əsər təşkil edirdi. Bu əsərlərə 47000-dən çox istinad edilib. Yenə də müqayisə üçün bu rəqəm 2024-cü ildə 37000, 2023-cü ildə isə 29000 təşkil edirdi ki, bütün bunlar artan dinamikanı bir daha əyani şəkildə nümayiş etdirir. Yalnız ötən il nəşr edilmiş elmi əsərlərə 8646 istinad olunub. Qeyd edək ki, bu göstəricilərə BDU Azərbaycan universitetləri arasında lider mövqeyə sahibdir.

Ötən tədris ilində BDU beynəlxalq reytinqlərdə göstəricilərini daha da yaxşılaşdırmaq məqsədilə xaricdə bu istiqamətdə təşkil olunan bir sıra mühüm tədbirlərdə, o cümlədən İngiltərənin Mançester şəhərində nüfuzlu THE reytinq təşkilatının təşkil etdiyi Dünya Akademik Sammitində (World Academic Summit), Əl-Fərabi adına Qazax Milli Universitetində "QS" Beynəlxalq Reytinq Agentliyinin təşkilatçılığı ilə keçirilən "QS Ali Təhsil Pre-sammiti: Asiya Sakit Okean 2024"-də, Sinqapurda QS Agentliyinin təşkilatçılığı ilə keçirilən "EduData Summit - 2025" tədbirində təşkilatçı və iştirakçı kimi təmsil olunmuşdur.

*(ardı 5-ci səhifədə)*

*(əvvəli 4-cü səhifədə)*

# Bakı Dövlət Universiteti – 106

Bu istiqamətdə həyata keçirilən fəaliyyətdə əsas məqsəd dünyanın nüfuzlu universitetləri ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi, BDU-nun beynəlxalq reytinqlərdə mövqeyinin yüksəldilməsi üçün təcrübə mübadiləsinin həyata keçirilməsi, yeni birgə layihələrin müzakirəsinin aparılmasıdır.

Bütün bunlar kollektivimizin birgə, yüksək səylə çalışması nəticəsində əldə etdiyi uğurlardır. Əminik ki, bu nəticələr ildən-ilə daha da yüksələcəkdir. Bu uğurlar universitetimizdə müasir tələblərə uyğun elmi-tədqiqat mühitini inkişaf etdirir, beynəlxalq əməkdaşlıq imkanlarını daha da artırır, rəqabətədavamlı elmi araşdırmaların aparılmasına şərait yaradır.

Ötən tədris ilində də BDU-nun beynəlxalq əməkdaşlıq strategiyası uğurla inkişaf etdirilmişdir. BDU ilə Türkiyə, Pakistan, Çin, Malaziya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Belarus, Bolqarıstan və s. ölkələrin nüfuzlu universitetləri ilə əlaqələr qurulmuşdur. Hazırda 50-dən çox ölkənin 180-dən artıq universiteti ilə əməkdaşlıq edirik.

BDU xarici universitetlərlə birgə beynəlxalq elmi tədbirlərin təşkilinə də üstünlük verir. Ötən tədris ilində BDU bir sıra beynəlxalq tədbirlərə, o cümlədən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransı (COP-29) çərçivəsində keçirilən Bakı İqlim Fəaliyyəti Həftəsində "İqlim fəaliyyəti üçün tədqiqat və əməkdaşlığın sürətləndirilməsi" mövzusunda Beynəlxalq konfransa, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) ilə birgə keçirilmiş "Biotibbi və ekoloji problemlərin həlli üçün qabaqcıl materiallar" mövzusunda Beynəlxalq konfransa, Türkiyənin Üsküdar Universitetinin birgə təşkilatçılığı, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Azərbaycan Mətbuat Şurasının tərəfdaşlığı ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda Beynəlxalq konfransa, Türkiyə və Özbəkistan universitetləri ilə birgə təşkil olunmuş III Beynəlxalq "Ənənədən gələcəyə informasiya və sənəd menecmenti" Simpoziumuna ev sahibliyi etmişdir. Eləcə də 2025-ci ildə BDU ilə "Bayraktar Texnologiya Azərbaycan" MMC və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanmışdır.

BDU nüfuzlu beynəlxalq elmi təşkilatlarla əməkdaşlığı da özünün prioritetlərindən hesab edir. 2024/2025-ci tədris ilində BDU Ali Təhsildə Davamlılığın İnkişafı Assosiasiyasının (The Association for the Advancement of Sustainability in Higher Education - AASHE), İnnovasiya üçün Qlobal Universitetlər Şəbəkəsinin (The Global University Network for Innovation - GUNI), Beynəlxalq Təhsilverənlər üçün İqlim Fəaliyyəti Şəbəkəsinin (The Climate Action Network for International Educators – CANIE) və Beynəlxalq Dayanıqlı Kampus Şəbəkəsinin (International Sustainable Campus Network – ISCN) üzvü seçilmişdir.

BDU beynəlxalq əlaqələrlə yanaşı, ölkədaxili əməkdaşlığa da xüsusi önəm verilir. Universitetin sosial missiyasına müvafiq olaraq onun cəmiyyətdə nüfuzunun artırılması istiqamətində çoxşaxəli tədbirlər görülmüş, Universitetin sahib olduğu elmi potensialın cəmiyyətin sosial problemlərinin həllinə, sosial-iqtisadi proqramların həyata keçirilməsinə cəlb edilməsi məqsədilə ölkənin dövlət təşkilatları, nüfuzlu müəssisə və ictimai birlikləri ilə əlaqələr genişləndirilmiş, birgə sosial layihələrin sayı artırılmışdır. Dövlət və qeyri-hökumət təşkilatlarının, iri beynəlxalq və özəl şirkətlərin öz sosial layihələrini təqdim etdiyi platformaya çevrilməsi məqsədilə tərəfdaş qurumlarla birlikdə fəaliyyət planları tərtib edilmiş, Universitetdə ölkənin elmi, mədəni, sosial-iqtisadi problemlərinə həsr olunmuş yüksək səviyyəli konfranslar, seminarlar və digər tədbirlər keçirilmişdir. Dövlət və özəl müəssisələrlə əməkdaşlıq bilavasitə tədris prosesinin, elmi-tədqiqat fəaliyyətinin səmərəli təşkili, eləcə də məzunların işlə təmin olunmasına xüsusi töhfə verir. Son illər BDU ilə Ədliyyə Nazirliyinin Probasiya Xidməti, AMB Milli Depozit Mərkəzi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu, Azərbaycan Milli Kitabxanası, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi, Sosial Xidmətlər Agentliyi, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya, Bioloji Müxtəlifliyin Qorunması Xidməti, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Təhsilin İnkişafı Fondu, CODELANDIA və s. təşkilatlar arasında müvafiq memorandumlar, müqavilələr imzalanmışdır. Bu əməkdaşlıqlar çərçivəsində ötən tədris ilində BDU-da Azərbaycan Milli Kitabxanasının, Medianın İnkişafı Agentliyinin, "Xalq qəzeti"nin xüsusi auditoriyaları istifadəyə verilmişdir. BDU və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə tərəfdaşlığı ilə Universitet ərazisində elektromobillərin bərpa olunan enerji hesabına elektrik enerjisi ilə doldurulmasını təmin edən EkoEnerji Məntəqəsi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası (AHİK) ilə birgə Universitetin həyətində "Tələbə məkanı", dövlət-özəl tərəfdaşlığı çərçivəsində "Bayramli Group", həmçinin "LU-MUN Holding" və "Azecolab" şirkətləri ilə birgə "EKO MƏKAN" açılmışdır.

Ötən il BDU kollektivi və tələbələri Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına uyğun olaraq bu istiqamətdə öz fəaliyyət istiqamətini müəyyənləşdirmiş, Universitetdə "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar bir sıra tədbirlər, layihələr həyata keçirilmişdir. Ölkəmizdə keçirilən bütün beynəlxalq əhəmiyyətli tədbirlərdə hər zaman fəal iştirakı ilə seçilən BDU kollektivi və tələbələri "Yaşıl dünya naminə həmrəylik ili"ndə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransının (COP-29) ölkəmizdə keçirilməsi prosesində fəal iştirak etmişdir. Bu tədbirlər çərçivəsində BDU-nun həmtəşkilatçılığı ilə "Yaşıl Dialoq: İnnovasiya və Beynəlxalq Əməkdaşlıq Platforması" layihəsi, "COP29 həftəsi" keçirilmiş, müxtəlif maarifləndirmə tədbirləri, seminar və yarışlar təşkil olunmuş, Azərbaycan Mətbuat Şurası ilə birgə "İnformasiya müharibəsi: COP29 ərəfəsində Azərbaycana qarşı informasiya hücumlarının məqsəd və mahiyyəti" mövzusunda dəyirmi masa keçirilmişdir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) uğurlu təşkil olunmasında iştirak edən 537 tələbəmizin fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmiş, onlar təşəkkürnamə və pul mükafatı ilə təltif olunmuşdurlar.

Qalib və qüdrətli ölkəmizin gündən-günə inkişaf etməsi, elm və təhsildə əldə olunan nailiyyətlər BDU kollektivini və tələbələrimizi doğma universitetimizin yaradılmasının 106-cı ildönümünü daha yüksək ovqatla qarşılamağa sövq edir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdəliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər, bir gündən də az davam etmiş lokal antiteror əməliyyatlarında əldə edilmiş tarixi nailiyyət, postmüharibə dövründə Qarabağda və Şərqi Zəngəzurda aparılan misilsiz quruculuq işləri, soydaşlarımızın illər sonra öz yurdlarına əbədi qayıdışı hər birimizdə sonsuz qürur və xoşbəxtlik hissləri yaradır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi hər bir soydaşımız kimi BDU ailəsinin bütün üzvləri tərəfindən böyük rəğbət və ehtiram hissləri ilə qarşılanmışdır. BDU Elmi Şurasının qərarı ilə "Konstitusiya və Suverenlik İli" ilə bağlı Tədbirlər Planı hazırlanmışdır, hazırda müxtəlif istiqamətlərdə bu Plana uyğun fəaliyyət həyata keçirilir.

BDU kollektivi Vətən müharibəsindəki tarixi Zəfərimizin 5-ci ildönümü ərəfəsində müstəqil, qüdrətli, ərazi bütövlüyünü, suverenliyini, konstitusiya quruluşunu bərpa etmiş qalib dövlətimizə, dövlət başçımızın müdrik siyasətinə xidmət göstərməyi hər zaman olduğu kimi bir daha özünün ən ali vəzifəsi hesab edir. Bu günlərdə dünya siyasətinin mərkəzi olan Vaşinqtonda – Ağ Evdə dövlət başçımızın apardığı diplomatik danışıqlar, keçirdiyi mühüm görüşlər, imzaladığı tarixi sənədlər hər birimizdə gələcəyə böyük inam yaradır. Cənab Prezidentimizin ardıcıl, yorulmaz, qətiyyətli, məqsədyönlü səyləri nəticəsində Ağ Evdə bölgəmizə əbədi əmin-amanlıq, rifah gətirəcək sülh sazişinin paraflanması yeni tədris ilinin başlanması ərəfəsində BDU kollektivində böyük ruh yüksəkliyi yaratmışdır.

Əminik ki, Ulu Öndərimiz Heydər Əliyevin hər zaman yüksək dəyər verdiyi, məzunu olmağı ilə fəxr etdiyi BDU möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı ilə zəngin ənənələrini inkişaf etdirərək, beynəlxalq təcrübədən, dünya elminin nailiyyətlərindən bəhrələnərək, Azərbaycan xalqına və beynəlxalq ictimaiyyətə elmi əsaslara, milli və mənəvi dəyərlərə söykənən, müasir dövrün tələblərinə və qalib, qüdrətli Azərbaycan dövlətinin milli maraqlarına cavab verən kadrlar hazırlamaq missiyasını şərəflə davam etdirəcəkdir.

BDU-nun təsis edilməsinin 106-cı ildönümü münasibətilə Universitetimizin kollektivini, məzunlarımızı və əziz tələbələrimizi təbrik edirik!

# Çinin nüfuzlu universitetlərinin dörd tələbəsi BDU-da təhsil alacaq

***Sentyabrın 19-da Çin Xalq Respublikasının aparıcı ali təhsil müəssisələrindən olan Pekin Xarici Dillər Universiteti (PXDU) və Sun Yat-sen Universitetinin dörd tələbəsi 2025/2026-cı tədris ilində BDU-da təhsil alacaq.***

Onlardan üçü PXDU-nun Asiya fakültəsinin "Azərbaycan dili" ixtisası üzrə təhsil alan tələbələrdir. Universitetin tədris qaydalarına əsasən, xarici dil ixtisası üzrə təhsil alan tələbələr üçüncü kursda öyrəndikləri dilin mənsub olduğu ölkədə bir semestr təhsil almaq öhdəliyinə malikdirlər. Bu çərçivədə "Azərbaycan dili" ixtisası üzrə tələbələr BDU-nun Filologiya fakültəsində bir semestr ərzində təhsil alacaqlar. Sun Yat-sen Universitetinin bir tələbəsi isə magistratura səviyyəsində təhsilini bu tədris ilində BDU-nun Sosial elmlər və psixologiya fakültəsində davam etdirəcək. Bu təşəbbüsün həyata keçirilməsində PXDU-nun Asiya fakültəsinin Azərbaycan dili kafedrasının müdiri, filologiya elmləri üzrə fəlsəfə doktoru Aqşin Əliyevin mühüm rolu olub.



BDU-nun rektoru Elçin Babayev Çin universitetlərindən gələn tələbələrlə görüşərək Universitetin tədris mühiti, elmi fəaliyyəti, tələbə həyatı barədə ətraflı məlumat verib. Rektor vurğulayıb ki, BDU-da təhsil alan əcnəbi tələbələr arasında Çin Xalq Respublikasından olan tələbələr xüsusi yer tutur. Onların təhsil və sosial məsələləri Universitet rəhbərliyinin daim diqqət mərkəzindədir. Çinli tələbələr həm də BDU-nun sosial-mədəni həyatında fəal iştirak edirlər.

Sonda rektor tələbələrə uğurlar arzulayıb və onların gələcək fəaliyyətlərində BDU-da qazandıqları biliklərin mühüm rol oynayacağına əminliyini ifadə edib.

# BDU və Türkiyənin İğdır Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Sentyabrın 11-də Türkiyənin İğdır Universitetinin rektoru Ekrem Gürel BDU-da olub.***

Qonağı salamlayan rektor Elçin Babayev BDU-nun türkdilli ölkələrlə, o cümlədən qardaş Türkiyənin ən tanınmış universitetləri ilə sıx əməkdaşlıq etdiyini bildirib. O, İğdır Universiteti ilə də uyğun istiqamətlər üzrə geniş əməkdaşlıq imkanlarının olduğunu diqqətə çatdırıb. Bu əməkdaşlığın Azərbaycan və Türkiyənin elmi inkişafında, beynəlxalq səviyyədə rəqabətədavamlı mütəxəssislər yetişdirilməsində mühüm önəm daşıdığını deyib.



Ekrem Gürel daha çox aqrar təhsil istiqamətində ixtisaslaşan İğdır Universitetinin Azərbaycanla elm və təhsil sahəsində əməkdaşlığı prioritet hesab etdiyini bildirib. O, İğdırın Türk dünyasına açılan qapı olduğunu qeyd edib, İğdır Universitetində daha çox azərbaycanlı tələbənin təhsil almasını arzuladıqlarını vurğulayıb.

Görüş zamanı iki universitet arasında təhsil, elm və tədqiqat sahələrində əməkdaşlıq imkanları müzakirə olunub. Eyni zamanda tələbə və müəllim mübadiləsi, birgə layihələrin həyata keçirilməsi, beynəlxalq proqramlarda iştirak və ortaq elmi tədbirlərin təşkili ilə bağlı fikir mübadiləsi aparılıb. Sonda BDU və İğdır Universittei arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

# BDU Elmi Şurasının yeni tədris ilində ilk iclası

***Sentyabrın 12-də BDU Elmi Şurasının yeni tədris ilində ilk iclası keçirilib.***

İclasda 2025/2026-cı tədris ilinin payız semestrinin təşkili, BDU-da ali təhsilin bakalavriat və magistratura səviyyələrinə və əlavə təhsilin təkrar ali təhsil istiqaməti üzrə qəbulun nəticələri müzakirə olunub.

Diqqətə çatdırılıb ki, BDU yeni tədris ilinə bir sıra yeniliklərlə başlayır. Belə ki, bu tədris ilindən bakalavriat səviyyəsi üzrə qəbul olunan və müxtəlif ixtisaslar üzrə 550-dən çox bal toplayan abituriyentlər arasından ən yüksək nəticə göstərmiş tələbələrə tədris ilinin sonunadək hər ay 200 manat məbləğində "Birincilik" adlı məqsədli təqaüd veriləcək. Bu ildən BDU-da Süni intellekt etikası kafedrası fəaliyyətə başlayır. Magistratura səviyyəsi üzrə dövlət təhsil proqramlarının yenilənməsi həyata keçirilib, bu tədris ilindən magistraturaya qəbul olunan tələbələr həmin proqramlar əsasında təhsil alacaqlar.

Qeyd edilib ki, bakalavriat səviyyəsi üzrə BDU-ya qəbul olunan 5302 nəfər qeydiyyatdan keçib. Magistratura səviyyəsi üzrə 1166 nəfər BDU-ya qəbul olunub. Bakalavriat səviyyəsinə qəbul olanların 72, magistratura səviyyəsinə qəbul olanların isə 73 faizi dövlət sifarişi əsasında təhsil alacaq.

Daha sonra cari məsələlərə baxılıb.



# Özbəkistanın Səmərqənd İqtisadiyyat və Xidmət İnstitutunun rektoru BDU-da



***Sentyabrın 23-də Özbəkistan Respublikasının Səmərqənd İqtisadiyyat və Xidmət İnstitutunun rektoru Muhiddin Pulatovun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

Qonaqları salamlayan rektor Elçin Babayev BDU-nun son illər Özbəkistanın ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrini daha da gücləndirdiyini deyib. BDU Özbəkistan universitetləri ilə əməkdaşlıq müqavilələri imzalayıb, tələbə və müəllim mübadiləsi proqramları həyata keçirib. Birgə layihə və elmi tədqiqatlar regionun elmi potensialının gücləndirilməsi və təhsilin keyfiyyətinin artırılmasına xidmət edir. Rektor iqtisadiyyat və coğrafi turizm sahələri üzrə birgə proqramlar həyata keçirmək, müxtəlif beynəlxalq layihələrdə birgə iştirak etmək imkanlarının olduğunu deyib.

Səmərqənd İqtisadiyyat və Xidmət İnstitutunun rektoru Muhiddin Pulatov da BDU ilə əməkdaşlığı daha da gücləndirməkdə maraqlı olduqlarını vurğulayıb.

Görüş zamanı iki ali təhsil müəssisəsi arasında əməkdaşlığın genişləndirilməsi, beynəlmiləlləşmə proseslərinin sürətləndirilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının təşkili məsələləri müzakirə olunub.

# "Clarivate Analytics" şirkətinin nümayəndələri BDU-da

***Sentyabrın 26-da BDU-da qlobal səviyyədə tanınmış "Clarivate Analytics" şirkətinin nümayəndələri ilə görüş olub. Görüşdə BDU-nun rektoru Elçin Babayev, elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov, "Clarivate Analytics" şirkətinin nümayəndələri Valentin Boqorov, Stephen Hautorne iştirak ediblər.***

Görüşdə BDU-nun elmi-araşdırma potensialının qlobal standartlar üzrə optimallaşdırılması, beynəlxalq reytinqlərdə mövqeyinin gücləndirilməsi və akademik təsir dairəsinin genişləndirilməsi məsələləri müzakirə olunub.

Rektor Elçin Babayev qeyd edib ki, "Clarivate Analytics"lə əməkdaşlıq Universitetin beynəlxalq arenada rəqabət qabiliyyətinin yüksəldilməsi, elmi sahədə yeniliklərin tətbiqi və tədqiqatçıların dəstəklənməsi üçün güclü baza yaradır. "Clarivate Analytics'in beynəlxalq akademik sahələrdə elmi nəşrlərin təsir gücünün qiymətləndirilməsi üzrə qabaqcıl mövqeyi bu əməkdaşlığın əhəmiyyətini bir daha vurğulayır.

Görüşdə elmi nəticələrin dəyərləndirilməsi və BDU-nun tədqiqatçılarının "Clarivate Analytics"in elmi resurslarına çıxışının daha da genişləndirilməsi ilə bağlı da müzakirələr aparılıb.

"Clarivate Analytics"in nümayəndələri Universitetin elmi fəaliyyətinin dünya səviyyəsində tanınması üçün effektiv həll yollarını təqdim ediblər.

# BDU və Türkiyənin Pamukkale Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Sentyabrın 25-də BDU və Türkiyə Respublikasının Pamukkale Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Pamukkale Universitetinin rektoru Mahmud Güngör imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1992-ci ildə qoyulmuş Pamukkale Universiteti Türkiyənin nüfuzlu universitetlərindən biridir.



# Azərbaycan şərqşünaslığının görkəmli siması - professor Aida İmanquliyeva

***19 sentyabr görkəmli şərqşünas alim, Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru, professor Aida İmanquliyevanın xatirə günüdür.***

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olub. 1957-ci ildə Bakı şəhərindəki 132 nömrəli orta məktəbi qızıl medalla bitirib və Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. 1962-ci ildə universiteti bitirəndən sonra bu təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, həmçinin keçmiş SSRİ Elmlər Akademiyasının Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil alıb. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. O, istedadı, zəhmətsevərliyi sayəsində kiçik elmi işçidən şöbə müdiri, elmi işlər üzrə direktor müavini və İnstitutun direktoru vəzifəsinədək yüksəlib.



Ömrünü Şərq mədəniyyətini və məhcər ədəbiyyatını öyrənməyə sərf edən Aida xanım İmanquliyeva müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, öz fundamental araşdırmaları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, dünya şərqşünaslığını da zənginləşdirib və inkişaf etdirib. 1989-cu ildə Aida İmanquliyeva Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edib və çox keçmədən bu ixtisas üzrə professor adı alıb.

Üç fundamental monoqrafiyanın - "Mixail Nüaymə və "Qələmlər birliyi"", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri" və 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru idi. O, Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasının sədri olub. Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib.

Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasına da böyük diqqət yetirirdi.

Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan Aida İmanquliyeva uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Bakı Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub.

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, bütövlükdə müasir Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır.

Bir alim kimi Aida İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Amma onun elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı olub. Aida xanımın ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı tədqiqatçısı olduğunu keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları etiraf edirlər.

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yol açıb. Onun bu gün də aktuallığını qoruyub saxlayan əsərləri, monoqrafiyaları ərəb ədəbiyyatını araşdıran gənc alimlər üçün əsas istinad qaynağıdır.

Aida İmanquliyevanın işıqlı xatirəsi ürəklərdə daim yaşayacaq!

# Azərbaycanda analitik kimya ixtisası üzrə ilk və yeganə akademik Rəfiqə Əliyevanın anadan olmasından 93 il ötür

***20 sentyabr Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, kimya elmləri doktoru, professor, Əməkdar elm xadimi Rəfiqə xanım Əliyevanın anadan olmasından 93 il keçir.***

Görkəmli alim, akademik Rəfiqə Əlirza qızı Əliyeva onu tanıyanların yaddaşında əsl Azərbaycan qadını, elm fədaisi və humanist qəlbli insan kimi yaşayır, işıqlı xatirəsi daim ehtiramla anılır.

Rəfiqə Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Ali təhsilini 1951–1956-cı illərdə Bakı Dövlət Universitetinin Kimya fakültəsində alıb. Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycan Politexnik İnstitutunda başlayan Rəfiqə Əliyeva 1957-ci ildən etibarən BDU-da, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi çalışıb. 1960-1963-cü illərdə BDU-nun Kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər Universitetin Analitik kimya kafedrasında işləyib və burada assistent, baş müəllim, dosent, professor vəzifələrini tutub. O, 2001-ci ildən "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasına rəhbərlik edib.

Rəfiqə Əliyeva 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib və həmin ildə professor adına layiq görülüb. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. O, Azərbaycanın elm tarixində analitik kimya ixtisası üzrə ilk və yeganə akademik kimi qalır. Görkəmli akademik 2017-ci il mayın 6-da əbədiyyətə qovuşub.

Ömrünü kimya elminə həsr etmiş Rəfiqə Əliyeva bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf edib. Yarım əsrdən artıq pedaqoji fəaliyyətlə məşğul olan alimin araşdırmaları analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyən edilməsinə həsr olunub. Rəfiqə xanımın ətraf mühitin mühafizəsi ilə bilavasitə bağlı olan bir sıra tədqiqatları, eyni zamanda, üzvi reaktivlərin köməyi ilə metalların təyini və onların ayrılması metodikasının işlənib hazırlanmasına yönəlib.

Ekologiyanın aktual problemləri ilə bağlı işləri isə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfəsini verib.



450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olan Rəfiqə Əliyeva bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olub. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib.

Akademik Rəfiqə Əliyevanın elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Prezidentinin sərəncamı ilə o, "Əməkdar elm xadimi" adına layiq görülüb, "Şöhrət" ordeni ilə təltif edilib. Akademik Y. Məmmədəliyev adına mükafatın laureatı olan Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Amerika Biblioqrafiya İnstitutu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilib. 2018-ci ildə "Azərbaycanım" Beynəlxalq Jurnalının redaksiya şurası "Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden" təsis edib.

Onun ekologiyaya və ümumi ekologiyaya aid dərs vəsaitləri isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına mükafatı ilə qiymətləndirilib.

Görkəmli alim, həssas qəlbli insan, qayğıkeş ana Rəfiqə xanım Əliyevanın əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaq və gənc nəsil onun yaratdığı elmi istiqaməti davam etdirəcək.

# BDU Türkiyənin Dokuz Eylül Universiteti ilə anlaşma memorandumu imzalayıb

## Sənədi BDU-nun rektoru Elçin Babayev və Dokuz Eylül Universitetinin rektoru Bayram Yılmaz imzalayıb

***Sentyabrın 30-da BDU və Türkiyə Respublikasının Dokuz Eylül Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Dokuz Eylül Universitetinin rektoru Bayram Yılmaz imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1982-ci ildə qoyulmuş Dokuz Eylül Universiteti Türkiyənin nüfuzlu universitetlərindən biridir.

# BDU-nun rektoru “THE Avrasiya Universitetlərinin Sammiti”ndə regional inkişafda elmin roluna dair paneldə çıxış edib

*Çıxışında BDU-nun rektoru Universitetin elmi tədqiqat strategiyasını regional və milli inkişaf prioritetlərinə uyğunlaşdırmaq istiqamətində atdığı addımları diqqətə çatdırıb. O qeyd edib ki, elmi nəticələrin praktik həllərə çevrilməsi, o cümlədən iqlim dəyişikliyi, ictimai sağlamlıq, texnoloji dəyişikliklər və sosial-iqtisadi bərabərsizlik kimi qlobal problemlərə cavab verilməsi Universitetin əsas hədəflərindəndir.*

***Sentyabrın 24-də Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin dəstəyi ilə Bakıda keçirilən “Times Higher Education (THE) Avrasiya Universitetlərinin Sammiti” çərçivəsində Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev “Avrasiya universitetləri elmi regional inkişafın mühərrikinə necə çevirə bilər?” mövzusunda keçirilən panelin spikerlərindən biri qismində çıxış edib.***

Sammitin ümumi mövzusu olan “Transmilli tədqiqat: bilikdən qlobal təsirə doğru” çərçivəsində təşkil edilən paneldə elmin və innovasiyaların dayanıqlı, inklüziv və davamlı cəmiyyətlərin qurulmasında oynadığı həlledici rolu müzakirə edilib.



Çıxışında BDU-nun rektoru Universitetin elmi tədqiqat strategiyasını regional və milli inkişaf prioritetlərinə uyğunlaşdırmaq istiqamətində atdığı addımları diqqətə çatdırıb. O qeyd edib ki, elmi nəticələrin praktik həllərə çevrilməsi, o cümlədən iqlim dəyişikliyi, ictimai sağlamlıq, texnoloji dəyişikliklər və sosial-iqtisadi bərabərsizlik kimi qlobal problemlərə cavab verilməsi Universitetin əsas hədəflərindəndir. Bununla yanaşı, o, regional tərəfdaşlıqların gücləndirilməsinin, universitetlər arasında beynəlxalq əməkdaşlığın innovasiya və potensialın artırılmasında mühüm rol oynadığını vurğulayıb. Rektor həmçinin tələbə-tədqiqatçıların təşəbbüslərinin dəstəklənməsinin onların Avrasiyanın bilik iqtisadiyyatında transmilli tədqiqatçılar kimi formalaşmasına şərait yaratdığını bildirib. O əlavə edib ki, Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) uyğun olaraq təhsil və elmdə davamlılığın təşviqi də BDU-nun fəaliyyətində prioritet istiqamətlərdən biridir.

Rektor həmçinin vurğulayıb ki, BDU-nun beynəlxalq elmi əməkdaşlıqlarda və qlobal akademik şəbəkələrdə fəal iştirakı Azərbaycanın elm, təhsil və innovasiya mərkəzi kimi mövqeyini gücləndirir.

Paneldə həmçinin Qazaxıstanın Nazarbayev Universiteti və digər nüfuzlu ali təhsil müəssisələrinin nümayəndələri uğurlu elmi inkişaf modellərini təqdim ediblər. Müzakirələrdə tədqiqatların praktik, miqyaslana bilən həllərə çevrilməsi və regional tərəqqiyə birbaşa töhfə verməsinin vacibliyi vurğulanıb.

BDU-nun bu nüfuzlu sammitdə həm stendlə təmsil olunması, həm də rektorun panel spikeri kimi iştirakı Universitetin beynəlxalq nüfuzunun artması, Avrasiya ali təhsil məkanında lider mövqeyinin güclənməsi və elmin regional sosial-iqtisadi inkişafa töhfəsinin daha da genişlənməsi istiqamətində mühüm addımdır.

# BDU “THE Avrasiya Universitetlərinin Sammiti”ndə stendlə təmsil olunub

***BDU Elm və Təhsil Nazirliyinin dəstəyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və “Times Higher Education” (THE) beynəlxalq reytinq agentliyinin birgə təşkilatçılığı ilə 24-25 sentyabr tarixlərində Bakıda keçirilən “THE Avrasiya Universitetlərinin Sammiti”ndə stendlə təmsil olunub.***

Bu il “Transmilli tədqiqat: bilikdən qlobal təsirə doğru” mövzusuna həsr olunan sammitdə 20-dən artıq ölkədən 300-dən çox iştirakçı, 150-dən çox ali təhsil müəssisəsi və 50-dən artıq beynəlxalq və yerli spiker qlobal tədqiqat əməkdaşlıqları, universitetlərin sosial-iqtisadi inkişafa verdiyi töhfələri və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılmasında ali təhsilin rolunu müzakirə edib.



Sammit çərçivəsində BDU-nun stendi iştirakçılara Universitetin elmi nailiyyətləri, beynəlxalq əməkdaşlıqları, davamlı inkişaf sahəsində həyata keçirilən təşəbbüsləri və gələcək strateji hədəfləri barədə geniş məlumat təqdim edib. Ziyarətçilər BDU-nun təhsil və tədqiqat imkanları, beynəlxalq layihələrdə iştirakı və qlobal akademik şəbəkədə mövqeyi ilə tanış olublar.

BDU-nun bu nüfuzlu tədbirdə stendlə təmsil olunması Universitetin beynəlxalq reytinqlərdə mövqeyinin gücləndirilməsi, tərəfdaşlıq imkanlarının genişləndirilməsi və Azərbaycanın ali təhsil sisteminin dünyada tanıdılması istiqamətində mühüm addımdır.

# BDU rektoru "THE Avrasiya Universitetlərinin Sammiti”nin panel müzakirəsində spiker kimi çıxış edib

***Sentyabrın 25-də Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin dəstəyi ilə Bakıda keçirilən “Times Higher Education (THE) Avrasiya Universitetlərinin Sammiti” çərçivəsində Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev “Universitet–cəmiyyət tərəfdaşlıqlarının yenidən təsəvvür edilməsi” adlı panel müzakirəsində spikerlərdən biri qismində çıxış edib.***

Müzakirədə universitetlərin cəmiyyətlə tərəfdaşlıq münasibətlərinin yenidən düşünülməsi, dayanıqlı və təsirli maarifləndirmə təşəbbüslərinin hazırlanması, yerli iqtisadi inkişafın dəstəklənməsində ali məktəblərin rolu, qarşılıqlı fayda əsasında qurulan tərəfdaşlıqların əhəmiyyəti kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.



BDU rektoru Elçin Babayev çıxışında universitetlərin yalnız təhsil və elmi fəaliyyətlə məhdudlaşmayaraq, həm də cəmiyyətin sosial və iqtisadi inkişafına töhfə verməsinin vacibliyini vurğulayıb. O, Bakı Dövlət Universitetinin bu istiqamətdə həyata keçirdiyi müxtəlif təşəbbüslər, yerli icmalarla əməkdaşlıq layihələri və regionun dayanıqlı inkişafına dəstək strategiyalarından bəhs edib.

Panelin moderatoru Almaniyanın Constructor Universitetinin vitse-prezidenti Tomas Auf der Heyde, digər spikeri isə “Reichert Ali Təhsil Konsaltinq” şirkətinin təsisçi direktoru Sibille Reyxert olub.

Sammitdə BDU-nun iştirakı Universitetin beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsinə və qlobal təcrübələrin yerli təhsil sisteminə inteqrasiyasına mühüm töhfə verir.

# BDU rektoru “Rektorlar klubu: Mərkəzi Asiya+” təşəbbüsü üzrə beynəlxalq tədbirdə iştirak edib

***Sentyabrın 26-da BDU-nun rektoru Elçin Babayev beynəlxalq ali təhsil müzakirələrinin mühüm platformalarından biri olan “Rektorlar klubu: Mərkəzi Asiya+” təşəbbüsü çərçivəsində keçirilən tədbirdə iştirak edib.***

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin və Qazaxıstanın Almatı Menecment Universitetinin təşkilatçılığı ilə keçirilən tədbir çərçivəsində “Qlobal kontekstdə yerli kimlik”, “Avrasiya universitetləri: dəyərlər, mədəniyyət və missiya vasitəsilə inkişaf” və “Avrasiya universitetlərinin rəqəmsal strategiyası və beynəlmiləlləşmə” kimi aktual mövzular üzrə panel müzakirələr aparılıb.

BDU-nun da təmsil olunduğu görüş çərçivəsində müxtəlif ali təhsil müəssisələrinin nümayəndələri ilə görüşlər və perspektiv əməkdaşlıq imkanlarına dair müzakirələr keçirilib.

# BDU-da “Akademik Yusif Məmmədəliyev” məqsədli təqaüdü təsis olunur

***Bakı Dövlət Universitetində Kimya fakültəsinin bakalavriat və magistratura səviyyələrinin tələbələri üçün “Akademik Yusif Məmmədəliyev” məqsədli təqaüdü təsis olunur.***

Bu barədə BDU Elmi Şurasının 2025/2026-cı tədris ilində ilk iclasında qərar qəbul olunub.

Təqaüdün Kimya fakültəsinin bakalavr və magistratura təhsil səviyyələrinin I kursunu bitirmiş və Ümumi Orta Müfəvvəqiyyət Göstəricisi (ÜOMG) ən yüksək olan 2 tələbəsinə (1 bakalavr və 1 magistrant ) verilməsi nəzərdə tutulur.

# BDU və Corc Vaşinqton Universitetinin Ali Təhsil və İnsan İnkişafı Məktəbi arasında niyyət protokolu imzalanıb

***Sentyabrın 26-da BDU və Amerika Birləşmiş Ştatlarının (ABŞ) Corc Vaşinqton Universitetinin Ali Təhsil və İnsan İnkişafı Məktəbi arasında niyyət protokolu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Corc Vaşinqton Universitetinin Ali Təhsil və İnsan İnkişafı Məktəbinin dekanı Sevinc Məmmədova imzalayıb.



Protokolda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də niyyət protokolunda öz əksini tapıb.

Onu da qeyd edək ki, əsası 1821-ci ildə qoyulmuş Corc Vaşinqton Universiteti ABŞ-nin nüfuzlu universitetlərindən biridir və QS Dünya Universitetləri Reytinqində 358-ci yerdə qərarlaşıb.

# BDU və Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universiteti əməkdaşlığı genişləndirir

***Sentyabrın 29-da BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin prorektoru Nozima Muratova ilə görüşüb.***



Görüşdə iki qardaş ölkənin universitetləri arasında mövcud əlaqələrin inkişaf perspektivləri, xüsusilə jurnalistika və media sahəsində qarşılıqlı tədris və tədqiqat imkanları müzakirə olunub. Əsas diqqət ikili diplom proqramının işə salınması və bu istiqamətdə praktiki addımların müəyyənləşdirilməsinə yönəlib. Tərəflər iki universitet arasında magistratura səviyyəsində "İctimaiyyətlə əlaqələr" ixtisaslaşması üzrə ikili diplom proqramının hazırlanması barədə müzakirələr aparıblar.

Görüşdə universitetlər arasında tələbə və müəllim mübadiləsinin təşkili, birgə layihə və tədbirlərin keçirilməsi, media sahəsində ixtisaslaşmış kadr hazırlığının gücləndirilməsinin önəmi vurğulanıb.

# BDU-da Çin Xalq Respublikasının Təhsil Nazirliyinin nümayəndə heyəti ilə görüş

***Sentyabrın 29-da Çin Xalq Respublikasının təhsil nazirinin müavini Du Jianfengin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da rəsmi səfər edib. Səfər çərçivəsində qonaqlar Universitetin rəhbər heyəti ilə görüşüblər. Görüşdə Azərbaycanın elm və təhsil nazirinin müavini Həsən Həsənli və nazirliyin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Simuzər Feyzullayeva da iştirak edib.***



Görüş zamanı tərəflər iki ölkə arasında ali təhsil sahəsində əməkdaşlıq, beynəlxalq tədqiqat layihələri, tələbə və müəllim mübadiləsi proqramları, eləcə də BDU-da fəaliyyət göstərən Konfutsi İnstitutunun imkanlarının genişləndirilməsi məsələlərini müzakirə ediblər. Nümayəndə heyəti Konfutsi İnstitutuna baş çəkib, institutun müəllim və tələbələri ilə görüşüb, qarşılıqlı təcrübə və təhsil imkanları haqqında ətraflı məlumat alıb.

BDU rəhbərliyi birgə layihələrin həyata keçirilməsi istiqamətində təşəbbüslərin əhəmiyyətini vurğulayıb və görüş zamanı universitetin elmi və mədəni potensialı, tələbələrin beynəlxalq təcrübəyə cəlb olunması və yeni təhsil proqramlarının hazırlanması məsələlərini geniş müzakirə edib.

# BDU rektorunun müşaviri Ali təhsildə keyfiyyət təminatı üzrə II ADA Simpoziumunda çıxış edib

***25-26 sentyabr 2025-ci il tarixlərində ADA Universitetinin təşkilatçılığı və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin tərəfdaşlığı ilə ali təhsildə keyfiyyət təminatına həsr olunmuş Ali təhsildə keyfiyyət təminatı üzrə II ADA Simpoziumu keçirilib.*** Ölkədə ali təhsildə keyfiyyət təminatı sahəsində fəaliyyət göstərən universitetlərin nümayəndələrini bir araya gətirərək, fikir və təcrübə mübadiləsinə imkan yaratmaq məqsədilə keçirilən tədbirdə milli akkreditasiya, daxili keyfiyyət təminatı, tədris proqramlarının qiymətləndirilməsi, tədris və öyrənmə, insan resurslarının inkişafı, dayanıqlılıq və layihə idarəçiliyi mövzuları müzakirə olunub. Simpoziumda yerli və beynəlxalq ekspertlər iştirak ediblər.

Simpoziumda Bakı Dövlət Universitetini (BDU) rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov təmsil edib.

O, təqdimatında ali təhsildə keyfiyyət təminatı mexanizmlərinin beynəlxalq reytinqlər, Dayanıqlı İnkişaf Məqsədləri (DİM) və dayanıqlılıq prinsipləri ilə uzlaşdırılmasına dair məlumat verib. Daxili və xarici keyfiyyət təminatı sistemi ilə DİM-lərin və onların beynəlxalq reytinq meyarlarında əksinə dair nümunələr təqdim edib.

# BDU və ICESCO-nun Bakı regional ofisinin əməkdaşları arasında onlayn görüş

***Sentyabrın 25-də BDU və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Bakı regional ofisi arasında əməkdaşlıq imkanlarını genişləndirmək məqsədilə onlayn görüş keçirilib. Görüşdə BDU rektorunun katibliyinin rəhbəri Mahir Pirquliyev, ICESCO-nun regional ofisinin meneceri Ələkbər Xıdırov, regional ofisin tərcüməçi və şərhçisi Aytən Eyvazzadə iştirak ediblər.***

Tərəflər bu ilin sonlarında Bakıda keçirilməsi planlaşdırılan "Tərcümənin rolu" mövzusunda beynəlxalq konfransın təşkilini müzakirə ediblər. Konfransın məqsədi ICESCO-ya üzv ölkələr və Mərkəzi Asiyadan olan mütəxəssisləri bir araya gətirmək, tərcümənin ortaq dəyərlərin təşviqi, mədəniyyətlərarası dialoqa və davamlı inkişafa töhfəsi kimi əhəmiyyətini vurğulamaqdır.

Görüşdə ICESCO-nun əsas təhsil təşəbbüslərindən biri olan "Ərəb dili üzrə Beynəlxalq Dil Tədris Proqramı" da müzakirə olunub. Bu proqram ərəb dili bilməyən üzv dövlətlərin ehtiyaclarına cavab vermək məqsədi daşıyır və BDU-nun iştirakı ilə Azərbaycanda həyata keçiriləcək. Məqsəd təhsil işçiləri və ərəb dili müəllimlərinin potensialını artırmaq, tədris metodlarını və dil bacarıqlarını inkişaf etdirmək, həmçinin müasir pedaqoji, dil və texnoloji standartlara uyğun kurikulumların hazırlanmasına dəstək verməkdir.

# BDU-da Süni intellekt etikası üzrə I Gənclər Forumu keçirilib

***Sentyabrın 19-da BDU, Gənclər və İdman Nazirliyi, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM), "BDU könüllüləri" təşkilatı, Süni İntellekt Azərbaycan Platforması və Dünya Azərbaycanlıları Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə BDU-da Süni intellekt etikası üzrə I Gənclər Forumu keçirilib.***



Forumda açılış nitqi ilə çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, hazırda təhsil, elm, səhiyyə, iqtisadiyyat, media, incəsənət və s. kimi sahələrdə süni intellekt əsaslı tətbiqlər sürətlə genişlənir. Süni intellekt bu sahələrin inkişafına töhfə verməklə yanaşı, insan hüquqları və vətəndaş azadlıqları ilə bağlı məsələlərdə bəzən etik problemlərə də səbəb olur. Buna görə də süni intellektin etikası problemi günümüzün aktual məsələsidir: "Azərbaycanda bu istiqamətdə ilk təşəbbüs Bakı Dövlət Universiteti tərəfindən qaldırılıb. Süni intellekt etikasının akademik müstəvidə araşdırılması üçün BDU-da Süni intellekt etikası kafedrası yaradılıb. Bu kafedranın yaranması və formalaşdırılması istiqamətində işin aparılmasında Beynəlxalq Türk Akademiyası dəstək göstərəcək. Artıq bu ildən BDU-nun magistratura pilləsində təhsil alan bütün tələbələrə "Süni intellekt etikası" fənni tədris edilir. İnanırıq ki, bu istiqamətdə aparılan dövlət siyasəti daha da təkmilləşdiriləcək və süni intellektin etikası məsələsi də müvafiq qanunvericilikdə öz əksini tapacaq".

Milli Məclisin deputatı Naqif Həmzəyev hazırda süni intellektin əksər hallarda düzgün istifadə edilmədiyinə diqqəti çəkib. O qeyd edib ki, günün tələbinə çevrilən süni intellekt daha çox alət kimi istifadə edilməlidir, onun birbaşa vasitə və ya mənbə kimi istifadəsi yanlışdır: "Bu gün sosial şəbəkələrdə süni intellekt vasitəsilə yaradılan audiovizual kontentlər müxtəlif müzakirələrə səbəb olur ki, bu da mənfi tendensiyalar doğurmaqdadır.

Bu, həm də onun etikasının öyrənilməsi , aktual məsələ kimi araşdırılmasını tələb edir. Düşünürəm ki, gənclərimizin təşəbbüsü ilə keçirilən bu forum faydalı olacaq".

4SİM-in icraçı direktorunun müavini Soltan Bayramov bəşəriyyətin texnoloji dəyişikliklərə sürətlə məruz qaldığı dövrdən keçdiyini və bunun iqtisadi yüksəlişin əsas hərəkətverici qüvvəsi olduğunu qeyd edib. XXI əsrdə bu rola süni intellekt sahiblənib və bütün sahələrə sirayət edib: "Dünya İqtisadi Forumunun "Gələcəyin əmək bazarı hesabatı"nda göstərilir ki, süni intellekt əmək bazarının məhsuldarlığını artırır. Bu, qarşıdakı illərdə ənənəvi peşələrin sıradan çıxmasına və yeni ixtisasların meydana gəlməsinə səbəb olacaq. Əmək bazarında yeni bacarıqlar əldə etmək isə rəqabətə davamlılığın əsas formuluna çevrilib. Bütün bunlar nəzərə alınaraq, ölkə başçısının Sərəncamı ilə Azərbaycanın növbəti üç il üçün "Süni intellekt Strategiyası" qəbul edilib. İqtisadiyyat Nazirliyi və 4SİM tərəfindən də qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işlər aparılır. Ölkə vətəndaşlarının süni intellekt və data elmi sahəsində məlumatlılığının artırılması üçün Milli Proqram həyata keçirilir. Bakı Dövlət Universitetinin 1600-dən çox tələbəsi və 120-dən artıq müəllimi Milli Proqramdan yararlanıb və sertifikat əldə edib. Süni intellekt dövründə əmək bazarının əsas iştirakçısı olan gəncləri inkişaf etdirmək bu yoldakı əsas missiyamızdır".

Daha sonra çıxış edən Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın sədr müavini Ramin Həbibzadə, Süni İntellekt Azərbaycan Platformasının idarə heyətinin sədri Nərmin Həbibzadə və Dünya Azərbaycanlıları Gənclər Təşkilatının baş katibi Nazrin Süleymanova ölkəmizdə süni intellekt etikası mövzusunda ilk dəfə keçirilən forumun böyük əhəmiyyətə malik olduğunu bildiriblər.

Forum öz işini "Süni intellektin gələcək nəsillərə təsir imkanları, problemlər və fürsətlər" və "Süni intellekt etikası və gənclərin rifahı: süni intellekt dövründə təhsil, karyera və qlobal standartlar" mövzuları üzrə panel sessiyalarla davam etdirib.

# Macarıstanın mədəniyyət və innovasiya naziri Balazs Hankonun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da

***Sentyabrın 25-də Macarıstanın mədəniyyət və innovasiya naziri Balazs Hankonun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***



BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov qonaqlara Universitetin elm, təhsil, innovasiya, mədəniyyət sahələrində fəaliyyəti, həyata keçirdiyi layihələr barədə məlumat verib. BDU-nun Macarıstan universitetləri ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu vurğulayıb.

Nazir Balazs Hanko Azərbaycana səfərindən, ölkənin ən böyük və qədim ali məktəbi BDU-da olmaqdan məmnunluğunu bildirib, görüşün təşkilinə görə təşəkkür edib. O, iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın zəruri olduğunu diqqətə çatdırıb.

Qonaqlar BDU-da fəaliyyət göstərən "Ekoməkan"da olublar. Sonra qonaqlar BDU Elmi Kitabxanasının Azərbaycan-Macarıstan münasibətlərinə həsr etdiyi sərgi ilə tanış olublar. Sərgidə Azərbaycan və Macarıstan münasibətlərinə, enerji təhlükəsizliyi, tarix, mədəniyyət və ədəbiyyata dair 70-dən çox nəşr yer alıb.

Qonaqlar BDU-nun Heydər Əliyev muzeyini ziyarət ediblər. Nazir Balazs Hanko "Xatirə kitabı"na ürək sözlərini yazıb. Sonda nümayəndə heyəti BDU-nun Heydər Əliyev lektoriyası, Faydalı qazıntılar muzeyi, Mədəniyyət-Yaradıcılıq Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

# Mədəniyyət Nazirliyinin "Sənət inciləri" layihəsi üzrə növbəti mühazirə-konsert BDU-da keçirilib

***Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Üzeyir Hacıbəyli XVII Beynəlxalq Musiqi Festivalı müxtəlif səpkili tədbirlərlə davam edir.***





Festival çərçivəsində Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) tərəfindən təşkil olunan "Sənət inciləri" layihəsi üzrə növbəti mühazirə-konsert sentyabrın 22-də Bakı Dövlət Universitetində keçirilib.

Tədbirdə BDU-nun rektoru Elçin Babayev, təhsil ocağının professor-müəllim və tələbə heyəti iştirak edib.

BDU-nun prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Əliş Ağamirzəyev və MEMİM-in direktor vəzifəsini icra edən, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vüqar Hümbətov bu il 17-ci dəfə keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının ölkəmizin mədəni həyatında əlamətdar hadisəyə çevrildiyini bildiriblər. Qeyd olunub ki, dahi bəstəkar Üzeyir Hacıbəyli bir-birindən qiymətli musiqi və səhnə əsərləri ilə yanaşı, şifahi ənənəli nümunələrin nota köçürülməsi, Azərbaycan peşəkar musiqisinin geniş xalq kütlələri arasında və beynəlxalq arenada təbliğinə, mədəniyyətimizin, mətbuat və publisistikamızın inkişafına da misilsiz töhfələr verib.

Çıxışlardan sonra Azərbaycan Milli Konservatoriyasının kafedra müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, bəstəkar Pikə Axundovanın "Üzeyir Hacıbəylinin Azərbaycan bəstəkarlıq məktəbinin inkişafında rolu" mövzusunda mühazirəsi dinlənilib.

MEMİM-in əməkdaşı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızının moderator olduğu tədbirdə Beynəlxalq Muğam Mərkəzinin C.Cahangirov adına Xor kollektivi (bədii rəhbər: Əməkdar müəllim Təranə Yusifova), Bakı Xoreoqrafiya Akademiyasının rəqs qrupu (bədii rəhbər: Xalq artisti Yusif Qasımov), Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti tələbələrinin iştirakı ilə maraqlı bədii proqram təqdim olunub. Gənclərin ifasında Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin (1885-1937) bir-birindən dəyərli musiqi əsərləri və rəqs kompozisiyaları tamaşaçıların könlünü oxşayıb, alqışlarla qarşılanıb.

# Görkəmli alim, yazıçı və pedaqoq - Mir Cəlal Paşayev

***28 sentyabr XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin vəfatından 47 il ötür.***

Mir Cəlal Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanda (Ərdəbil ostanı) yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçib. Mir Cəlal 10 yaşında olanda atası vəfat edib və o, böyük qardaşının himayəsində yaşayıb.

Mir Cəlal Paşayev 1918–1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəllimliyinə daxil olub. Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilib. Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik edib və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini mənimsədib. Bu mənada Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Görkəmli yazıçının "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi müəllifinə əbədiyaşarlıq qazandırıb. Onun böyük zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı



fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.

Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını, tələbələrini sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir".

XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Mir Cəlal öz yazı üslubu ilə həmkarlarından fərqlənərək Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra nailiyyətləri bilavasitə Mir Cəlal Paşayevin adı ilə bağlıdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi. 1928-ci ildə mətbuatda ilk şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunub. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və digər hekayələrini çap etdirib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları işıq üzü görüb.

Mir Cəlalın ilk irihəcmli əsəri "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunub. Hələ yarım əsr bundan əvvəl akademik Məmməd Arif yazırdı: "Mir Cəlal "Dirilən adam"la diqqətli bir realist yazıçı olduğunu göstərib".

"Bir gəncin manifesti" əsəri isə yazıçının həyatında böyük bir dönüş yaradıb, ədəbi zirvəyə aparan yoluna cığır açıb və müəllifə böyük oxucu auditoriyası qazandırıb. 1940-cı ildə "Uşaqgəncnəşr"də kitab halında kütləvi tirajla buraxılan bu əsər oxucu tələbatına görə sonrakı illərdə də təkrar çap edilib. "Bir gəncin manifesti" bu gün də qəlbləri riqqətə gətirir. Müxtəlif illərdə doqquz dəfə ayrıca kitab halında nəşr olunan bu əsər Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da sevilir.

Mir Cəlalın "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınıb. Yazıçının "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmış hekayələri də böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" və digər hekayələrində isə real həyat lövhələri, fəlsəfi düşüncələr əks olunub. İndiyədək yazıçının 70-dən çox kitabı çap edilib.

Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutub.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. Füzuli poeziyasının qüdrətinə heyran olan, ümumiyyətlə, klassik ədəbiyyata qəlbən bağlı Mir Cəlal Paşayev 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib. Mir Cəlal Paşayevin tanınmış tədqiqatçı Firudin Hüseynovla birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" əsəri uzun illərdir ki, ali məktəblər üçün dərs vəsaitidir. Bu dərslikdə XX əsrin böyük ədəbi şəxsiyyətləri, onların yaradıcılığı, ədəbi mühitə gətirdikləri yeniliklər haqqında əhatəli elmi fikirlər əks olunub.

1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşmuş gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, özündən sonra gələn nəsillərə də örnəkdir. Təsadüfi deyil ki, bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur.

"UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. UNESCO-nun Parisdə yerləşən iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. Bu, həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür.

Mir Cəlal Paşayevin əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq!

# Bakı Dövlət Universiteti və "Huawei" şirkəti arasında əməkdaşlıq memorandumu imzalanıb

***Sentyabrın 29-da Bakı Dövlət Universiteti rektorunun rəhbərlik etdiyi nümayəndə heyəti "Huawei Technologies Co, LTD" şirkətinin rəsmi dəvəti ilə Çində rəsmi səfərdə olub. Azərbaycanın bir sıra universitetlərinin də təmsil olunduğu səfər çərçivəsində yüksək texnologiyalar, süni intellekt və ali təhsildə innovasiyalar sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.***






Nümayəndə heyəti dünyada texnologiyalar şəhəri kimi tanınan Shenzhen-də "Huawei" Korporativ Biznes Sərgi Zalı"nı və "5G və Süni İntellekt Sərgi Zalı"nı ziyarət edib, şirkətin təqdim etdiyi qabaqcıl texnologiyalarla tanış olub. Ziyarət zamanı süni intellekt, 5G və 5G-A, bulud texnologiyaları və smart şəhər həlləri sahəsində şirkətin tətbiqləri barədə ətraflı məlumat verilib, yüksək texnologiyaların, süni intellektin təhsil və tədqiqat sahələrində tətbiqi imkanları nümayiş etdirilib.

"Huawei"in korporativ kommunikasiyalar üzrə vitse-prezidenti David Wang, Yaxın Şərq və Mərkəzi Asiya üzrə vitse-prezidenti Angela Lin və şirkət əməkdaşların da iştirak etdiyi və baş ofisdə keçirilən rəsmi görüşdə "Artificial Intelligence"və "İntelligent Education" tətbiqləri, ikitərəfli əməkdaşlıq perspektivləri müzakirə edilib, texnologiya, təhsil və elm sahələrində gələcək birgə layihələr ətrafında fikir mübadiləsi aparılıb. Müzakirələr zamanı ali təhsil müəssisələri ilə tərəfdaşlıq imkanları, tələbələrin tədris və təcrübə proqramları, birgə layihələr və innovativ laboratoriyaların yaradılması üzrə konkret addımlar müəyyən edilib.

Səfər çərçivəsində BDU və "Huawei" şirkəti arasında memorandum (MOU) imzalanıb. Əməkdaşlıq çərçivəsində Universitetin tələbələri və tədqiqatçıları üçün texnologiya və innovasiya sahəsində təlim və təcrübə proqramlarının həyata keçirilməsi, BDU-nun müvafiq fakültələrində süni intellekt və informasiya-kommunikasiya texnologiyaları üzrə birgə tədqiqatların aparılması, smart texnologiyalar və 5G infrastrukturu sahəsində tədris və laboratoriya imkanlarının genişləndirilməsi, həmçinin gələcəkdə birgə innovasiya mərkəzlərinin yaradılması və startap ekosisteminin dəstəklənməsi nəzərdə tutulur.

Səfər çərçivəsində nümayəndə heyəti Çinin Dongguan şəhərində yerləşən "Huawei" Tədqiqat və İnkişaf Kampusunda, Dongguan Texnologiya Universitetində və Qlobal Kibertəhlükəsizlik Transparant Mərkəzində də görüşlər keçirib.

# BDU-da Anım Günü ilə bağlı kitab sərgisi təşkil olunub

***BDU-nun Elmi Kitabxanası 27 Sentyabr - Anım Günü ilə bağlı ənənəvi kitab sərgisi təşkil edib.***

Sərgidə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş torpaqların tarixini əks etdirən, 44 günlük Vətən müharibəsində qələbəyə aparan prosesləri işıqlandıran, ölkəmizin suverenliyi uğrunda canlarını fəda etmiş qəhrəman Vətən oğullarının həyatını əks etdirən Azərbaycan, rus və ingilis dillərində 50-yə yaxın kitab nümayiş olunub.



Bu il sərgidə əsas diqqət 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın xatirəsinə yönəlib. Sərgidə nümayiş olunan "Şəhid həkimlər (R.Qurbanlı)", "Şəhadətə gedən cəsur sərkərdə – polkovnik-leytenant Nail Rəfail oğlu Orucov (Z.Abbasov)", "Vətən sizə oğul dedi (E.Quliyev)", "Şəhid Ceyhun dastanı (R.Əlyar)", "Şuşanın qoxusu gəlir", "Göylərdən göylərə: Bir şəhidin gündəliyi – Hafiz, Müəllim, Şəhid Elgün Quliyev", "Komandir (Ş.Ağayar)", "Qələbədə payı olan Mahmudum (R.Nəcəfova)", "Qısa ömürlərin uzun izləri... (M.Ağagüloğlu)", "Eminin şəhidlik zirvəsi (M.İmamquluyeva)", "Qanları ilə dastan yazanlar (E.İsmayıl)" adlı əsərlər oxuculara şəhidlərin fədakarlığını, igidliyini və Vətən yolunda göstərdikləri qəhrəmanlığı çatdırıb.

Sərgidə BDU-da nəşr olunmuş "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri", "Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları", "Vətən müharibəsi yerli və xarici mediada", "Bakı Dövlət Universiteti Vətən müharibəsi dövründə", "Tarix yazan məzunlar" adlı kitablar da yer alıb.

# BDU-da Anım Günü qeyd olunub

***Bakı Dövlət Universitetində 27 Sentyabr – Anım Gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə BDU əməkdaşları 2 saylı tədris binasının qarşısında şəhidlərin xatirəsinə ucaldılmış abidə və Universitetin şəhid məzunlarına həsr olunmuş guşəni ziyarət edib, önünə əklil qoyub, gül dəstələri düzüblər. Sonra tədbir böyük akt zalında davam edib.***



Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, bu il müstəqil dövlətimizin tarixinə qızıl hərflərlə yazılmış şanlı Zəfərimizin 5 ili tamam olur. 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti hərbi təxribata cavab olaraq müzəffər Azərbaycan Ordusu bütün cəbhəboyu əks-hücuma başladı. Düşmən tapdağında olan rayonlarımız, şəhər və qəsəbələr, yüzlərlə kənd, strateji əhəmiyyət daşıyan yüksəkliklər ildırım sürətli döyüşlərlə, hər gün qazanılan qələbələrlə düşməndən təmizləndi. Şəhidlərimizin qanı ilə sulanan əzəli torpaqlarımızda üçrəngli bayrağımız əbədi olaraq dalğalandırıldı. Vətən müharibəsi zamanı öz sərkərdəsi, Prezidenti yanında yumruq kimi birləşən Azərbaycan xalqı birliyi və fədakarlığı ilə dünyaya səs saldı. Azərbaycan Ordusu dünyaya ədalətli müharibənin necə aparıldığını göstərdi: "Bu müqəddəs amallar uğrunda apardığımız müharibədə 3000 nəfərə qədər igid əsgərimiz şəhid oldu, min nəfərdən artıq hərbi qulluqçumuz yaralanaraq sağlamlığını itirdi. Vətən müharibəsinin başladığı 27 sentyabr tarixi müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycanda Anım Günü kimi qeyd olunur. Bu gün Vətən yolunda canlarını fəda etmiş müqəddəs şəhidlərimizə ehtiramın ifadəsidir.

Qarabağ Zəfərinin davamı olaraq 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı, heç bir gün çəkməyən lokal xarakterli antiterror tədbirləri ilə ölkəmiz həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa etdi. Lokal antiterror əməliyyatından sonra ölkəmizin təkcə coğrafi xəritəsində deyil, sosial və quruculuq xəritəsində də çox böyük dəyişiklik baş verib. Vaxtilə erməni hərbi birləşmələrinin xaraba qoyduğu Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri yüksək sürətlə davam edir".

Rektor bildirib ki, 44 günlük Vətən müharibəsində BDU-nun yüzlərlə məzunu da iştirak edib, şücaət göstərib, onlardan 22-si şəhidlik zirvəsinə ucalıb: "Biz qəhrəman igidlərimizlə qürur duyuruq. Azərbaycan xalqı və dövləti hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, əbədi xatirəsini uca tutur".

Milli Məclis sədrinin müavini, professor Musa Qasımlı, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Milli Məclisin üzvləri Rizvan Nəbiyev, Pərvin Kərimzadə, BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin məzunu, Vətən müharibəsi iştirakçısı Sərxan Veysəlli xalqın eyni amal uğrunda mücadiləyə qalxdığı və qəhrəmanlıq tarixinin başlanğıcı olan bu günün yaddaşlarda əbədi iz buraxdığını bildiriblər. Çıxışlarda xalqımızın Vətən müharibəsi günlərində bir yumruq kimi Müzəffər Ali Baş Komandanın və Ordumuzun ətrafında birləşdiyi, müqəddəs şəhidlərimizin xatirəsinin əbədi yaşayacağı bildirilib.

Sonda BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı bədii kompozisiya nümayiş olunub.

# Jurnalistika fakültəsinin tələbələri II Fəxri Xiyabani ziyarət ediblər

***Sentyabrın 26-da Jurnalistika fakültəsinin tələbələri II Fəxri Xiyabanı ziyarət ediblər***

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin I kurs tələbələri II Qarabağ müharibəsi şəhidlərinin əziz xatirəsini yad etmək məqsədilə II Fəxri Xiyabanı ziyarət ediblər.

Ziyarət zamanı şəhidlərin ruhu bir dəqiqəlik sükutla anılıb.

Tədbirdə iştirak edən fakültənin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev, həmçinin BDU könüllülərinin fakültə üzrə sədri Güllü Hacızadə tələbələrin vətənpərvərlik ruhunda tərbiyə olunmasında belə tədbirlərin mühüm rol oynadığını vurğulayıblar. Onlar belə ziyarətlərin davamlı olaraq keçirilməsinin əhəmiyyətini qeyd ediblər.

Vətən müharibəsinin beşinci ildönümü münasibətilə təşkil olunan bu ziyarətdə fakültə tələbələri fəal iştirak edərək, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyiblər.



# BDU kollektivi Zəfər parkını ziyarət edib

***Sentyabrın 27-də BDU-nun kollektivi 27 Sentyabr – Anım Günü ilə əlaqədar Zəfər parkını ziyarət edib.***

Ziyarət zamanı parkın girişindəki xatirə daşının önünə gül dəstələri düzülüb, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi hörmət və ehtiramla yad edilib.

# BDU-da sərgi: "Özbək qadının identikliyi"

***Sentyabrın 30-da Özbəkistanın Mirzə Uluqbəy adına Özbək Milli Universitetinin Psixologiya kafedrasının bir qrup əməkdaşı Sosial elmlər və psixologiya fakültəsinin qonağı olub.*** Özbək Milli Universitetinin Psixologiya kafedrasının professoru Dilbər Muxamedova, professor əvəzi Ruxsora Xudratullayeva, psixologiya üzrə fəlsəfə doktoru, dosent əvəzi Zuxra Turakulova, kafedranın baş müəllimi Diyora Xocaxulova fakültə dekanı Rövşən Cavadovla görüşüblər.

Qonaqlar həmçinin Psixologiya, Sosial və pedaqoji psixologiya kafedralarında olublar. Psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru Səxavət Əliyeva, professorlar Rəna Qədirova, İmdad Bayramov, dosentlər Sevinc Quliyeva, Azər Mustafayev, Kamilə Kazımova, psixologiya üzrə fəlsəfə doktoru Nigar Nəsirova özbək alimləri ilə elmi müzakirələr aparıb, fikir mübadiləsi ediblər.

Özbək qonaqlar Sosial elmlər və psixologiya fakültəsində "Özbək qadının identikliyi" mövzusunda sərgi nümayiş etdiriblər. Sərgidə Özbəkistan qadınlarının elm, mədəniyyət və idmanın inkişafına verdiyi mühüm töhfələri əks etdirən foto-eksponatlar nümayiş etdirilib. Eksponatlarda Özbəkistan qadınlarının özünəməxsus xüsusiyyətlərini və xarakterini təcəssüm etdirən məqamlar yer alıb, onların cəmiyyətdə və mədəniyyətdəki roluna xüsusi diqqət çəkilib.

# BDU-nun şəhid məzunu Nicat Əhmədovun məzarı ziyarət olunub

***Sentyabrın 22-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Universitetin bir qrup əməkdaş və tələbəsi Vətən müharibəsi şəhidi, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu Nicat Əhmədovun doğum günündə ailəsi ilə görüşüb, məzarını ziyarət edib.***

Ziyarətdə BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Zöhrab Cavadzadə, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekan müavini Elmar Dadaşov, BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi Ələkbər Həsənov və THİK-in fəal üzvləri iştirak ediblər.

Görüşdə çıxış edənlər Nicat Əhmədovun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşduğunu qeyd ediblər. Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Nicat Əhmədovun müəllimləri və tələbə yoldaşlarının qəlbində daim yaşayacağı vurğulanıb.



Qeyd edək ki, Nicat Əhmədov 2016-2020-ci illərdə BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində təhsil alıb. 2020-ci il oktyabrın 8-də Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

# Tarix fakültəsində tədbir: “Anım və Qürur”

***Sentyabrın 26-da Tarix fakültəsinin nəzdində fəaliyyət göstərən İstiqlal klubu, Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə 27 sentyabr – Anım gününə həsr olunmuş “Anım və qürur” adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov çıxış edərək bildirib ki, bu gün möhtəşəm tarixi Zəfərimizlə yekunlaşan Vətən müharibəsinin başlanmasından 5 il ötür. 2020-ci il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış doğma torpaqlarımızın azad edilməsi üçün hərbi əməliyyatlara başladı. Azərbaycan hərbçilərinin misilsiz döyüş qabiliyyətini, Ordumuzun qüdrətini yüksək səviyyədə təcəssüm etdirən, xalqımızın dəmir yumruq kimi birləşdiyi 44 günlük müharibə ərazilərimizin düşməndən azad edilməsi ilə nəticələndi. 2023-cü ilin sentyabr ayındakı 24 saat belə çəkməyən antiterror əməliyyatı tarixi qələbənin məntiqi sonluğu, dövlət suverenliyin tam bərpası ilə nəticələndi. Bütün bunlar Azərbaycan xalqının mübarizə əzmini, həmrəyliyinin və qəhrəman ruhunun nəticəsi idi.

BDU-nun Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi-tədqiqat laboratoriyasının müdiri, dosent Səidə Quliyeva bu il avqustun 8-də ABŞ-da sülh müqaviləsinin paraflanmasının və tarxi qələbədən sonra yeni dövrün başlanmasının əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan uzaqgörən siyasətin nəticəsi olduğunu deyib. Qeyd edib ki, bugünkü Azərbaycan gəncliyi də Azərbaycan Prezidentinin uğurla davam etdirdiyi bu siyasəti əsas bayraqdarına çevrilməlidirlər.

Tarix fakültəsinin I kurs tələbəsi, Vətən Müharibəsi Qəhrəmanı, şəhid Polkovnik-leytenantı Anar Əliyevin qızı Nigar Əliyevaya atası ilə bağlı xatirələrini bölüşüb, dövlətimizin şəhid ailələrinə göstərdiyi yüksək diqqət və qayğıdan söz açıb.

Tədbir tələbələrin hazırladığı bədii hissə və Vətən müharibəsindən bəhs edən videoçarxın nümayiş etdirilməsi ilə başa çatıb.

# BDU-da qazi məzunla görüş

***Sentyabrın 26-da İnformasiya və sənəd menecmenti fakültəsində 27 Sentyabr – Anım Günü münasibətilə fakültənin məzunu, Vətən müharibəsi qazisi Sərxan Veysəlli ilə görüş keçirilib.***

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Tədbirin moderatoru, İnformasiya və sənəd menecmenti fakültəsinin dosenti Rəşad Qardaşov 2020-ci ilin 27 sentyabrında başlayan və parlaq qələbə ilə nəticələnən 44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyətindən bəhs edib. Tədbirə dəvət olunmuş Sərxan Veysəllinin döyüş yolu haqqında iştirakçılara geniş məlumat verib.



Vətən müharibəsi qazisi – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə “Füzulinin azad olunmasına görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif olunmuş Sərxan Veysəlli işğalçı qüvvələrə qarşı aparılan hərbi əməliyyatlar barədə danışıb, döyüş təəssüratlarını görüş iştirakçıları ilə bölüşüb. O, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin yenilməz sərkərdəliyi, xalqımızın birliyi, şəhid və qazilərin qanı və canı hesabına Vətən torpaqlarının düşmən işğalından azad edilməsinin çoxəsrlik tariximizin parlaq səhifəsi olduğunu vurğulayıb. Müzəffər Ordumuzun uğurlu hərbi əməliyyatları nəticəsində Azərbaycan bayrağının 30 ildən artıq işğalda qalmış ərazilərimizdə dalğalandırılmasının hər birimizdə sonsuz qürur hissləri yaratdığını bildirib: “Şükürlər olsun ki, bu gün məzunu olduğum doğma Universitetimə, doğma fakültəmə Zəfər qazanmış ordunun qalib əsgəri kimi gəlmişəm”.

BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, Birinci Qarabağ müharibəsinin veteranı Knyaz Aslan Ermənistanın işğalçılıq siyasəti, artıq tarixdə qalmış Qarabağ münaqişəsinin başvermə səbəbləri, müharibənin qurbanları, ağır nəticələri barədə tələbələrə informasiya verib. Qarabağ münaqişəsinin həlli istiqamətində əməli addımların atılmasına məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra başlandığını xüsusi vurğulayıb. Tarixi Zəfər nəticəsində bütün şəhidlərimizin qisasının alındığını, onların ideallarının qalib gəldiyini bildirən natiq Vətənimizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirələrinin hər zaman xalqımız tərəfindən yaşadılacağını diqqətə çatdırıb.

# BDU-da tədbir: “Anım günümüz, qürur günümüz”

***Sentyabrın 25-də Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatı (TGT) və Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) birgə təşkilatçılığı ilə 27 Sentyabr – Anım Gününə həsr olunmuş “Anım günümüz, qürur günümüz” adlı tədbir keçirilib.***

Azərbaycan respublikasının Dövlət Himni səsləndirilib, Vətənimizin azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov müasir Azərbaycan Ordusunun gücündən, 44 günlük Vətən müharibəsində qəhrəmanlıq və igidlik nümunəsi göstərmiş əsgər və zabitlərimizin şərəfli döyüş yolundan bəhs edib, dövlətimizin şəhid ailələrinə və qazilərə göstərdiyi diqqət və qayğını vurğulayıb. O, şəhidlərin xatirəsinin xalqımız tərəfindən daim uca tutulduğunu qeyd edib.

Vətən müharibəsi iştirakçısı, Kimya fakültəsinin III kurs tələbəsi Namiq Əmənov çıxışında döyüş yolu, müharibə xatirələrini bölüşüb. Fakültənin III kurs tələbəsi Nəzrin Ağazadə şəhidlərin xatirəsinə həsr olunmuş şeir səsləndirib.

Tədbirdə Vətən müharibəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

# Geologiya fakültəsində şəhidlərin xatirəsi anılıb



***Sentyabrın 25-də Geologiya fakültəsində “BDU könüllüləri” təşkilatı və Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) birgə təşkilatçılığı ilə 27 Sentyabr – Anım Gününə həsr olunmuş “Səssiz qəhrəmanlar, sözsüz fəryadlar” adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Geologiya fakültəsinin dekanı, dosent Mamoy Mansurov sentyabrın 27-sinin Azərbaycan xalqının mübarizə tarixində dönüş nöqtəsi olduğunu qeyd edib. O, Vətən uğrunda canından keçən şəhidlərin xalqımız üçün həm böyük hüzn, həm də fəxr mənbəyi olduğunu vurğulayıb: “Şəhidlərimizin fədakarlığı daim yaddaşlarda yaşayacaq və gənc nəslin milli ruhda formalaşmasında mühüm rol oynayacaq”.

BDU-nun Kristalloqrafiya, mineralogiya və geokimya kafedrasının müdiri, dosent Kərim Rəhimov Vətən müharibəsində əldə edilən möhtəşəm Zəfərin Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı sayəsində mümkün olduğunu qeyd edib. O, bu Qələbənin Azərbaycan xalqının birliyi, dövlətin gücü və ordumuzun şücaəti nəticəsində qazanıldığını bildirib.

Vətən müharibəsi iştirakçısı Ruslan Əhmədov keçdiyi döyüş yolundan və xatirələrindən söz açıb.

# BDU-nun komandası Türkiyədə keçirilmiş "TEKNOFEST-2025"in qalibidir!

*BDU-nun sentyabrın 17-21-də "TEKNOFEST-2025 İstanbul" aerokosmik və texnologiya festivalında təmsil olunan "BSU SSTCC" komandası böyük uğur qazanıb.*




Dünyanın 96 ölkəsindən 565776 komandanın müraciət etdiyi festivalda BDU-nun "BSU SSTCC" komandası "Əngəlsiz həyat texnologiyaları" kateqoriyası üzrə "NeuroScreen" layihəsi ilə I yerə layiq görülüb.

"NeuroScreen" layihəsinin məqsədi iflicli xəstələrin beyin siqnallarının oxunması və filtrlənməsi nəticəsində müxtəlif IoT əsaslı ağıllı ev texnologiyalarının, rəqəmsal vasitələrin və robot əsaslı orqanların idarəsinin təmini, xəstənin sağlamlıq vəziyyətinin anlıq monitorinqi və süni intellekt əsasında təyinidir.

BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzini təmsil edən komanda üzvlərini və bütün BDU ailəsini təbrik edirik! Yeni uğurlara doğru inamla irəli!

# "TEKNOFEST-2025"in qalibi olan BDU komandası böyük coşqu ilə qarşılanıb

*17-21 sentyabr tarixlərində Türkiyədə keçirilən "TEKNOFEST-2025 İstanbul" Aerokosmik və Texnologiya Festivalında Bakı Dövlət Universitetini uğurla təmsil edərək böyük qələbə qazanan komandamız Vətənə qayıdıb.*



Heydər Əliyev adına Beynəlxalq Hava Limanında BDU-nun qalib TEKNOFEST komandasının üzvlərini Universitetin tələbə və əməkdaşları böyük təntənə və sevinclə qarşılayıblar.

Qeyd edək ki, dünyanın 96 ölkəsindən 565776 komandanın müraciət etdiyi festivalda BDU-nun "BSU SSTCC" komandası iflicli xəstələrin beyin siqnallarının oxunması və filtrlənməsi nəticəsində müxtəlif IoT əsaslı ağıllı ev texnologiyalarının, rəqəmsal vasitələrin və robot əsaslı orqanların idarəsinin təmini, xəstənin sağlamlıq vəziyyətinin anlıq monitoringi və süni intellekt əsasında təyini ni həyata keçirən "NeuroScreen" layihəsi ilə "Əngəlsiz həyat texnologiyaları kateqoriyası üzrə I yerə layiq görülüb. Bu böyük uğura imza atan komandamızın üzvləri İlyas Nəsibov, Reyhan Mirsultanova, Cəmil Cəfərli və Tahir Əliyevdir.

# BDU-nun 3 komandası "Tələbələrin təşəbbüslərinə dəstək – layihələr vernisajı" adlı yarışın final mərhələsində

***"Tələbələrin təşəbbüslərinə dəstək – layihələr vernisajı" layihəsi BDU və DOST Agentliyinin birgə təşkilatçılığı ilə həyata keçirilib. Layihə çərçivəsində sosial sahədə rəqəmsal, innovativ və yaradıcı ideyaya sahib ölkə universitetləri üzrə 43 komanda yarışıb, bu komandalardan 9-u yarışmanın final mərhələsinə vəsiqə qazanıb. Bu komandalardan 3-ü BDU-nu təmsil edir.***

BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin "Psixologiya" ixtisasının II kurs tələbəsi Fatimə Şirəliyeva tərəfindən təqdim edilən "ÜFÜQ - Ünsiyyət, Fərqindəlik, Ümid və Qayğı" layihəsinin məqsədi psixoloji dəstəyə ehtiyacı olan gənclərin (və tədricən digər yaş qruplarının) anonim, təhlükəsiz və rəqəmsal mühitdə öz hisslərini ifadə edə bildikləri, dəstək və motivasiya ala bildikləri bir platformanın yaradılmasıdır.

BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin "İnformasiya təhlükəsizliyi" ixtisasının III kurs tələbəsi Cəmil Cəfərli tərəfindən təqdim edilən "NeuroScreen" layihəsinin məqsədi iflic diaqnozu qoyulmuş şəxslərin beyin siqnallarının oxunması və filtrlənməsi nəticəsində müxtəlif IoT əsaslı ağıllı ev texnologiyalarının, rəqəmsal vasitələrin və robotik orqanların idarəsinin təmini, xəstənin sağlamlıq vəziyyətinin real vaxt rejimində monitorinqi və süni intellekt əsasında təyinidir.

BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin "Psixologiya" ixtisasının II kurs tələbəsi Gülgün Şəfiyeva tərəfindən təqdim edilən "SƏS – Səssizlərin Səsi" layihəsinin əsas məqsədi süni intellekt əsaslı mobil və veb platforma vasitəsilə eşitmə məhdudiyyətli gənclər üçün əlçatan, öyrədici və gəlir gətirən bir rəqəmsal məkana çevrilməkdir. Bu platforma onların yalnız məlumat əldə etməsi üçün deyil, öz bacarıqlarını cəmiyyətə təqdim etməsi və bu bacarıqları vasitəsilə gəlir qazanması üçün dizayn olunub.

Yarışın final mərhələsinə yüksələn tələbələrimiz öz layihələrini 24 oktyabr tarixində Bakıda keçiriləcək "SOCGOV 2025: Süni zəka İnsan və Transformasiya üçün" adlı beynəlxalq konfransında tədbir iştirakçılarına təqdim etmə imkanı qazanıblar.

Konfrans süni zəka, texnoloji transformasiya və insan cəmiyyəti sahələrində ixtisaslaşmış dövlət rəsmilərini, yerli və beynəlxalq ekspertləri, eləcə də alimləri və beynəlxalq təşkilatların nümayəndələrini, yerli və beynəlxalq investorları bir araya gətirəcək.

# BDU-nun komandası "TEKNOFEST-2025"in final mərhələsində iştirak edir




*Sentyabrın 18-də dünyanın ən böyük aerokosmik və texnologiya festivalı olan "TEKNOFEST – 2025 İstanbul" bu il 17-21 sentyabr tarixlərində Türkiyənin İstanbul şəhərində keçirilir.*

Dünyanın 96 ölkəsindən 565776 komandanın müraciət etdiyi yarışmada BDU-nun "BSU SSTCC" komandası "Əngəlsiz həyat texnologiyaları" kateqoriyası üzrə "NeuroScreen" layihəsini təqdim edir. 24 finalçı komandanın olduğu kategoriyada "NeuroScreen" layihəsi final mərhələsinə ən yüksək balla - 97.67 balla keçib.

"NeuroScreen" layihəsinin məqsədi iflicli xəstələrin beyin siqnallarının oxunması və filtrlənməsi nəticəsində müxtəlif IoT əsaslı ağıllı ev texnologiyalarının, rəqəmsal vasitələrin və robot əsaslı orqanların idarəsinin təmini, xəstənin sağlamlıq vəziyyətinin anlıq monitorinqi və süni intellekt əsasında təyinidir.

# BDU-da işəgötürənlər ilə əlaqələrin gücləndirilməsi istiqamətində görüş keçirilib

***Sentyabrın 23-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları ilə fakültələrin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavinləri arasında görüş keçirilib. Görüşün keçirilməsində məqsəd tələbə və məzunların karyera inkişafına dəstək göstərilməsi, onların əmək bazarına uğurlu inteqrasiyasının təmin edilməsi və Universitetlə işəgötürənlər arasında əlaqələrin gücləndirilməsi istiqamətində birgə fəaliyyətin reallaşdırılması olub.***

Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova Mərkəzin tələbə-məzun-işəgötürənlərə yönəlmiş fəaliyyət istiqamətləri, xidmətləri, həyata keçirilər tədbir və layihələri haqqında təqdimatla çıxış edib. Bildirib ki, fakültələr üzrə tələbələrin karyera ehtiyaclarının təhlili, məzunların əmək bazarında yerləşmə statistikası, məzun-tələbə əlaqələrinin gücləndirilməsi Mərkəzin prioritetlərindəndir. Tələbə və məzunların peşəkar bacarıqlara yiyələnməsi və əmək bazarına daha asan inteqrasiyası vacib məqamlardandır. Bütün bunlara Mərkəz ilə fakültələrin birgə fəaliyyəti, düzgün informasiya mübadiləsi və tələbə-məzunların aktiv fəaliyyəti sayəsində nail olmaq mümkündür.

Görüş zamanı məzunların məlumat bazasının zənginləşdirilməsi, hesabatlılıq mexanizmlərinin qurulması məsələlərinə aydınlıq gətirilib. Dekan müavinləri tədbir və layihələrin icrası, tələbə və məzunların məlumat bazasının dolğunlaşdırılması ilə bağlı tövsiyələrini bildiriblər.

# Bakı Dövlət Universiteti "QS Biznes Magistr Proqramları Reytinqi"nə daxil olub

***Sentyabrın 17-da BDU yeni beynəlxalq uğur əldə edərək, ilk dəfə dünyanın nüfuzlu reytinq təşkilatlarından biri olan "Quacquarelli Symonds" (QS) tərəfindən dərc olunan "QS Biznes Magistr Proqramları Reytinqi 2026: Menecment üzrə Magistratura" siyahısına daxil olub.***

QS-in açıqladığı nəticələrə görə, BDU-nun menecment üzrə magistratura proqramı qlobal miqyasda 201+ pillədə qərarlaşıb və Universitet reytinqə "Yeni İştirakçı" ("New Entrant") statusu ilə daxil olub.

BDU reytinqin müxtəlif meyarları üzrə fərqlənib. Universitetin tələbə və müəllim heyətinin gender və beynəlmiləl tərkibini əks etdirən "Müxtəliflik" göstəricisində 131–140-cı pillələrdə qərarlaşıb. "Məzun nəticələri" kateqoriyasında Universitet 151–200-ci pillələrdə yer alıb; bu göstərici məzunların karyera uğurlarını, nüfuzlu vəzifələrdə təmsil olunmalarını və peşəkar nailiyyətlərini qiymətləndirir. Eyni zamanda, BDU akademik nüfuzu, elmi araşdırmaların təsiri və elmi dərəcəyə malik müəllim heyətinin payını əks etdirən "Liderlik" meyarında 151–200-ci pillələrdə qərarlaşıb.

QS reytinqi dünya üzrə menecment sahəsindəki magistratura proqramlarını qiymətləndirir. Qiymətləndirmə meyarları arasında məzunların məşğulluq göstəriciləri və işəgötürənlərin rəyi, akademik və elmi nüfuz, məzunların uğurları, beynəlmiləlləşmə səviyyəsi və təhsilin səmərəliliyi yer alır.

BDU-nun bu sahələrdə əldə etdiyi nəticələr Universitetin qlobal səviyyədə tanınmasına töhfə verir, Azərbaycanın aparıcı ali təhsil müəssisəsi kimi mövqeyini möhkəmləndirir və beynəlxalq standartlara uyğun təhsil və tədqiqat fəaliyyətini nümayiş etdirir.

# BDU və "AFB Bank" nümayəndələri arasında görüş keçirilib

***Sentyabrın 16-da BDU-nun Karyera və Məzunlarla İş Mərkəzi ilə "AFB Bank" nümayəndələri arasında onlayn formatda əməkdaşlıq görüşü keçirilib. Görüşdə Mərkəzin Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova, baş mütəxəssis İlkin Şərifov, "AFB Bank"ın İnsan resursları əməliyyatları şöbəsinin meneceri Ramil Rzayev, İstedadların idarə edilməsi şöbəsinin baş mütəxəssisi Samirə Hüseynova iştirak ediblər.***

Görüşün əsas məqsədi tələbə və məzunların peşəkar inkişafının dəstəklənməsi, onların əmək bazarına daha rahat inteqrasiyasına kömək etmək və Universitet-işəgötürən əməkdaşlığını gücləndirmək olub.

Tərəflər BDU-nun karyera dəstəyi fəaliyyətləri, tələbə və məzunlara yönəlik tədbirlər planı və bank sektoruna olan maraq barədə müzakirələr aparıblar. Görüş zamanı əməkdaşlıq mexanizmlərinin qurulması və bu formatda görüşlərin davamlı keçirilməsi razılaşdırılıb. "AFB Bank"ın nümayəndələri tələbə və məzunlara təklif olunan təcrübə proqramları, mövcud karyera imkanları və vakant iş yerləri barədə məlumat veriblər.

Eyni zamanda gənclərin praktiki bacarıqlarının artırılması məqsədilə təlim və seminarların təşkili, müxtəlif inkişaf layihələrinin birgə həyata keçirilməsi imkanları da müzakirə olunub.

# BDU-da keyfiyyət təminatı ilə bağlı silsilə təlimlərə start verilib

***Sentyabrın 17-da BDU-da "Xarici keyfiyyət təminatı" mövzusunda təlim təşkil olunub. Təlim rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasovun rəhbərliyi ilə keçirilib.***



Qeyd olunub ki, BDU artıq magistratura səviyyəsində tədris olunan 14 proqramın beynəlxalq akkreditasiyasına start verib və bu təşəbbüs universitetin beynəlxalq səviyyədə rəqabət qabiliyyətini gücləndirməyə xidmət edir. Təlim çərçivəsində Qazaxıstan Respublikasının Təhsildə Keyfiyyətin Təminatı üzrə Müstəqil Agentliyinin (IQAA) beynəlxalq akkreditasiya meyarları geniş müzakirə olunub.

Təlimin əsas məqsədi ali təhsil müəssisələrində keyfiyyət təminatı sahəsində müasir çağırışların və beynəlxalq təcrübənin müzakirəsi, mövcud vəziyyətin təhlili və gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsidir. Müzakirələr zamanı ali təhsildə keyfiyyət təminatının yalnız tədris prosesinin səmərəliliyini ölçən mexanizm olmadığı, həm də təhsil müəssisələrinin strateji idarəçiliyi, akademik mühitin inkişafı və tələbəyönümlü yanaşmanın təmin olunması üçün əsas alət olduğu vurğulanıb.

Təlimdə qeyd olunub ki, davamlı inkişafı təmin edən keyfiyyət mexanizmləri təhsil proqramlarının mütəmadi qiymətləndirilməsi, tədris resurslarının optimallaşdırılması, tələbə nailiyyətlərinin monitorinqi, məzunların əmək bazarındakı uğurları və maraqlı tərəflərin prosesə aktiv cəlbi kimi göstəricilərə əsaslanır. Bu çərçivədə keyfiyyət təminatı tələbələrin məmnunluğunu, təhsil nəticələrinin səmərəliliyini və elmi potensialın inkişafını təşviq edən kompleks yanaşmadır.

Asiman İlyasov çıxışında ali təhsildə keyfiyyət təminatının həm milli, həm də qlobal səviyyədə artan əhəmiyyətini vurğulayaraq bildirib ki, bu mexanizmlərin tətbiqi universitetlərin rəqabət qabiliyyətini yüksəldir, onların beynəlxalq elmi-təhsil məkanında mövqeyini gücləndirir.

Təlimin yekununda bildirilib ki, BDU-da həyata keçirilən bu cür tədbirlər ali təhsil müəssisəsində keyfiyyət təminatının institusional səviyyədə daha da möhkəmləndirilməsinə, şəffaflıq və hesabatlılığın artırılmasına, həmçinin davamlı inkişaf və innovativ yanaşmaların tətbiqinə xidmət edir.

# Bakı Dövlət Universitetinin nümayəndəsi Türkiyənin Ege Universitetində görüşlər keçirib

***Sentyabrın 13-də BDU-nun rektorunun katibliyinin rəhbəri Mahir Pirquliyev Türkiyənin aparıcı ali təhsil ocaqlarından biri olan Ege Universitetində ezamiyyətdə olub. Səfər çərçivəsində BDU nümayəndəsi Ege Universitetinin rəhbər heyəti ilə bir sıra görüşlər keçirib, qarşılıqlı əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparıb.***

Ege Universitetinin prorektoru Mehmet Ersan, Təbiət elmləri fakültəsinin dekanı Dinçer Ayaz, həmçinin digər fakültə və idarə rəhbərləri ilə baş tutan görüşlərdə iki universitet arasında mövcud əlaqələrin gücləndirilməsi və yeni əməkdaşlıq istiqamətləri nəzərdən keçirilib.

Tərəflər ikili diplom proqramlarının yaradılması, birgə elmi layihələrin həyata keçirilməsi, tələbə və müəllim mübadiləsinin təşkili, həmçinin beynəlxalq konfrans və simpoziumların birgə keçirilməsi imkanlarını müzakirə ediblər. Eyni zamanda, müasir elm və texnologiyaların inkişafı fonunda ortaq layihələrin həyata keçirilməsi, xüsusilə təbiət elmləri və mühəndislik sahələrində birgə təşəbbüslərin reallaşdırılması məsələləri diqqət mərkəzində olub.

Görüşlər zamanı həmçinin Ege Universiteti ilə Bakı Dövlət Universiteti arasında uzunmüddətli strateji tərəfdaşlığın vacibliyi vurğulanıb və qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsi barədə razılıq əldə edilib.

Səfərin sonunda Mahir Pirquliyev Ege Universitetinin rəhbərliyinə səmimi qəbula görə təşəkkürünü bildirib, gələcəkdə iki universitet arasında əlaqələrin daha sıx şəkildə davam edəcəyinə inamını ifadə edib.

Qeyd edək ki, bu il 70 illik yubileyini qeyd edən Ege Universiteti Türkiyənin İzmir şəhərində yerləşən, ölkənin ən böyük və nüfuzlu ali təhsil müəssisələrindən biridir. Universitetin Təbiət elmləri fakültəsi isə regionda elmi araşdırmaların mərkəzi olmaqla yanaşı, beynəlxalq elmi əməkdaşlıqlara da xüsusi önəm verir.

# BDU "Sustainability Impact Network"ə qoşulub

***Bakı Dövlət Universiteti nüfuzlu beynəlxalq reytinq təşkilatı "Times Higher Education" (THE) tərəfindən təşkil olunan "Sustainability Impact Network"ə üzv olub. Bu, BDU-nun dayanıqlı inkişaf məqsədlərinə (DİM) uyğun fəaliyyətini gücləndirmək, beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirmək və qlobal akademik ictimaiyyətdə dayanıqlılıq sahəsində mövqeyini möhkəmləndirmək məqsədi daşıyır.***

BDU-nun adıçəkilən şəbəkəyə qoşulması Universitetə THE-nin ekspert dəstəyi ilə illik qiymətləndirmədə iştirak, qlobal göstəricilər əsasında müqayisə imkanı, mütəmadi vebinarlar və beynəlxalq tərəfdaşlarla təcrübə mübadiləsi, həmçinin aylıq bülleten vasitəsilə xəbər, analitik məqalə və əməkdaşlıq imkanlarına çıxış imkanı qazandırır.

BDU-nun "Sustainability Impact Network"ə qoşulması Universitetin beynəlxalq reytinqlərdə dayanıqlılıq göstəricilərini yaxşılaşdırmaqla yanaşı, həm də Azərbaycan ali təhsilinin qlobal dayanıqlılıq hərəkatında fəal iştirakını təmin edəcək.

# BDU məzunu: “Dövlət proqramları gənclərə təhsil və elmi fəaliyyət sahəsində böyük dəstək verir”

***Son illərdə həyata keçirilən dövlət proqramları gənclərin intellektual inkişafına və müasir bilik-bacarıqlar əldə etməsinə geniş imkanlar yaratmışdır.*** Xüsusilə “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı” çərçivəsində yaradılan xarici təhsil imkanları nəticəsində yüzlərlə gəncimiz dünyanın aparıcı universitetlərində təhsil alaraq peşəkar fəaliyyət yoluna qədəm qoyur. Bu təşəbbüslər yalnız fərdi inkişafı dəstəkləmir, həm də ölkəmizin beynəlxalq aləmdə tanıdılmasına, milli maraqlarımızın təbliğinə və Azərbaycan adının nüfuzlu elm və mədəniyyət ocaqlarında layiqincə təmsil olunmasına mühüm töhfə verir. Budəfəki müsahibimiz “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı”nın təqaüdçüsü adını qazanmış gənclərdən biri Natiq Xamedovdur. Söhbətimiz əsnasında sadəcə onun xaricdə təhsil yolundan danışmadıq, eyni zamanda, təhsilin insan həyatında rolunu, elm yolunda irəliləməyin sirlərini, qarşıya məqsəd qoymağın və əzmlə çalışmağın vacibliyini də müzakirə etdik.



***- Özünüzü oxucularımıza necə təqdim edərdiniz…***

-Xamedov Natiq Mehman oğlu, 12 avqust 2000-ci ildə köhnə Dəvəçi, indiki Şabran rayonunda anadan olmuşam. Orta təhsilimi doğulduğum rayonda, Şabran şəhər 3 saylı tam orta məktəbdə almışam. Bakalavr təhsilimi Kimya fakültəsində (2018–2022) davam etdirmişəm. Təhsil müddətində akademik göstəricilərim yüksək olduğuna görə dövlət imtahanından azad edilərək diplom işimi müdafiə etmişəm. Diplom işim “ZnYbSe? – Üçlü birləşmənin sintezi və bəzi fiziki-kimyəvi xassələrinin araşdırılması” mövzusuna həsr olunub. Bu iş çərçivəsində birləşməni sintez etmiş və araşdırmalar aparmışam. Nəticələrim bir tezis və bir elmi məqalə şəklində dərc olunub. Təhsilimi Azərbaycan Dövlət Neft və Sənaye Universitetində davam etdirərək, 2022–2024-cü illərdə Kimya Texnologiyası fakültəsində, “Kimya mühəndisliyi – Neft-kimya sintezinin texnologiyası” ixtisası üzrə magistr dərəcəsi almışam. Magistr dissertasiyam “Biokütlələrdən fermentativ üsulla müxtəlif spirtlərin alınması” mövzusuna həsr olunub və bu istiqamətdə bir neçə məqaləm dərc edilmişdir. Hazırda İstanbul Universitetində “Kimya” ixtisası üzrə doktorantura təhsilimi davam etdirirəm. Üzvi kimya kafedrasında apardığım tədqiqat işi “Xərçəng xəstəliklərinin müalicəsində istifadə oluna bilən xüsusi maddələr – Kalkon birləşmələrinin sintezi” mövzusuna əsaslanır. Eyni zamanda, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı”nın təqaüdçüsü olan 19 doktorantdan biri olmaq mənim üçün böyük qürurdur. Peşəkar təcrübəm də genişdir. Real Gaz LLC şirkətində “Qazların təhlili üzrə laborant-operator” və Azərsun Holdinqin “Bakı Qida və Yağ Fabriki”ndə “Proses və keyfiyyətə nəzarət inspektoru” vəzifələrində çalışmışam. Təhsilimi davam etdirmək məqsədilə işdən ayrılaraq xaricə getmişəm. Elm və təhsillə yanaşı, müxtəlif intellektual yarışlarda da nailiyyətlərim olmuşdur. 2018-ci ildə BDU-nun 100 illiyinə həsr olunmuş NHN kubokunun qalibi olmuş komandaya kapitanlıq etmişəm. 2019-cu ildə isə Azərbaycan İntellektual Oyunlar Klubu tərəfindən təşkil olunan 18–27 yaşlı gənclər arasında respublika birinciliyinə həsr olunmuş yarışın qalibi olan komandanın üzvü olmuşam. Universitetdə fakültədaxili və regional səviyyədə keçirilən “Breyn-rinq”, “Xəmsə” və “NHN” tipli oyunlarda dəfələrlə birincilik qazanmışam.

***- “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı”nın təqaüdçüsü olan 19 doktorantdan biri sizsiniz. Bu proqram haqqında ilk dəfə necə məlumat əldə etdiniz?***

-Mən bu proqramla ilk dəfə Dövlət Proqramının rəsmi “Instagram” səhifəsində rastlaşdım. Marağım artdıqdan sonra daha ətraflı öyrənmək üçün proqramın rəsmi saytına müraciət etdim. Orada əvvəlki qəbullar, seçim mərhələləri və iştirakçılar barədə kifayət qədər geniş məlumat təqdim olunmuşdu. Bu məlumatlar mənim üçün çox faydalı oldu və proqramın mahiyyətini daha dərindən anlamağa imkan verdi.

***- Proqramın seçici mərhələlərini keçmək üçün hansı hazırlıqları gördünüz və qalib olmaq necə hiss idi?***

- Proqrama müraciət ilkin olaraq iki hissədən ibarət idi: sənədlərin onlayn təqdim olunması və seçim mərhələsi. Mən ilkin olaraq tələb olunan bütün sənədləri topladım — diplomun notarial qaydada təsdiqi, transkript, qəbul məktubu, tövsiyə məktubları, dil biliklərini təsdiq edən sertifikat, CV və s. Xoşbəxtlikdən, bir çox sənədləri əvvəllər xaricdə təhsilə müraciət zamanı topladığım üçün onları yenidən hazırlamaq mənim üçün asan oldu. Daha sonra seçim mərhələsi başladı; bu mərhələdə təqdim olunan sənədlərin doğruluğu və uyğunluğu yoxlanılırdı. Seçim mərhələsini uğurla keçdikdən sonra mən müsahibəyə dəvət olundum. Daha əvvəl də bir neçə dəfə iş müsahibəsində iştirak etdiyim üçün bu mərhələ mənim üçün tanış idi və ona öncədən hazırlaşmışdım. Müsahibəni də uğurla başa vurduqdan bir neçə gün sonra “Portal.edu.az” saytından qəbul mesajı aldım. Qalib elan olunduğum zaman böyük sevinc hissi yaşadım. Qalib olacağıma çox inanırdım, çünki ortalamam 4 üzərindən 3.8, yəni 100 üzərindən 95 ortalamam var idi. Həmçinin bununla yanaşı şəxsi uğurlarım da çox idi. Amma yenə də bu uğur, yalnız şəxsi zəhmətimin nəticəsi deyil, həm də gənclərə göstərilən etimadın, onların potensialına inamın bariz nümunəsi idi.

***-Dövlət proqramının gənclər üçün yaratdığı imkan və fürsətləri necə dəyərləndirirsiniz?***

- Dövlət Proqramı gənclər üçün yalnız akademik imkanlar yaratmır, həm də onların gələcək karyeraları üçün geniş perspektivlər açır. Belə ki, Proqramın qalibi olmuş gənclərin xaricdə təhsil alarkən təhsil haqqını, ölkələrarası səyahət xərclərini, gündəlik yaşam xərclərini və sığorta xərclərini tam qarşılayır. Bu dəstək gənclərə yeni mədəniyyətləri kəşf etmək, fərdi bacarıqlarını inkişaf etdirmək və beynəlxalq təcrübə qazanmaq imkanı verir.

***- Dövlətin gənclər siyasətini necə qiymətləndirirsiniz? Dövlətin gənclərə daha hansı dəstəyi göstərməsini istərdiniz?***

-Məncə, dövlətin gənclər siyasəti kifayət qədər inkişaf edib və gənclərə təhsil, karyera və yaradıcılıq imkanları yaradır. Bunun bariz nümunəsi kimi mən son zamanlar Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə təşkil olunmuş yay festivalında (7–11 iyun, Şamaxı) və həmçinin Gənclər və İdman Nazirliyi ilə AMEA-nın birgə təşkil etdiyi “Gənc Alimlər və Mütəxəssislər Düşərgəsi”ndə (21–26 avqust, Qazax) iştirak etdim. Bu layihələr gənclərə həm biliklərini artırmaq, həm də yeni dostluqlar və təcrübələr qazanmaq imkanı verir. Eyni zamanda, mən istərdim ki, gənclərin startap layihələrinə, innovasiya və tədqiqat fəaliyyətlərinə daha çox dəstək göstərilsin, onların beynəlxalq layihələrdə iştirak imkanları artırılsın.

***- Gənclərin xaricdə təhsilə maraqlı olmasının müsbət və mənfi tərəfləri nələrdir? Ümumiyyətlə, siz bunu necə şərh edərdiniz?***

- Xaricdə təhsil gənclərə yeni biliklər, beynəlxalq təcrübə və fərqli mədəniyyətlərlə tanışlıq imkanı verir ki, bu da onların şəxsiyyət və karyera inkişafına müsbət təsir göstərir. Digər tərəfdən, uzun müddət ailədən uzaq qalmaq, yüksək xərclər və bəzi hallarda ölkəyə qayıtdıqdan sonra uyğun iş imkanlarının məhdudluğu kimi çətinliklər də mövcuddur. Ümumilikdə, düzgün planlaşdırıldıqda və dəstək mexanizmləri mövcud olduqda, xaricdə təhsil gənclər üçün böyük bir fürsətdir.

***- İstanbul Universitetində doktorantura təhsiliniz sizin akademik və şəxsi inkişafınıza necə təsir göstərir?***

- İstanbul Universitetinin Organik (Üzvi) Kimya bölümündə doktorantura təhsili mənim üçün həm akademik, həm də şəxsi inkişaf baxımından böyük imkanlar yaradır. Burada iştirak etdiyim layihələr və gördüyüm işlər biliklərimi dərinləşdirir, tədqiqat bacarıqlarımı artırır və elmi yanaşmamı gücləndirir. Eyni zamanda, fərqli mühitdə işləmək və həmkarlarla əməkdaşlıq etmək mənim ünsiyyət, adaptasiya və liderlik qabiliyyətlərimi də inkişaf etdirir.

***-Xaricdə təhsil almaq sizə hansı fərqli imkanlar yaratdı və hansı çətinlikləri aşdınız?***

-Xaricdə təhsil mənim üçün yeni elmi mühitlə tanış olmaq, müxtəlif laboratoriyalarda müasir avadanlıqlardan istifadə etmək və beynəlxalq təcrübə qazanmaq imkanı yaratdı. Bu, yalnız akademik biliklərimin deyil, həm də dünya görüşümün genişlənməsinə səbəb oldu. Eyni zamanda fərqli mədəniyyətlərdən olan insanlarla işləmək, komanda bacarıqlarımı gücləndirdi. Əlbəttə, ilk vaxtlar dil baryeri, yeni mühitə uyğunlaşma və ailədən uzaq qalmaq kimi çətinliklər oldu, amma bunları aşmaq həm məni daha dözümlü etdi, həm də özümə inamımı artırdı.

***- Təhsil müddətində şəxsi və akademik həyatı necə balanslaşdırırsınız?***

-Təhsil və şəxsi həyatı balanslaşdırmaq üçün adətən günümü öncədən planlayıram. Həftənin beş gününü əsasən tədqiqat və akademik işlərə ayırıram, qalan iki günü isə sosial fəaliyyətlər və şəxsi maraqlarımla məşğul oluram. Bu yanaşma mənə həm elmi məqsədlərimə fokuslanmağa, həm də şəxsi inkişafım və sosial həyatımı davam etdirməyə imkan verir.

***- Doktoranturadan sonra elmi fəaliyyət və karyera planlarınız nələrdir?***

-Doktorantura təhsilimi başa vurduqdan sonra elmi fəaliyyətimi davam etdirərək tədqiqat sahəsində innovativ layihələr həyata keçirməyi planlaşdırıram. Eyni zamanda universitet və tədqiqat institutlarında dərs deməklə gənc alimlərin yetişməsinə dəstək vermək, bilik və təcrübəmi paylaşmaq istəyirəm. Mən inanıram ki, elm paylaşdıqca artır və ölkəmizin elm sahəsinin daha da inkişaf etməsi üçün hər bir elmi fəaliyyətlə məşğul olan şəxs əlini daşın altına qoymalıdır.

**- Araşdırmalarınızın ölkəmizə və gənclərin inkişafına hansı töhfələri ola bilər?**

-Mən hazırda orqanik (üzvi) kimya sahəsində çalışıram və xərçəng xəstəliklərinin müalicəsində istifadə olunan dərmanların hazırlanmasında böyük əhəmiyyət daşıyan birləşmələrdən biri – Chalcone törəmələrinin sintezi ilə məşğulam. Bu istiqamətdə apardığım tədqiqatlar gələcəkdə həm tibbi kimya, həm də dərman sənayesi üçün yeni imkanlar aça bilər. Araşdırmalarım nəticəsində əldə olunacaq nəticələrin ölkəmizin səhiyyə sahəsində tətbiqi, eləcə də yerli alimlərin beynəlxalq elmi mühitdə daha çox tanınması üçün zəmin yaradacağına inanıram. Bununla yanaşı, gənclərə də bu yolda nümunə olmaq istəyirəm. Çünki elm yalnız laboratoriyada qapanıb qalmaq deyil, həm də gəncləri motivasiya etmək, onlara yeni biliklər ötürmək və araşdırma ruhunu aşılamaqdır. Mənim məqsədim təkcə öz elmi nailiyyətlərimlə kifayətlənmək yox, həm də gənclərə göstərməkdir ki, əzmlə çalışanda ölkəmizdə də beynəlxalq səviyyədə səs gətirəcək nəticələr əldə etmək mümkündür.

***- Sosial şəbəkələrdə gəncləri təhsil imkanları barədə məlumatlandırma daha effektiv necə ola bilər?***

-Günümüzdə buna bir çox misal göstərmək olar. Hal-hazırda bir çox müəllimlər “YouTube” platforması üzərindən çıxışlar edir və təhsillə bağlı müxtəlif məlumatları paylaşırlar.

*(ardı 17-ci səhifədə)*

(əvvəli 16-cı səhifədə)

Son zamanlar isə "Instagram" və "Facebook"da bu sahədə aktivlik artıb. Bu platformalar gənclərin məlumatı daha asan əldə etməsi və interaktiv şəkildə öyrənməsi üçün effektiv vasitə rolunu oynayır. Elə mən də Dövlət Proqramı haqqında məlumatı ilk dəfə sosial şəbəkələrdən almışdım ki, hal-hazırda bu proqramın qalibiyəm.

***- Dövlət proqramları və şəxsi nümunəniz gənclərə hansı motivasiya və mesajı verir?***

- Dövlət proqramları gənclərə həm təhsil, həm də elmi fəaliyyət sahəsində böyük dəstək verir. Mənim şəxsi nümunəm göstərir ki, gənclər cəsarətlə yeni imkanlara açıldıqda və əzmlə çalışdıqda böyük uğurlara nail ola bilərlər. Dövlət proqramları isə bu yolda onlara həm şərait yaradır, həm də lazımi dəstək və resursları təmin edir. Bu, gənclərə göstərir ki, uğur üçün sadəcə istək kifayət deyil – hazırlıq, təşəbbüskarlıq və məsuliyyət də vacibdir. Qısası, əgər gənc öz üzərində çalışırsa və dövlətin yaratdığı imkanlardan düzgün istifadə edirsə, o zaman qarşıya qoyduğu hədəflərə çatmaq tamamilə mümkündür.

***- Müntəzəm mütaliə və elmi fəaliyyətin gənclərin inkişafında rolu barədə fikriniz nədir?***

- Müntəzəm mütaliə və elmi fəaliyyət gənclərin intellektual və şəxsi inkişafı üçün əvəzolunmazdır. Kitablar və elmi tədqiqatlar analitik düşüncə, yaradıcılıq və problem həll etmə bacarıqlarını artırır. Mən kitab oxumağı çox sevirəm və öz kiçik, təxminən 150–200 kitablıq şəxsi kitabxanam var. Oxuduğum hər kitab mənə daha çox düşünməyi, yaradıcı olmağı və bilmədiyim mövzular haqqında fikir sahibi olmağı öyrədir. Eyni zamanda, qarşılaşdığım çətin problemləri həll etmək bacarığım da güclənir. Elmi fəaliyyət gənclərə yeni biliklər əldə etmək, təcrübələrini genişləndirmək və öz sahələrində uğurlu karyera qurmaq imkanı verir. Mən inanıram ki, davamlı öyrənmək və tədqiqatla məşğul olmaq hər bir gəncin şəxsiyyət və peşəkar inkişafına böyük töhfə verir.

***- Gənclərə həm təhsil, həm də fərdi inkişafda uğur qazana bilmələri üçün nə tövsiyə edərdiniz?***

- Mənim gənclərə əsas tövsiyəm odur ki, məqsədli və planlı olsunlar. Təhsillərini diqqətlə izləsinlər, müntəzəm olaraq mütaliə etsinlər və elmi fəaliyyətlə məşğul olsunlar. Eyni zamanda, universitet sadəcə dərs oxuyub imtahan verməkdən ibarət deyil; qarşılarına çıxacaq fürsətləri dəyərləndirsinlər, şəxsi keyfiyyətlərini yüksəltsinlər və sosial aktiv olmağa çalışsınlar. Praktiki bacarıqlarını inkişaf etdirsinlər, çünki universiteti bitirib iş həyatına atıldıqda onlara veriləın sual "nə bilirsən?" yox, "nə bacarırsan?" olacaq. Ən əsası, əzmkarlıq və davamlı öyrənmək prinsipini həyat tərzinə çevirsinlər: uğur yalnız biliklə deyil, həm də hazırlıq, iradə və təşəbbüslə gəlir.

***- Gələcəkdə akademik və elmi fəaliyyətinizi hansı istiqamətlərdə inkişaf etdirməyi planlaşdırırsınız?***

- Kimya üzrə fəlsəfə doktoru təhsilimi tamamladıqdan sonra qısa müddətdə elmi fəaliyyətlə məşğul olub dosent statusunu qazanmağa çalışacağam. Məqsədim həm öz bilik və təcrübəmi artırmaq, həm də ölkəmizin elmi potensialına töhfə verməkdir. Eyni zamanda gənc alimlərin yetişməsinə dəstək olmaq, onların elmi layihələrdə iştirakını təşviq etmək və biliklərimi paylaşmaq da prioritetlərimdəndir. Mən inanıram ki, davamlı tədqiqat və öyrənmə həm akademik, həm də peşəkar uğurlar üçün əsas açardır.

***Yaqut Ağaşahqızı,***
"İki sahil"

# Çin səfiri BDU-nun Elmi Kitabxanasına 28 kitab hədiyyə edib



***Sentyabrın 12-də Çin Xalq Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Lu Mey BDU-nun Elmi Kitabxanasına 19 adda 28 nüsxə kitab hədiyyə edib.***

Səfirliyin ikinci katibi Vang Ruinin vasitəçiliyi ilə təqdim olunan kitablar Çin tarixindən, fəlsəfəsindən, elmindən, siyasətindən, texnikasından, iqtisadiyyatından və mədəniyyətindən bəhs edir. Bu hədiyyələr Universitetin professor-müəllim heyəti və tələbələr üçün mühüm əhəmiyyət daşıyır, eləcə də elmi və mədəni araşdırmaların zənginləşdirilməsinə töhfə verir.

Hədiyyə olunan kitablar qədim Şərqin zəngin mədəni irsi və tarixini, müasir Çinin inkişaf ənənələrini əks etdirir. Kitablar vasitəsilə tələbələr və Universitet ictimaiyyəti Çin mədəniyyəti, iqtisadiyyatı, elmi nailiyyətləri və sosial-siyasi inkişafı barədə daha ətraflı məlumat əldə edə biləcəklər.

Bu təşəbbüs ölkələrarası mədəni və akademik əlaqələrin daha da genişlənməsinə və möhkəmlənməsinə xidmət edir.

# BDU-nun əcnəbi tələbəsi: "Azərbaycan mənim ikinci Vətənimdir"

***Jean-Lucien Fouf-Kagna Grebaye BDU-nun Mərkəzi Afrika Respublikasından olan əcnəbi tələbəsidir. O, "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" ilə Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin bakalavriat pilləsində təhsil alır, II kurs tələbəsidir. Jean-Lucien Azərbaycanda təhsil həyatı və gələcək planları ilə bağlı fikirlərini bizimlə bölüşüb.***

***- Azərbaycanda təhsil almaq qərarına necə gəldiniz?***

- Misirin Qahirə şəhərində təhsil alarkən Azərbaycanda oxuyan bir tələbə ilə tanış oldum. Onun vasitəsilə BDU və "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı barədə məlumat əldə etdim. Daha sonra Azərbaycanın Misirdəki səfirliyinə müraciət edib sənədlərimi təqdim etdim. Azərbaycanda təhsilin üstünlüklərindən biri də əlavə dil hazırlığına ehtiyac olmamasıdır – tələbələr birbaşa dərslərə qoşula bilirlər.

***- Nə üçün məhz BDU-nu seçdiniz?***

- BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsində "İnformasiya texnologiyaları" ixtisası üzrə təhsil alıram. BDU-da oxumağı proqramın çevikliyi və çoxdilli təhsil imkanlarına görə seçdim. Burada Azərbaycan, rus, ingilis dillərində təhsil almaq mümkündür. BDU regionda ilk ali təhsil ocağıdır və beynəlxalq reytinqdə ön sıradadır. Digər tərəfdən, Bakı xarici tələbələr üçün çox əlverişli şəhərdir. Burada özümü ölkəmdəki kimi rahat hiss edirəm.

***- Bu fakültədə təhsil almağın üstünlükləri nələrdir? Burada hansı bacarıq və bilikləri əldə etdiniz?***

- Biz güclü riyazi hazırlığı müasir kompüter elmləri ilə birləşdiririk. Beləliklə, yalnız nəzəriyyəni öyrənmirik, həm də onu praktikada necə tətbiq etməyi öyrənirik. Tədris proqramı sənayenin tələblərinə uyğun qurulub və gələcəkdə süni intellekt, kibertəhlükəsizlik və məlumat elmi kimi sahələr üzrə ixtisaslaşmaq imkanı yaradır. Birinci kursdan etibarən proqramlaşdırma üzrə möhkəm təməl qurmuşam. Müəllimlərimizin sayəsində kibertəhlükəsizlik sahəsində praktiki təcrübə də qazanmışam. Texniki bacarıqlardan əlavə, fakültə bizə ingilis dilində ünsiyyət bacarığını inkişaf etdirməyə kömək edir ki, bu da istənilən texnologiya sahəsində karyera üçün vacibdir. Biz həmçinin tənqidi düşünməyə, yaradıcı şəkildə problem həll etməyə və innovativ yanaşmalar ortaya qoymağa təşviq olunuruq – bu da bizi gələcəkdə liderlik vəzifələrinə hazırlaşdırır.

***- BDU-nun "Tələbə evi"ndə qalırsınız. Yataqxana həyatından razısınız?***

- BDU-nun yataqxanası təhlükəsiz və səliqəlidir. İşçilər bizimlə ailə üzvü kimi maraqlanır, gündəlik vəziyyətimizi yoxlayır, gəliş-gedişimizi izləyirlər. Bu, həm valideynlər, həm də tələbələr üçün böyük rahatlıq yaradır.

***- Azərbaycanın mədəniyyəti və yeməkləri ilə bağlı təəssüratlarınız necədir?***

- Azərbaycan çox təmiz və təhlükəsiz ölkədir. İnsanlar mehriban və qonaqpərvərdir. Yeməkləriniz də çox dadlıdır. Mənim ən sevdiyim yemək "üç bacı" dolmasıdır, çox dadlıdır.

***- Gələcək planlarınız nələrdir?***

- Artıq öz ölkəmdə Rəqəmsal və Kibertəhlükəsizlik üzrə Mərkəzi Afrika Akademiyası adlı bir təşkilat yaratmışam. Gələcəkdə kriptoqrafiya üzrə mütəxəssis kimi ölkəmə fayda vermək istəyirəm. Azərbaycanı da ikinci Vətənim hesab edirəm. Burada fəaliyyətimi davam etdirməyim də mümkündür.

*Hazırladı: Nərminə Əsədova*

# BDU tələbələri ETİHİ Respublika Komitəsinin təşkil etdiyi "Yay düşərgəsi 2025"də

***BDU-nun tələbələri 8-13 sentyabr tarixlərində Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı (ETİHİ) Respublika Komitəsinin təşkilatçılığı ilə Komitənin Xaçmaz rayonundakı "Təhsil" İstirahət Mərkəzində keçirilən "Yay düşərgəsi 2025"də iştirak ediblər.***



Düşərgənin bağlanış mərasimində çıxış edən BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Zöhrab Cavadzadə tələbələrin inkişafına yönələn belə təşəbbüslərin davamlı olacağını diqqətə çatdırıb. O, son illər BDU THİK tərəfindən həyata keçirilən tədbirlərdən söz açaraq, qurumun Universitetin sosial həyatında mühüm rol oynadığını bildirib.

Qeyd edək ki, ənənəyə çevrilən düşərgənin əsas məqsədi tələbələrin maarifləndirilməsi və səmərəli istirahətinə şərait yaratmaq olub. Həmçinin düşərgə ali məktəb tələbələri arasında əlaqələrin genişlənməsi üçün əlverişli şərait təqdim edib.

# Xalqımızın müstəqillik, dövlətçilik əzminin təntənəsi - Dövlət Suverenliyi Günü

***Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməyib. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.***




Müstəqillik və suverenlik yalnız hüquqi və siyasi kateqoriyalar deyil, həm də xalqın milli kimliyini, onun mədəni və tarixi varlığını təsdiqləyən dəyərlərdir. 2024-cü il 19 sentyabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsis edilmiş Dövlət Suverenliyi Günü müasir Azərbaycan tarixinin ən mühüm dönüş nöqtələrindən biridir. 20 sentyabr 2025-ci il tarixində isə ölkəmiz bu günü ilk dəfə rəsmi olaraq qeyd edir.

1991-ci ilin oktyabrında qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" ilə Azərbaycan rəsmi şəkildə Sovetlər İttifaqından ayrılaraq, öz müstəqil dövlət statusunu bərpa etsə də, təəssüf ki, mənfur qonşularımızın təcavüzü bizə suverenliyimizi tam bərpa etməyə imkan vermirdi. Bu ağrı və acılarla, çətinliklərlə dolu proses 30 ildən artıq davam etdi. Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpası istiqamətində tarixi iradənin ortaya qoyulması 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə yeni mərhələyə keçdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etdi. BMT qətnamələrinin 30 il ərzində həyata keçirilməyən müddəaları real güc və siyasi iradə ilə icra edildi. Bu zəfər 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilmiş cəmi 23 saatlıq lokal antiterror tədbirləri ilə tamamlandı. Azərbaycan Konstitusiyası və beynəlxalq hüquq çərçivəsində keçirilən bu tədbirlər nəticəsində Qarabağ bölgəsində suverenliyin tam bərpası həyata keçirildi. Separatçı qurumun ləğvi və dövlət hakimiyyətinin tam bərpası Azərbaycanın tarixində yeni dövrün başlanğıcını qoydu. 2023-cü il sentyabrın 20-də Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndidə üçrəngli bayrağımızı qaldırdı. Bu, Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunun, dövlət suverenliyinin tam bərpa olunduğunun sübutu idi.

Dövlət suverenliyimizin bərpası Azərbaycanın müstəqil dövlət olaraq gücünə güc qatdı və sonrakı uğurları üçün möhkəm təməl yaratdı. Bu il avqustun 8-də müstəqil dövlətimiz növbəti şanlı qələbəsinə - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in ABŞ Prezidentinin iştirakı ilə paraflanmasına nail oldu. Bu, ölkəmiz üçün regionda davamlı və dayanıqlı sülhün təmin olunması baxımından mühüm tarixi hadisədir. Sülh müqaviləsinin mətni paraflanmaqla siyasi və hərbi sabitliyin möhkəmləndirilməsi, sülh və əmin-amanlığın bərqərar edilməsi, eləcə də iqtisadi yüksəlişə nail olunması yolunda tarixi irəliləyiş əldə olundu. Mövcudluğu siyasi fəaliyyətsizliyin və region dövlətlərinin taleyinə biganəliyin rəmzinə çevrilmiş Minsk Qrupunun ləğvi üçün birgə müraciət edilməsi barədə razılıq əldə edildi və Minsk Qrupu tarixin arxivinə göndərildi. Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından imtina etməsi təsdiqləndi. Bununla yanaşı, ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişi təmin edəcək Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələ razılaşdırıldı. Regionda sülhün əldə edilməsi istiqamətində uzun müddət davam edən danışıqlar məhz möhtərəm Prezidentimizin qətiyyəti və şəxsi nüfuzu sayəsində, məqsədyönlü xarici siyasəti nəticəsində öz bəhrəsini verdi.

Dövlət Suverenliyi Gününün təsis edilməsi 1991-ci ildə müstəqilliyin bərpası ilə başlayan tarixi yolun məntiqi nəticəsi, ərazi bütövlüyü və dövlət suverenliyi uğrunda uzun illər aparılan mübarizənin zirvəsidir. Bu hadisə yalnız dövlətçilik tariximiz üçün deyil, həm də milli kimliyimizin möhkəmlənməsi baxımından böyük əhəmiyyət daşıyır. Dövlət Suverenliyi Günü xalqımızın keçdiyi çətin, lakin şərəfli mübarizə yolunu bir daha xatırladır və gələcək nəsillərə ötürür. Dövlət Suverenliyi Günü xalqımızın müstəqillik əzmini, dövlətimizin siyasi iradəsini və beynəlxalq arenada qazandığı mövqeyi bir daha vurğulayır.

Suverenlik Azərbaycan xalqının, dövlətinin milli sərvətidir. Bu sərvəti canı, qanı ilə qorumaq hər birimizin vətəndaşlıq borcudur. Bu yolda canını fəda edən şəhidlərimizin ruhu şad olsun.

Dövlət Suverenliyi Gününüz mübarək!

# Jurnalistika fakültəsinin I kurs tələbələri ilə görüş



***Sentyabrın 15-də Jurnalistika fakültəsinin rəhbərliyi və professor-müəllim heyəti fakültənin I kurs tələbələri ilə tanışlıq görüşü keçirib.***

Görüş zamanı tələbələrə fakültənin tədris prosesi, daxili qaydaları, yeni yaradılmış otaqlar barədə ətraflı məlumat verilib.

Müəllimlər tələbələrə gələcək təhsil həyatlarında uğurlar arzulayıb, onların suallarını cavablandırıblar. Bu cür görüşlərin tələbələrin adaptasiya prosesinə müsbət təsir göstərdiyini vurğulayıblar.

# BDU-da "Müstəqilliyin səsi, suverenliyin zəfəri" adlı dəyirmi masa

***Sentyabrın 19-da Geologiya fakültəsində Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə "Müstəqilliyin səsi, suverenliyin zəfəri" adlı dəyirmi masa keçirilib.***

Geologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Ələkbər Mirzəyev 20 Sentyabr – Dövlət Suverenliyi Gününün xalqımızın azadlıq arzularının rəmzi olduğunu deyib. O qeyd edib ki, müstəqillik uğrunda aparılan mübarizə Azərbaycan gənclərinin milli şüurunun formalaşmasında mühüm rol oynayıb və bu gün həmin dəyərlərin qorunması hər bir gəncin borcudur.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi Ələkbər Həsənov dövlət suverenliyinin milli dövlətçilik tariximizdə xüsusi yer tutduğunu bildirib. Azərbaycan xalqının tarixi yaddaşında müstəqillik ideyalarının daim yaşadığını və bu ideyaların Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni dövrdə daha da möhkəmləndiyini qeyd edib.

Geologiya fakültəsinin IV kurs tələbəsi Aysu Mehtiyeva qalib ölkə gənclərinin üzərinə düşən tarixi missiyadan danışıb. O, gənclərin suverenlik dəyərlərini qorumaq, onları gələcək nəsillərə ötürmək və müstəqilliyi daha da gücləndirmək öhdəliyinin önəmindən söz açıb.

Dəyirmi masa bədii hissə və Vətən müharibəsindən bəhs edən filmin nümayişi ilə başa çatıb.

# Geologiya fakültəsinin tələbələri BDU-nun Heydər Əliyev Muzeyini ziyarət ediblər



***Sentyabrın 30-da Geologiya fakültəsinin tələbələri Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Universitetin Heydər Əliyev Muzeyini ziyarət ediblər.***

Muzeyin mütəxəssisi Afət Seyidzadə 1997-ci ildə Ulu Öndər Heydər Əliyevin şəxsi razılığı ilə Universitetdə fəaliyyətə başlayan Muzey haqqında tələbələrə ətraflı məlumat verib. Bildirib ki, Heydər Əliyev Muzeyi Ümummilli Liderin zəngin irsinin təbliği və öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Tələbələrə həm tarixi sənədlər, həm də fotoşəkillər vasitəsilə Ulu Öndərin xalqımıza bəxş etdiyi tarixi irs barədə ətraflı məlumat çatdırılıb.

Ziyarət iştirakçılarda böyük maraq doğurub. Tələbələr belə tədbirlərin gənclərin milli-mənəvi dəyərlər, dövlətçilik ənənələri və tarixi irs barədə biliklərinin artmasına mühüm töhfə verdiyini vurğulayıblar.

## BDU tələbələri Almatıda ICESCO-nun Peyk Modeli Təlimi və Beynəlxalq Aerokosmos Simpoziumunda




***Sentyabrın 8-də BDU-nun tələbələri Qazaxıstanın Almatı şəhərində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) və Əl-Fərabi adına Qazax Milli Universiteti tərəfindən təşkil olunan Peyk Modeli Təlimi və Beynəlxalq Aerokosmos Simpoziumunda ("Model Satellite – CanSat Training Workshop & Aerospace Symposium") iştirak ediblər.***

Tədbirdə ölkəmizi təmsil edən BDU tələbələri "CanSat" model peykini layihələndirəcək və hazırlayacaqlar. Hazırlanacaq cihaz səmaya buraxıldıqdan sonra yerə düşənə qədər hava parametrlərini ölçmək, səmada çəkiliş aparmaq və bütün məlumatları real vaxt rejimində Yer İdarəetmə Stansiyasına (YİS) ötürmək imkanına malikdir.

Simpozium çərçivəsində iştirakçılara mütəxəssislər, ekspertlər və aerokosmik mühəndislər tərəfindən "CanSat"ların dizaynı, yığımı və sınaqdan keçirilməsi üzrə təlimlər təqdim ediləcək, eləcə də aerokosmik texnologiya sahəsində tədqiqat və inkişafı təşviq etmək məqsədilə agentliklərlə qarşılıqlı əməkdaşlıq imkanları yaradılacaq.

Tədbirdə aparılan müzakirə və təlimlər, xüsusilə Günəş fizikası, Günəş sistemi obyektlərinin tədqiqi, Günəş-Yer əlaqələrinin öyrənilməsi, kosmik hava monitorinqi, Yer müşahidəsi və kosmik məlumatların emalı sahələrində tədqiqat fəaliyyətləri üçün əhəmiyyətlidir.

Simpozium və təlimlər 11 sentyabr tarixində yekunlaşıb.

## BDU beynəlxalq "workshop"da beynəlmiləlləşmə və dayanıqlı inkişaf təcrübəsini təqdim edib

***Sentyabrın 11-də BDU Türkiyənin Atatürk Universitetinin təşkilatçılığı ilə keçirilən "Beynəlxalq əməkdaşlıq, qloballaşma və dayanıqlı inkişaf" ("International Cooperation, Globalisation and Sustainable Development") adlı beynəlxalq "workshop"da təmsil olunub. Tədbirdə BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov iştirak edib.***

Asiman İlyasov çıxışında BDU-nun beynəlmiləlləşmə strategiyası, rəqabət qabiliyyətliliyinin artırılması, dayanıqlı inkişaf istiqamətində həyata keçirilən tədbirlər və əldə olunan nəticələr barədə ətraflı məlumat verib, universitetin bu sahədəki uğurlu təcrübəsini iştirakçılarla bölüşüb. O, beynəlxalq əməkdaşlığın təhsil, elmi-tədqiqat və sosial məsuliyyət sahələrində dayanıqlı inkişafın təmin olunmasında mühüm rol oynadığını xüsusi vurğulayıb.

Tədbirdə Azərbaycan, Mərakeş, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Malayziya və Türkiyənin nüfuzlu ali təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər. BDU ilə yanaşı, Azərbaycan Memarlıq və İnşaat Universiteti (Azərbaycan), Qara Dəniz Texniki Universiteti (Türkiyə), Hitit Universiteti (Türkiyə), Van Yüzüncü Yıl Universiteti (Türkiyə), Şarja Universiteti (BƏƏ), Delta Elm və Texnologiya Universiteti (Misir), İbn Tofeyl Universiteti (Mərakeş) və Asiya-Sakit Okean Texnologiya və İnnovasiya Universiteti (Malayziya) tədbirdə təmsil olunublar.

İştirakçılar ali təhsil müəssisələri arasında beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi, qlobal miqyasda qarşılıqlı təcrübə mübadiləsinin aparılması və dayanıqlı inkişaf hədəflərinə töhfə verəcək yeni təşəbbüslərin həyata keçirilməsi istiqamətində müzakirələr aparıblar.

## BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin müəllimi Təhsildə inkişaf və innovasiyalar üzrə IX qrant müsabiqəsinin qalibidir

***Sentyabrın 16-da BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin müəllimi Arzu Orucova Elm və Təhsil Nazirliyinin Təhsildə inkişaf və innovasiyalar üzrə IX qrant müsabiqəsinin qalibi olub.***

"Talk2AI: QuillBot Chat ilə ingilis dilində danış!" layihəsi ilə qalib olan Arzu Orucovanın əsas məqsədi süni intellekt alətləri vasitəsilə uşaqların ingilis dili bacarıqlarının artırılması və tədrisdə innovativ yanaşmanın tətbiqidir.

Qeyd edək ki, müsabiqəyə ümumilikdə 1552 layihə təqdim edilib. Müsabiqəyə təqdim edilən layihələr əvvəlcə texniki ekspertizadan keçirilib, nəticədə 1516 layihə "Məzmun ekspertizası" mərhələsinə buraxılıb. Bu mərhələdə ən yüksək bal toplayan 220 layihə qrant qazanıb. Həmin layihələrin 6-sı ümumi təhsil müəssisələrinin, 214-ü isə təhsilverənlərin fərdi layihələridir.

## BDU könüllüləri "Xəzəri Qoruyaq 2025" Beynəlxalq Sahilyanı Təmizlik Aksiyasında

***Sentyabrın 24-də "BDU könüllüləri" təşkilatının üzvləri ABŞ təhsilli Azərbaycan Məzunları İctimai Birliyi tərəfindən ənənəvi olaraq keçirilən "Xəzəri Qoruyaq" Beynəlxalq Sahilyanı Təmizlik Aksiyasında iştirak ediblər.***

Qeyd edək ki, son 30 il müddətində dünyanın 100-dən çox ölkəsində qeyd olunan Beynəlxalq Sahilyanı Təmizlik Günü Yer kürəsində su hövzələri sahillərinin tullantılardan təmizlənməsinə yönələn ən irimiqyaslı könüllü hərəkatıdır. Artıq 15 ildən çoxdur ki, Azərbaycan beynəlxalq "Xəzəri qoruyaq" ekoloji aksiyasında fəal iştirak edir və ildən-ilə aksiyanın miqyası genişlənir.

## BDU-nun həmtəşkilatçılığı ilə ilin ikinci Ay tutulması müşahidə edilib

***Sentyabrın 7-də 2025-ci ilin ikinci Ay tutulmasının canlı müşahidəsi həyata keçirilib.*** Bu mühüm elmi-maarifləndirici tədbir Bakı Dövlət Universitetinin (BDU) təşkilati dəstəyi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə icra olunan "Azərbaycanda astronomiya təhsilinin təşviqi" layihəsi çərçivəsində "Həvəskar Astronomlar Cəmiyyəti" İctimai Birliyi, "Park Bulvar" AVM, Tusi-Bohm Planetariumu və Şamaxı Astrofizika Rəsədxanasının birgə tərəfdaşlığı ilə keçirilib.

Tədbir zamanı xüsusi quraşdırılmış teleskoplar vasitəsilə Ay tutulmasının müxtəlif mərhələləri ictimaiyyətə nümayiş etdirilib, iştirakçılar real vaxt rejimində bu nadir astronomik hadisəni izləmək imkanı qazanıb. Müşahidələrə paralel olaraq, BDU-nun Astrofizika kafedrasının alimləri Ay tutulmasının səbəbləri, gedişatı və astronomik əhəmiyyəti barədə ətraflı elmi izahlar verib, medianın və iştirakçıların suallarını cavablandırıblar.

Müşahidə gecəsi həm elmi ictimaiyyət, həm də gənc nəsil arasında kosmik elmlərə marağın artırılması baxımından mühüm əhəmiyyət kəsb edib. Tədbir, eyni zamanda, Azərbaycanda astronomiyanın populyarlaşdırılması, cəmiyyətin fundamental elmlərə marağının genişləndirilməsi və gənclərin gələcəkdə bu sahədə təhsil almağa təşviq edilməsi məqsədlərinə xidmət edib.

## BDU tələbələri ICESCO-nun Peyk Modeli Təlimi və Beynəlxalq Aerokosmos Simpoziumunun sertifikat və nişanına layiq görülüblər

***Sentyabrın 11-də BDU-nun tələbələri 6-11 sentyabr tarixlərində Qazaxıstanın Almatı şəhərində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) və Əl-Fərabi adına Qazax Milli Universiteti tərəfindən təşkil olunan Peyk Modeli Təlimi və Beynəlxalq Aerokosmos Simpoziumunda ("Model Satellite – CanSat Training Workshop & Aerospace Symposium") uğurla iştirak ediblər.***

Tədbirdə ölkəmizi təmsil edən BDU tələbələri "CanSat" model peykini layihələndirərək hazırlayıblar. Dronla havaya qaldırılaraq yüksək məsafədən buraxılan "CanSat" havada olduğu müddətdə temperatur, təzyiq, yüksəklik kimi parametrləri ölçüb, səmada çəkiliş aparıb və onları qurğunun yaddaşına qeyd etməklə bütün məlumatları real vaxt rejimində Yer İdarəetmə Stansiyasına (YİS) ötürüb. Sonra BDU tələbələri havada toplanan məlumatlar əsasında data analizlər və qrafiklər hazırlayaraq təqdimatla çıxış ediblər.

Sonda BDU tələbələri tədbirdə uğurlu iştiraka görə sertifikat və nişanla təltif olunublar.

## BDU-da ixtisas fənni üzrə doktoranturaya qəbul imtahanları keçirilib

***Bakı Dövlət Universitetinin doktoranturasına qəbul üzrə ixtisas fənnindən qəbul imtahanları keçirilib.***

İmtahanlarda BDU-nun doktoranturasına qəbul olmaq üçün müraciət etmiş və "Fəlsəfə" fənnindən müvəffəq nəticə əldə etmiş 150 iddiaçı iştirak edib.

# BDU-da tədbir: "Uğur yolu - məzun təcrübəsi"

*Sentyabrın 18-də Biologiya fakültəsində "Uğur yolu - məzun təcrübəsi" adlı tədbir təşkil olunub.*



Fakültə dekanı Afət Məmmədova məzunların uğurlarından bəhs edib, onların həm ölkə daxilində, həm də xaricdə nüfuzlu universitetlərdə təhsillərini davam etdirərək elmi fəaliyyətlə məşğul olmalarının qürurverici olduğunu bildirib. O, BDU-da tələbələrin inkişafı, karyera quruculuğu üçün həyata keçirilən tədbirlər barədə məlumat verib, I kurs tələbələrini bu layihələrdən yararlanmağa çağırıb.

Tədbirdə fakültənin "Biologiya" ixtisası üzrə məzunu, hazırda Türkiyənin Eskişehir Osmanqazi Universitetində "Tibbi genetika" ixtisasında magistratura təhsili alan Şövkət Əliverdibəyli öz uğur hekayəsini bölüşüb. Tələbələrə hədəflərinə çatmaqda əzmkarlığın, araşdırma bacarığının və beynəlxalq imkanlardan düzgün istifadə etməyin önəmindən danışıb.

O, neyrodegenerativ xəstəliklərin genetik əsasları və farmakogenetika sahəsində apardığı elmi işlərdən, dissertasiya mövzusundan və qazandığı beynəlxalq təqaüdlərdən söz açıb. Şövkət Əliverdibəyli tələbələrə biliklərini inkişaf etdirmək, elmi fəaliyyətlərdə fəal iştirak etmək və qarşıya qoyduqları məqsədlərə inanmağı tövsiyə edib.

Görüş interaktiv şəkildə davam edib, tələbələrin sualları cavablandırılıb.

# Fizika fakültəsinin I kurs tələbələri ilə görüş

*Fizika fakültəsinin I kurs tələbələri ilə görüş keçirilib.*

Əvvəlcə Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Fizika fakültəsinin tarixi, tanınmış məzunları, burada tədrisin təşkili, elmi fəaliyyət haqqında videoçarx nümayiş olunub.

Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayev, Nəzəri fizika kafedrasının müdiri Məmməd Rəcəbov I kurs tələbələrini təbrik edib, BDU-nun tələbəsi adını qazanmağın qürurverici hadisə olduğunu qeyd ediblər. Fakültənin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Məhəmməd Məhərrəmov tələbələri Universitetin daxili nizam-intizam qaydaları ilə tanış edib, həmin qaydalara riayət etməyin zəruriliyini diqqətə çatdırıb. O, fakültədə fəaliyyət göstərən tələbə təşkilatları barədə məlumat verib, tələbələri həmin təşkilatların işində, həmçinin İdman-Sağlamlıq və Mədəniyyət-Yaradıcılıq mərkəzlərinin bölmələrində fəal iştirak etməyə dəvət edib.

Sonra BDU üzrə keçirilmiş "İlin gənc alimi" müsabiqəsinin qalibi, Fizika fakültəsinin məzunu, Nanomateriallların kimyəvi fizikası kafedrasının əməkdaşı Lalə Qəhrəmanlı təhsildə və elmdə uğur qazanmağın yolları barədə danışıb, tələbələrə tövsiyələrini çatdırıb. Fizika üzrə 2025-ci il Respublika Olimpiadasının qalibi, fakültənin IV kurs tələbəsi İsrafil Yusublu, qəbul imtahanlarında ən yüksək bal toplamış Səbuhi Qurbanov çıxışlarında Fizika fakültəsinin tələbəsi adını qazanmaqdan qürur duyduqlarını bildiriblər.

Tədbirin sonunda sözləri Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayevə, musiqisi Tarix fakültəsinin kafedra müdiri İqbal Ağayevə aid olan, xalq artisti Gülyanaq Məmmədovanın ifa etdiyi BDU-nun 105 illiyinə həsr olunmuş "Yaxşı ki varsan, universitetim!" adlı mahnı təqdim olunub.

# "Elsevier" BDU-nun gənc tədqiqatçıları üçün məlumat sessiyası təşkil edib

*Sentyabrın 26-da BDU-da beynəlxalq nüfuza malik "Elsevier" nəşriyyat şirkətinin müştəri məmnuniyyəti üzrə meneceri Saide Sakın iştirakı ilə ""Scopus"da indekslənmə prosesi" mövzusunda məlumat sessiyası keçirilib.*

Tədbirin məqsədi tədqiqatçıların beynəlxalq elmi nəşrlərdə uğurlu çıxış etməsi, elmi nəticələrinin və akademik fəaliyyətlərinin qlobal səviyyədə tanıdılmasının artırılması ilə bağlı bacarıqların inkişaf etdirilməsi olub.

Sessiyada iştirakçılara "Scopus" elmi bazasının funksiyaları, jurnalların indekslənmə meyarları, məqalələrin beynəlxalq standartlara uyğun şəkildə hazırlanması və dərc prosesinin mərhələləri barədə geniş məlumat təqdim edilib. Bununla yanaşı, effektiv axtarış metodları, düzgün mövzu seçimi, müəllif və təşkilat profillərinin optimallaşdırılması, elmi göstəricilərin izlənməsi və yüksək impakt faktorlu jurnalların müəyyənləşdirilməsi məsələləri müzakirə edilib.

Sessiyanın sonunda professor-müəllim heyətinin və gənc tədqiqatçıların sualları cavablandırılıb.

# BDU-nun Psixoloji yardım sektoru I kurs tələbələri ilə görüş keçirib

*Sentyabrın 29-da BDU-nun Psixoloji yardım sektoru (PYS) I kurs tələbələri ilə görüş təşkil edib.*

Tələbələrin psixoloji rifahını gücləndirmək və onların fərdi inkişafına dəstək vermək məqsədilə keçirilən tədbirdə bütün fakültələr üzrə yeni qəbul olunmuş tələbələr iştirak ediblər.

Görüş zamanı PYS-in fəaliyyəti, göstərilən xidmətlər, həyata keçirilən təlim və layihələr barədə ətraflı məlumat verilib. Tələbələrə bu xidmətlərdən necə yararlana biləcəkləri və müxtəlif layihələrdə iştirak imkanları izah olunub.

Qeyd olunub ki, sektorun əsas məqsədi tələbələrə psixoloji dəstək göstərmək, məxfi və etibarlı mühit təmin etmək, eləcə də onların akademik və şəxsi həyatlarında üzləşdikləri çətinliklərin öhdəsindən gəlmələrinə yardım etməkdir. Həmçinin vurğulanıb ki, ehtiyac yarandığı halda tələbələr fərdi konsultasiya üçün də PYS-ə müraciət edə bilərlər.

Sonda tələbələrə sektorun fəaliyyəti ilə bağlı flayerlər paylanılıb.

# Biologiya fakültəsinin I kurs tələbələri ilə görüş

*Sentyabrın 15-də Biologiya fakültəsində I kurs tələbələri ilə görüş keçirilib.*

Fakültənin dekanı, professor Afət Məmmədova qeyd edib ki, yeni tədris ilində təhsil prosesinin müasir, tətbiqyönlü və tələbəmərkəzli metodlarla daha da zənginləşdirilməsi əsas prioritetlərdəndir.

O, tələbələrin biliklərinin praktik tətbiq müstəvisində möhkəmlənəcəyini vurğulayıb, fakültədə aparılan elmi-tədqiqat işlərinin, beynəlxalq əməkdaşlıqların və tələbələr üçün nəzərdə tutulan layihələrin imkanlarından danışıb. Tələbələri bu resurslardan fəal şəkildə yararlanmağa dəvət edib.

Dekan çıxışında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsinin xüsusi əhəmiyyət daşıdığını xatırladaraq, bu istiqamətdə fakültədə müxtəlif elmi-praktik tədbirlərin, seminar və layihələrin həyata keçiriləcəyini bildirib. O, tələbələrin yalnız nəzəri biliklərlə kifayətlənməyərək, həm də vətəndaşlıq mövqeyi, sosial məsuliyyət və milli dəyərlərə bağlılıq kimi keyfiyyətlərə sahib olmalarının vacibliyini qeyd edib.

Sonra Biologiya fakültəsinin tarixi, elmi nailiyyətləri və müasir inkişaf prioritetlərini əks etdirən tanıtım videosu təqdim olunub.

Daha sonra kafedra müdirləri ixtisaslar üzrə tədris planlarının strukturu, fənlərin praktik komponentləri, laboratoriyalardan istifadə qaydaları, qiymətləndirmə meyarları və akademik dürüstlük prinsipləri haqqında danışıb, elmi-tələbə dərnəkləri, istehsalat və sahə təcrübələri, mentorluq sistemi, karyera və mübadilə imkanları, eləcə də dekanlıqla operativ əlaqə kanalları barədə məlumat veriblər.

Qeyd edilib ki, bu il fakültəyə ümumilikdə 309 tələbə qəbul olunub. Onlardan 4-ü 600-dən yuxarı, 129 nəfər 500–599 aralığında bal toplayıb.

# BDU-da "Karyera yolu" layihəsi uğurla yekunlaşıb

***Sentyabrın 26-da BDU-nun Karyera və məzunlarla iş Mərkəzi tərəfindən həyata keçirilən "Karyera yolu" layihəsi uğurla yekunlaşıb. Layihə müasir əmək bazarının tələblərinə cavab verən, karyerasını məqsədyönlü şəkildə planlaşdırmağı bacaran, analitik və çevik düşüncə tərzinə malik gənc mütəxəssislərin formalaşdırılmasına yönəlib.***

Layihə çərçivəsində Ekologiya və torpaqşünaslıq, Filologiya, Coğrafiya, Tarix, İnformasiya və sənəd menecmenti, Şərqşünaslıq fakültələrinin I və III kurs tələbələri arasından müsahibə yolu ilə 33 tələbə seçilib. Seçim zamanı tələbələrin motivasiyası, özünüinkişafa marağı və potensialı əsas meyar kimi nəzərə alınıb.

Proqram çərçivəsində "Karyera planlaması", "Əmək bazarının araşdırılması", "SMART məqsədlərin təyini", "CV və rezüme hazırlığı" mövzularında təlim və infosessiyalar keçirilib. İştirakçılara fərdi mentorluq dəstəyi göstərilib, real əmək bazarı üçün sınaq tapşırıqları təqdim olunub və SMART yanaşma əsasında karyera planlaşdırılması həyata keçirilib.

Layihə müddətində tələbələr öz güclü və inkişaf etdirilməsi lazım olan tərəflərinin analizi, əmək bazarının dinamikası barədə analitik düşüncə formalaşdırılması, rəqəmsal və ənənəvi iş axtarışı metodları ilə tanışlıq, müsahibəyə hazırlıq və işə qəbul proseslərinin simulyasiyası imkanları əldə ediblər.

Layihənin yekununda 22 tələbə uğurlu nəticələrinə görə sertifikata layiq görülüb.

# BDU-da Üzeyir Hacıbəylinin 140 illik yubileyi və Milli Musiqi Günü qeyd olunub

***Sentyabrın 18-də BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzi Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin anadan olmasının 140 illik yubileyi və 18 sentyabr - Milli Musiqi Günü münasibətilə ədəbi-bədii kompozisiya hazırlayıb.***



Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin 1995-ci ildə - dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində imzaladığı Fərmanla hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi ilə əlaqədar Sərəncam imzalayıb. Azərbaycan musiqisinin inkişafında əvəzsiz rol oynayan Üzeyir Hacıbəylinin yubileyi ilə əlaqədar bu il ölkəmizdə təntənəli mərasimlər keçirilir.

Kompozisiyada dahi bəstəkarın mahnılarından ibarət kompozisiyalar, "Sənsiz" romansı, "Simayi-şəms" zərb muğamı, "Koroğlu" uvertürası və bəstəkar mahnılarından ibarət popuri təqdim olunub.

# Jurnalistika fakültəsində Üzeyir Hacıbəylinin 140 illiyinə həsr olunmuş tədbir

***Sentyabrın 18-də Jurnalistika fakültəsinin "Milli mətbuat tarixi" auditoriyasında görkəmli Azərbaycan bəstəkarı, publisist və ictimai xadim Üzeyir Hacıbəylinin 140 illiyinə həsr olunmuş tədbir keçirilib.***



Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev Üzeyir Hacıbəylinin Azərbaycan mədəniyyətindəki əvəzsiz rolundan söz açıb. O, bəstəkarın həm milli musiqimizin inkişafında, həm də publisistika və ictimai fikirdə qoyduğu izlərin bu gün də aktuallığını qoruduğunu deyib.

Jurnalistika fakültəsinin dekanı, dosent Vüqar Əliyev Üzeyir Hacıbəylinin milli mətbuatla bağlı fəaliyyətindən bəhs edib. O bildirib ki, Üzeyir Hacıbəylinin publisistik yazıları təkcə dövrünün deyil, indiki jurnalistika mühitinin də mənəvi-estetik dəyərlərlə zənginləşdirilməsində mühüm rol oynayıb.

Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli isə çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında Sərəncamı"na toxunub və bunu dahi bəstəkarın fəaliyyətinə verilən böyük qiymət kimi dəyərləndirib.

Kafedranın dosenti Aygün Əzimova isə tələbələrin Üzeyir Hacıbəylinin irsinə marağından və onun əsərlərinin gənclərin yaradıcılıq düşüncəsinin inkişafında oynadığı roldan bəhs edib. O vurğulayıb ki, bu cür tədbirlər tələbələrin tarixi şəxsiyyətləri daha dərindən öyrənməsinə və milli dəyərlərə bağlılıq hissinin möhkəmlənməsinə şərait yaradır.

Tədbirin sonunda Üzeyir Hacıbəylinin zəngin irsi və onun Azərbaycan mədəniyyətində müasir yaradıcılıq meyllərinə verdiyi töhfələr barəsində geniş fikir mübadiləsi aparılıb.

# BDU-da Corc Vaşinqton Universitetinin professorunun iştirakı ilə elmi seminar keçirilib

***Sentyabrın 23-də Bakı Dövlət Universitetində ADA Universitetinin təşəbbüsü ilə Corc Vaşinqton Universitetinin professoru, yüksək performanslı hesablama sahəsində tanınmış mütəxəssis Tarek El Ghazawinin iştirakı ilə "Hesablama texnologiyaları və mühəndisliyin gələcəyi: yüksək məhsuldarlıqla hesablamadan süni intellektə" adlı elmi seminar keçirilib.***




BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzinin Əqli mülkiyyətin qorunması şöbəsinin müdiri Əfsanə Surxaylı tədbirin əhəmiyyətindən danışıb.

Corc Vaşinqton Universitetinin Elektrik və kompüter mühəndisliyi fakültəsinin dekanı, professor Tarek El Ghazawi çıxışında hesablama texnologiyalarının və mühəndisliyin gələcəyinə dair fikirlərini bölüşüb. O, yüksək məhsuldarlıqla hesablama (HPC) sistemlərindən süni intellektə (AI) keçidin perspektivləri barədə tələbələrə geniş məlumat verib.

Daha sonra ADA Universitetinin qəbul üzrə məsləhətçisi Günel Muxtarova çıxış edərək, ADA Universiteti və Corc Vaşinqton Universiteti arasında təklif olunan ikili diplom proqramları haqqında təqdimat edib. O, elektrik mühəndisliyi və energetika, kompüter elmləri və verilənlərin təhlili, kompüter mühəndisliyi və yüksək məhsuldarlıqla hesablama sistemləri üzrə proqramların Azərbaycanın Dövlət Proqramı çərçivəsində tam maliyyələşdirildiyini və tələbələr üçün geniş imkanlar yaratdığını qeyd edib. Tədbir tələbələrin sual-cavab sessiyası ilə yekunlaşıb.

# 14 əcnəbi tələbə "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində BDU-da təhsil alacaq

***Sentyabrın 22-də Azərbaycan Respublikası Prezidentinin 8 iyul 2023-cü il tarixli Sərəncamına uyğun olaraq Xarici İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyi tərəfindən birgə icra edilən "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının 2025-2026-cı tədris ili üzrə namizədlərin seçimi prosesi başa çatıb. Proqrama müraciət etmiş 64 ölkədən yüzlərlə namizəd sırasından 51 ölkə üzrə 100 nəfər təhsil qrantına layiq görülüb.***

Qeyd edək ki, bu proqrama əsasən, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv ölkələr, İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələr və xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələrin vətəndaşlarının 5 il ərzində Azərbaycan Respublikasının ali təhsil müəssisələrində müxtəlif təhsil səviyyələri üzrə təhsil almaları nəzərdə tutulub.

Sözügedən proqramın şərtlərinə əsasən, illik əsasda 100, ümumilikdə 500 nəfər xarici ölkə vətəndaşları üçün təhsil qrantının ayrılması nəzərdə tutulur.

# BDU və "Premium Bank"ın nümayəndələri onlayn əməkdaşlıq görüşü keçirib

***Sentyabrın 22-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları ilə "Premium Bank"ın nümayəndəsi arasında onlayn formatda əməkdaşlıq görüşü keçirilib. Görüşdə Mərkəzin Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova, baş mütəxəssis İlkin Şərifov, "Premium Bank"ın İnsan resursları üzrə mütəxəssisi Nəzrin Nazirli-İsmayılzadə iştirak ediblər.***

Görüşün məqsədi Universitetlə "Premium Bank" arasında qarşılıqlı əməkdaşlıq imkanlarını, bankda mövcud olan təcrübə və işə qəbul proqramlarını müzakirə etmək olub.

Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları tələbə və məzunların karyeralarına dəstək göstərilməsi, onların bilik və bacarıqlarının real əmək bazarının tələblərinə uyğunlaşdırılması, BDU ilə ölkəmizin aparıcı bankları arasında səmərəli əməkdaşlığın qurulması istiqamətində təşəbbüslər barədə məlumat veriblər.

Görüş zamanı "Premium Bank"ın nümayəndəsi gənc mütəxəssislərin inkişaf proqramları, işə qəbul prosesləri, real iş təcrübəsi haqqında geniş təqdimat edib, Universitetlə bank arasında əməkdaşlığın inkişaf etdirilməsi barədə təkliflərini səsləndiriblər.

# BDU-ya 600-dən yuxarı balla qəbul olunanların 55 nəfəri təhsil ixtisaslarını seçib

***2025/2026-cı tədris ili üzrə Bakı Dövlət Universitetinə 600-dən yuxarı balla qəbul olunanların 55-i, 500-dən yuxarı bal toplayanların isə 348 nəfəri təhsil ixtisaslarını seçib.***

Qeyd edək ki, son illər yüksək bal ilə BDU-ya qəbul olunanlar arasında təhsil ixtisaslarına tələbat artıb.

# Milli qürur günümüz

***27 sentyabr qalib Azərbaycanımızın tarixinin ən şanlı, qürurverici səhifəsinin yazılmağa başladığı gündür - Vətən müharibəsinin başlanmasından beş il ötür.***

2020-ci il 27 sentyabr tarixində səhər saatlarında Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmağa başladı. Buna cavab olaraq, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusu bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı ilə döyüşə atıldı.

İkinci Qarabağ müharibəsi əhali arasında Vətən müharibəsi və "Dəmir Yumruq əməliyyatı" kimi qəbul edilərək, Azərbaycan tarixinə ən parlaq səhifə kimi yazıldı. 44 gün davam edən müharibə zamanı Azərbaycan xalqı dünya tarixində misli görünməmiş, sözün əsl mənasında, qeyri-adi birlik və fədakarlıq göstərərək ölkə başçısının ətrafında sıx birləşdi. Azərbaycan əsgəri yüksək rəşadət nümayiş etdirib, dünya hərb tarixində yeni nailiyyətlərə imza atdı. Məhz peşəkarlığı Azərbaycan ordusunun az itki ilə qısa müddətdə parlaq qələbə qazanmasına şərait yaratdı.

30 ildir qisas hissi ilə yaşayan, hər an son döyüş əmrini gözləyən rəşadətli Ordumuz Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə əzmlə döyüşə atıldı. Ölkə rəhbərinin müdrik və qətiyyətli qərarları sayəsində əks-hücum əməliyyatlarına başlayan şanlı ordumuz qısa müddət ərzində ildırım sürətli əks-hücum planı ilə uzun illərdir işğal altında olan tarixi torpaqlarımızı bir-birinin ardınca azad etdi, əzəli yurd yerlərimizdə Azərbaycan bayrağı yenidən və əbədi dalğalanmağa başladı. Taleyüklü Vətən müharibəsi günlərində qədirbilən xalqımızın hər zaman olduğu kimi, Prezident İlham Əliyevin ətrafında yumruq kimi sıx birləşməsi Zəfərə gedən yolumuzun uzaqda olmadığının müjdəsini verirdi. Noyabr ayının 8-də Qarabağın ürəyi Şuşanın azad edilməsi ilə düşmən sarsıdıcı zərbə aldı. Cəmi bircə gün sonra 72 yaşayış məntəqəsi və 8 strateji yüksəkliyin azad olunması isə düşmənin yerlə-yeksan edilməsi ilə nəticələndi. 10 noyabrda xain düşmənin kapitulyasiya aktını imzalamaqdan başqa çarəsi qalmadı. İşğalçı qüvvələr 20 noyabrda Ağdamı, 25 noyabrda Kəlbəcəri, 1 dekabrda isə Laçını tərk etdilər.




Beləliklə, qüdrətli Azərbaycan dövləti Ulu Öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttə əsaslanaraq Müzəffər Ali Baş Komandanımız, yenilməz sərkərdəmiz İlham Əliyevin rəhbərliyi ilə tarixi zəfər qazandı. Xüsusi vurğulamaq lazımdır ki, 44 günlük müharibə günlərində cənab Prezidentimiz İlham Əliyev diplomatiya və informasiya cəbhəsində də əzmlə mübarizə apardı, Azərbaycanın haqlı mövqeyini məharətlə müdafiə etdi. Ümummilli Liderimiz Heydər Əliyevin "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı, hər zaman məzunu olması ilə fəxr etdiyini ifadə edərək yüksək dəyər verdiyi Bakı Dövlət Universitetinin professor-müəllim heyəti, tələbələri və məzunları da, hər bir azərbaycanlı kimi, 44 günlük Vətən Müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərdi. Universitetin çoxsaylı tələbə və məzunu könüllü olaraq cəbhəyə yollandı, onlardan 22 nəfər müqəddəs şəhidlik zirvəsinə ucaldı. Torpaqlarımız uğrunda canlarından keçmiş bütün şəhidlərimizin, eləcə də Bakı Dövlət Universitetinin tələbəsi və məzunu olan şəhidlərimizin əziz və unudulmaz xatirəsi hər zaman qəlbimizdə yaşayacaq.

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 dekabr 2020-ci il tarixli sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Anım Günü kimi qeyd edilir.

Azərbaycan dövlətinin qüdrəti, qəhrəman xalqımızın sarsılmaz birliyi, qazilərimizin qanı, şəhidlərimizin canı bahasına əldə edilən tarixi Qələbəmiz sonrakı zəfərlərə yol açdı. 2023-cü il sentyabrın 19-da cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, suverenliyimiz tam təmin olundu. Azərbaycanın qəhrəman oğulları bu tarixi qanları ilə yazdılar!

Prezident İlham Əliyev ötən il sentyabrın 19-da "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan dövlətinin, xalqımızın tarixində ən parlaq səhifələrdən biri olan sentyabrın 20-si hər il ölkəmizdə Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək.

27 sentyabr - müqəddəs şəhidlərimizin Anım Günündə torpaqlarımız uğrunda canlarından keçən soydaşlarımızı bir daha ehtiramla anırıq. Bizə Qələbə bəxş edən şəhidlərimizin ruhları qarşısında baş əyirik!

Azərbaycanın şanlı bayrağı bütöv, suveren Vətənimizin hər bir qarışında əbədi dalğalanacaq!

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də bəyan etdiyi kimi, "Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

# II Azərbaycan-Özbəkistan Media Forumunda iştirak edən özbəkistanlı jurnalistlər BDU-da





***Sentyabrın 29-da BDU-da "Rəqəmsal transformasiya və media" mövzusunda II Azərbaycan-Özbəkistan Media Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan özbəkistanlı jurnalistlərlə görüş keçirilib.***

BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev bildirib ki, Azərbaycan ilə Özbəkistan arasında bütün sahələrdə olduğu kimi, mətbuat sahəsində də münasibətlər yüksək səviyyədədir. O, ortaq tarixə, dilə, mədəniyyətə malik qardaş xalqlarımızın media sahəsində də birgə layihələr həyata keçirməsinin önəmini vurğulayıb. Daha sonra qonaqları Jurnalistika fakültəsinin peşəkar jurnalist kadrların hazırlanması istiqamətindəki fəaliyyəti ilə tanış edib. Bildirib ki, Jurnalistika fakültəsi postsovet məkanının universitetləri arasında ali jurnalistika təhsili verməyə başlayan ilk fakültədir.

BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov nümayəndə heyətinə Universitetin tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri haqqında məlumat verib. Qeyd edib ki, son bir neçə ildə BDU Özbəkistanın ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrini daha da gücləndirib. BDU Özbəkistan universitetləri ilə əməkdaşlıq müqavilələri imzalayıb, tələbə və müəllim mübadiləsi proqramları həyata keçirib.

BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Xatirə Hüseynova, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova çıxışlarında iki ölkə arasında media sahəsində əməkdaşlığın ortaq maraqlarımıza xidmət etdiyini diqqətə çatdırıblar.

Qonaqlar Özbəkistanda qəzet və onlayn xəbər saytlarının, informasiya agentliklərinin fəaliyyəti barədə danışıb, təmsil etdikləri media orqanları barədə məlumat verib, iki ölkənin ali jurnalist təhsili üzrə əməkdaşlığının əhəmiyyətini vurğulayıblar.

Sonra qonaqlar fakültənin strukturu və ixtisaslaşmış otaqları ilə tanış olublar.

# BDU ilə Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti arasında ikili diplom proqramı uğurla davam edir

***Sentyabrın 30-da Bakı Dövlət Universitetində tədrisin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması, beynəlxalq rəqabətliliyinin artırılması üçün dünyanın bir sıra qabaqcıl universitetləri ilə ikili diplom proqramlarının həyata keçirilməsi istiqamətində davamlı işlər görülür.***

Belə layihələrdən biri də BDU və Qazaxıstanın Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti (QMTTU) arasında "Neft kimyası" ixtisaslaşması üzrə magistratura səviyyəsində birgə ikili diplom proqramıdır. Layihənin məqsədi neft-qaz kimyası, yanacaqlar, təbii karbohidrogen ehtiyatları əsasında texniki əhəmiyyətli maddələrin alınması sahəsində hərtərəfli biliyə, müasir düşüncəyə sahib, problemlərin həllini bilən, eləcə də onları real olaraq tətbiq etmək bacarığına malik mütəxəssislərin hazırlanmasıdır.

Qeyd edək ki, QMTTU-da neft kimyası və kimya mühəndisliyi sahəsində yüksək səviyyədə bakalavr, magistr və doktorant hazırlığı həyata keçirilir. Universitet QS dünya universitetləri reytinqində 331-ci, QS ECCA reytinqində isə 64-cü pillədə yer alır. Universitetdə 114 tədris və tədqiqat laboratoriyası fəaliyyət göstərir. Satbayev Universiteti dünyanın 174 aparıcı ali təhsil müəssisəsi və 450 nüfuzlu şirkəti ilə əməkdaşlıq edir.

BDU və QMTTU arasında ikili diplom proqramına dair əməkdaşlıq müqaviləsinə əsasən, 2022/2023-cü tədris ilində iki məzun hazırlığı həyata keçirilib. Hazırda bu proqram üzrə əməkdaşlıq davam etdirilməkdədir. Belə ki, Qazax Milli Tədqiqat Texniki Universitetində Kimya fakültəsinin Neft kimyası və kimya texnologiyası kafedrasının "Neft kimyası" ixtisaslaşması üzrə magistrantı Günel Rüstəmli, Bakı Dövlət Universitetində isə QMTTU-nun magistrantı Aidana İskander təhsillərini, eləcə də dissertasiya mövzuları üzrə elmi araşdırmalarını davam etdirirlər.

# "BDU könüllüləri" təşkilatının komandası “Bakı Kvest 2025-İçərişəhər”də



***“BDU könüllüləri” təşkilatının üzvlərindən ibarət komanda Azərbaycan Gənclər Fondu və “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin birgə əməkdaşlığı, Azərbaycan Gənclər Təşkilatları Milli Şurası (NAYORA), Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ), Azərbaycan Könüllü Təşkilatları İttifaqı (AKTİ), “Böyük Qayıdış” Gənclər Təşkilatı, “CAVAN” Gənclər Hərəkatı, Azərbaycanlı Tələbələr və Məzunlar Platforması (ASAP), “Gənc Könüllülər” İctimai Birliyi və “Gənclərin Maarifləndirilməsinə Dəstək” İctimai Birliyinin tərəfdaşlığı ilə 20 sentyabr - Dövlət Suverenliyi Gününə həsr olunmuş “Bakı Kvest 2025-İçərişəhər” layihəsində iştirak edib.***

36 komanda və 540 gəncin iştirak etdiyi çempionatda gənclər onlara verilən tarixi sualların cavablarını əraziyə uyğun olaraq müəyyən etməklə unikal marşrutu tamamlayıblar.

Nəticələrə görə "BDU könüllüləri" təşkilatının komandası III yerə layiq görülüb.

# BDU tələbələri Heydər Əliyev Muzeyini ziyarət ediblər



***Sentyabrın 24-də İnformasiya və sənəd menecmenti, Filologiya fakültələrinin I kurs tələbələri Universitetin Heydər Əliyev Muzeyini ziyarət ediblər.***

Muzeyin mütəxəssisi Afət Seyidzadə 1997-ci ildə Ulu Öndər Heydər Əliyevin şəxsi razılığı ilə Universitetdə fəaliyyətə başlayan Muzey haqqında tələbələrə ətraflı məlumat verib. Bildirib ki, Heydər Əliyev Muzeyi Ümummilli Liderin zəngin irsinin təbliği və öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

Muzeydə BDU-nun dünya şöhrətli məzunu və fəxri doktoru, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin həyatının müxtəlif dövrlərini əks etdirən sənədlər nümayiş olunur.

Ulu Öndər Heydər Əliyevin mənalı ömrünün, xalqımızın və dövlətimizin rifahına həsr olunmuş həyatının ayrı-ayrı məqamlarından bəhs edən sənədlər və fotoşəkillər tələbələrdə böyük təəssürat yaradıb.

# Bakı Dövlət Universiteti 76-cı Beynəlxalq Astronavtika Konqresində təmsil olunur

*Konqresin builki əsas mövzusu “Dayanıqlı Kosmos: Dayanıqlı Yer” (Sustainable Space: Resilient Earth) olub, kosmos texnologiyalarının Yer üzündə dayanıqlılığa verdiyi töhfələri araşdırır və dünyanın müxtəlif ölkələrindən 10000-dən çox iştirakçını cəlb edir.*

***Sentyabrın 29-da BDU-nun doktorant və tələbələrindən ibarət heyət 29 sentyabr – 3 oktyabr 2025-ci il tarixlərində Avstraliyanın Sidney şəhərində keçirilən 76-cı Beynəlxalq Astronavtika Konqresində (IAC 2025) iştirak edir.*** Azərbaycan Milli Elmi Komandasının tərkibində BDU-nun SABAH qruplarının “Kompüter elmləri” ixtisasının IV kurs tələbəsi Bəxtiyar Novruzov, “Riyaziyyat müəllimliyi” ixtisasının IV kurs tələbəsi Nuray Səfərli, “Kimya müəllimliyi” ixtisasının məzunu, BDU-nun doktorantı Qəmzə Yahyayeva Bakı Dövlət Universitetini və ölkəmizi Beynəlxalq Astronavtika Konqresində uğurla təmsil edirlər.

Bu nüfuzlu tədbir kosmos sənayesi və akademiyasının ən yeni inkişafını, tədqiqatları və əməkdaşlıq imkanlarını müzakirə etmək üçün dünya miqyasında bir araya gələn platformadır.

Konqresin builki əsas mövzusu “Dayanıqlı Kosmos: Dayanıqlı Yer” (Sustainable Space: Resilient Earth) olub, kosmos texnologiyalarının Yer üzündə dayanıqlılığa verdiyi töhfələri araşdırır və dünyanın müxtəlif ölkələrindən 10000-dən çox iştirakçını cəlb edir.

BDU tələbələri və gənc tədqiqatçıları – Bəxtiyar Novruzov, Nuray Səfərli, Fidan Sərdarova, Aişə Xəlilli, Qəmzə Yəhyayeva və İsgəndər Məmmədov konqresdə müxtəlif mövzular üzrə məruzələrlə çıxış edəcəklər. Onların təqdimatları kosmos məlumatlarının böyük verilənlər və data analitikası üsulları ilə analizi, astronavtların kosmik şüalanmadan qorunması və məktəblilərə kimya ilə kosmosun inteqrasiyasının öyrədilməsi kimi müxtəlif mühüm mövzuları əhatə edir.

Bu iştirak BDU tələbələrinin beynəlxalq elmi mühitdə ölkəmizi uğurla təmsil etməsinə, Azərbaycanın kosmik tədqiqatlardakı mövqeyini möhkəmləndirməsinə və gənc alimlər üçün geniş təcrübə mübadiləsi imkanlarının yaradılmasına xidmət edir.

# BDU THİK I kurs tələbələri üçün silsilə məlumatlandırma sessiyalarına başlayıb



***Sentyabrın 30-da BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) I kurs tələbələri üçün silsilə məlumatlandırma sessiyalarına başlayıb.***

İlk görüşlər BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat, Tarix fakültələrinin tələbələri üçün keçirilib.

Görüşlərdə çıxış edən BDU THİK-in sədri Zöhrab Cavadzadə Komitə tərəfindən həyata keçirilən layihələr barəsində məlumat verib. Bildirib ki, BDU THİK-in fəaliyyəti tələbə həyatının bütün istiqamətlərini əhatə edir. Komitə ilə birgə fəaliyyət göstərən BDU-nun İdman-Sağlamlıq Mərkəzi də tələbələrin asudə vaxtlarının səmərəli və sağlam həyat tərzinə uyğun təşkili üçün çoxsaylı layihələr həyata keçirir. Universitetlərarası yarışlarda BDU tələbələri daim yüksək nəticələr əldə edirlər.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov tələbələrə Universitetin struktur bölmələrinin fəaliyyəti haqqında geniş məlumat verib. O, tələbələri gənclər təşkilatlarının həyata keçirdiyi layihələrdə, Universitetin ictimai həyatında fəal iştirak etməyə dəvət edib.

Görüşlər zamanı BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin əməkdaşları Qiyas Qiyaslı və Könül Hüseynova, Karyera və Məzunlarla İş Mərkəzinin Karyera planlaşdırması şöbəsinin müdiri Günel Qurbanova da öz fəaliyyət istiqamətlərinə uyğun olaraq tələbələri məlumatlandırıblar.

# Biologiya fakültəsi xarici universitetlərlə tədqiqat əməkdaşlığını genişləndirir

***Sentyabrın 26-da Biologiya fakültəsinin Biofizika və biokimya kafedrasının müəllimi Nigar Hüseynova professor Rövşən Xəlilovun elmi rəhbərliyi ilə Türkiyənin İzmir şəhərində yerləşən İzmir Yüksək Texnologiyalar İnstitutunda elmi ezamiyyətdə olub.***

Nigar Hüseynova İYTİ-nin Molekulyar biologiya və genetika departamentində “Kəskin limfoblastik leykemiya xəstəliyinin effektiv müalicəsinə yeni yanaşmaların tədqiqi” mövzusu üzrə tədqiqat aparıb. Tədqiqat işi zamanı müasir laboratoriya avadanlıqlarından istifadə olunub, nəzəri və praktiki biliklər artırılıb.

Fakültənin Genetika kafedrasının müəllimi Natəvan Baxşəliyeva Karadeniz Texniki Universitetinin Molekulyar biologiya və genetika kafedrasında elmi tədqiqat işi aparıb. Dosent Murat Erdem Güzel ilə birgə həyata keçirilən layihə Azərbaycanda yayılan Diospyros L. (Ebenaceae) cinsinə aid növlərin genetik polimorfizminin və filogenetik əlaqələrinin ISSR, ScOT və ITS markerləri əsasında öyrənilməsini əhatə edir. Araşdırma Azərbaycanın florasında Diospyros növlərinin genetik müxtəlifliyi və təkamül əlaqələrinin müəyyən edilməsinə mühüm töhfə verəcək.

Bu cür beynəlxalq əməkdaşlıqlar fakültənin gənc alim və tədqiqatçılarına müasir elmi metodologiyaları mənimsəmək, qabaqcıl laboratoriya imkanlarından yararlanmaq və elmi əlaqələr qurmaq üçün geniş imkanlar açır.

# BDU-da Bilik Günü qeyd olunub

## Bakı Dövlət Universitetində Bilik Günü münasibətilə tədbir keçirilib





***Əvvəlcə Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin orkestrinin ifasında Dövlət himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

BDU rektoru Elçin Babayev yeni tədris ili münasibətilə müəllim və tələbələri, valideynləri təbrik edib, onlara uğurlar arzulayıb. Rektor qalib ölkəmiz və xalqımız üçün bu ilin əlamətdar olduğunu qeyd edib. Bu il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" qeyd olunur, müstəqil Azərbaycanın Konstitusiyasının 30, Qarabağda böyük Zəfərimizin 5 illik yubileyləridir: "Bu gün Qarabağda aparılan bərpa işləri, cənab Prezidentin bu bölgəyə səfərləri onu göstərir ki, bizim ölkəmiz yalnız sülh istəyir, yaradıcılığa, quruculuğa köklənib. Dünyada baş verən hadisələrin fonunda isə çiçəklənən və qüdrətlənən Azərbaycan bir nümunəyə çevrilib. Bakı Dövlət Universitetinin də bu inkişafda payı var. Biz tələbələrimizlə fəxr edir, hər birinə bu yolda uğurlar və sağlamlıq arzulayırıq. Gəlin zəngin keçmişi, böyük potensialı, gözəl ənənələri və parlaq gələcəyi olan Bakı Dövlət Universitetinin şərəfini, şöhrətini daha da yüksəklərə qaldıraq, bunun üçün birlikdə çalışaq. Düşünürəm ki, sizlər BDU-nu seçməklə özünüz üçün ən düzgün qərarı vermisiniz. Dünyada bütün universitetlər öz məzunları ilə fəxr edir. BDU da öz məzunları ilə daim fəxr edir. Universitetimizin ən böyük məzunu xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Biz hər zaman bu adı qürurla çəkirik. Siz də fəxr etməlisiniz ki, belə bir Universitetin tələbələrisiniz".

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli nazir Emin Əmrullayevin təbriklərini çatdırıb, yeni tədris ilində müəllim və tələbələrə uğurlar arzulayıb. O, BDU-nun həm elm, həm də həyat məktəbi olduğunu qeyd edib: "Ölkəmiz məhz bilikli, savadlı gənclərin sayəsində daha da inkişaf edəcək. Əminəm ki, siz gələcəkdə BDU məzunu olmağınızla fəxr edəcəksiniz".

Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov, Milli Məclisin üzvləri - Elm və təhsil komitəsinin sədri, BDU-nun kafedra müdiri Anar İsgəndərov, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, BDU-nun İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev, BDU-nun İctimai Nəzarət Şurasının üzvü Əminə Ağazadə, valideynlər adından Milli Məclisin üzvləri Vüqar Rəhimzadə və Elnarə Akimova çıxışlarında müəllim və tələbələri Bilik Günü münasibətilə təbrik edib, təhsil həyatlarında uğurlar arzulayıblar.



Sonra 2025/2026-cı tədris ilində bakalavr pilləsi üzrə "Hüquqşünaslıq" (tədris ingilis dilində) ixtisasına 697.5 balla qəbul olunan Çiçək Hümmətli, Tarix fakültəsinin I kurs tələbəsi, 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış polkovnik-leytenant Anar Əliyevin övladı Nigar Əliyeva çıxış edərək, arzu və istəklərini bildiriblər.

Tədbir BDU-nun himninin səsləndirilməsi ilə başa çatıb.

# BDU-da Tələbə İnkişaf Mərkəzi açılıb





***Sentyabrın 15-də BDU-da Tələbə İnkişaf Mərkəzi açılıb.***

Mərkəzin açılışında BDU rəhbərliyi, Elm və Təhsil Nazirliyinin, Milli Məclisin, Universitetin İctimai Nəzarət Şurasının nümayəndələri, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Mərasimdə çıxış edən rektor Elçin Babayev qeyd edib ki, bu gün 106 yaşını qeyd edən Bakı Dövlət Universitetinin inkişafında növbəti səhifə açılır. BDU yeni tədris ilinə öz yeni uğurları ilə gəlib çatıb və beynəlxalq reytinqlərdə öz nəticələrini xeyli yaxşılaşdırıb. 2025/2026-cı tədris ilində bakalavriat səviyyəsinə 5300-ə yaxın, magistratura səviyyəsinə isə 1100 nəfər qəbul olunub. Yüksək bal toplayan tələbələrin də sayı kifayət qədər çoxdur: "Universitet özünün zəngin ənənəsini qoruyub saxlayır. BDU öz unikal keçmişinə xüsusi hörmətlə yanaşır və eyni zamanda, strateji inkişafına uyğun olaraq gələcəyə daha böyük planlarla və inamla addımlayır. Bu gün açılışı olan Tələbə İnkişaf Mərkəzi tələbələrin müxtəlif maraqlar üzrə şəbəkələşməsinə, onların inkişafına, elmi problemlərin, yeni ideyaların müzakirəsinə və həll yollarının birgə axtarılmasına şərait yaradacaq . Düşünürük ki, bu cür məkanların olması təhsilalanların elm, təhsil və innovasiyalar sahəsində öz uğurlarını artırması ilə yanaşı, eyni zamanda, onların sosial həyatının düzgün təşkilinə də xidmət edəcək".

Rektor qeyd edib ki, BDU-nun tədris və tədqiqatla bağlı infrastrukturunun yenilənməsi ilə bağlı çoxsaylı layihələr nəzərdə tutulur: "Qarşıdan gələn illərdə bunun şahidi olacağıq. Ərazimizdə artıq bir neçə tələbəyönümlü məkan fəaliyyət göstərir. Onların siyahısında COP29 çərçivəsində açılmış "Ekoməkan"ı, "Tələbə məkanı"nı, "Ekoenerji məntəqəsi"ni və digərlərini qeyd etmək istərdim.

Vətənimiz Azərbaycan üçün yüksək səviyyəli kadr hazırlığı hər bir ali təhsil müəssisəsinin başlıca vəzifəsidir. Biz bu vəzifəni vicdanla və yüksək keyfiyyətlə yerinə yetirməklə gələcəyimizin inkişafına xüsusi töhfə vermiş oluruq".


**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
**Çapa imzalanıb:** 30.09.2025
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08